AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ

OZAN DÜNYASI

№ 4(15)
2013

AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ

Ozan dünyası **№ 4 (15), 2013**

Millətimi saz anladar, saz anlar,
Saza baxsın tariximi yazanlar.

Zəlimxan Yaqub
Xalq şairi

Baş redaktor: **Musa NƏBİOĞLU**

REDAKSİYA HEYƏTİ:

Zəlimxan Yaqub (məsləhətçi)
Məhərrəm Qasımlı (məsləhətçi)
Həsən Mirzə
Nizami Cəfərov
Muxtar İmanov
Qəzənfər Paşayev
Qənirə Paşayeva
İsmayıl Məmmədli
Elxan Məmmədli
İlyas Tapdıq
Məmməd Aslan
Seyfəddin Qəniyev
Ədalət Nəsibov
İsfəndiyar Rüstəmov
Seyfəddin Altaylı (Türkiyə)
Nizaməddin Onk (Almaniya)
Çingiz Mehdioğlu (İran)
Nazim İrfan Nəsrəddinoğlu (Türkiyə)
Osman Əhmədoğlu (Gürcüstan)

Rəssam: ***Ömər Qoçulu***
Əməkdar memar, memarlıq namizədi

Ünvan: Bakı, Zərifə Əliyeva küç. 53
Əlaqə telefonları:
(+ 994 12) 493 86 61
(+994 50) 345 36 52
musa58@bk.ru

BAKIDA "KİTABİ-DƏDƏ QORQUD" ABİDƏSİNİN VƏ DƏDƏ QORQUD PARKININ AÇILIŞI OLMUŞDUR

Prezident İlham Əliyev açılış mərasimində iştirak etmişdir

Dekabrın 13-də Bakının Nərimanov rayonunda ucaldılan "Kitabi-Dədə Qorqud" abidəsinin və yeni salınan Dədə Qorqud parkının açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.

"Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının tarixi keçmişini əks etdirən möhtəşəm sənət abidəsidir. Əsərdə vətənpərvərlik, qəhrəmanlıq, müdriklik, Azərbaycan xalqının tarixi keçmişi, Oğuz türklərinin dünyagörüşü, mənəvi dəyərləri, adət-ənənələri, Azərbaycan toponimləri əks olunmuşdur. Dastan dilimizin qədim incəliklərini, tarixi hadisələri və şəxsiyyətləri, xalqımızın mədəniyyətini öyrənməkdə əvəzsiz mənbədir.

Müasir dövrdə "Kitabi-Dədə Qorqud" dastanının öyrənilməsi, dünyada geniş tanıdılması və təbliği ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Hələ 1975-ci ildə Heydər Əliyevin tapşırığına əsasən, Azərbaycanda tanınmış sənət xadimlərinin iştirakı ilə "Dədə Qorqud" bədii filmi çəkilmişdir. Ulu öndər Heydər Əliyevin Fərmanı ilə dastanın 1300 illiyi türkdilli ölkə rəhbərlərinin iştirakı ilə dövlət səviyyəsində qeyd olunmuşdur. Ümummilli lider Heydər Əliyevin 2000-ci ildə imzaladığı Fərmana əsasən Bakıda Dədə Qorqud heykəlinin ucaldılması və "Dədə Qorqud dünyası" tarixi-etnoqrafik kompleksinin yaradılması qərara alınmışdır. Bu tarixi abidənin qorunmasına dövlət səviyyəsində göstərilən diqqətin nəticəsidir ki, Prezident İlham Əliyev 2004-cü ildə Brüsseldə Dədə Qorqud abidəsinin təntənəli açılışında iştirak etmişdir. Dövlətimizin başçısının 2007-ci ildə imzaladığı "Azərbaycandakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında" Sərəncama əsasən, Dədə Qorqud heykəli və "Dədə Qorqud dünyası" tarixi-etnoqrafik kompleksinin yaradılması ilə bağlı müvafiq tədbirlərin görülməsi haqqında tapşırıq verilmişdir. Geniş tikinti və abadlıq işləri nəticəsində Bakının Nərimanov rayonunda 6 hektar ərazidə Dədə Qorqud parkı salınmışdır. Parkın mərkəzində "Kitabi-Dədə Qorqud" abidəsi ucaldılmışdır.

Dövlətimizin başçısı kompleksdə həyata keçirilən tikinti-quruculuq işlərini daim nəzarətdə saxlamış, mütəmadi olaraq əraziyə gələrək müvafiq tapşırıq və tövsiyələrini vermişdir. Yeni salınan park Bakı şəhərinin simasının daha da

gözəlləşməsinə geniş imkanlar açaraq paytaxt sakinlərinin istirahəti baxımından xüsusi əhəmiyyət daşıyır.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov Prezident İlham Əliyevə park haqqında ətraflı məlumat verdi.

Dövlətimizin başçısının Bakı şəhərində park və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən, bu ərazidə xüsusi layihə üzrə müasir səviyyədə yeni park salınmışdır. Bu istirahət məkanı paytaxtın ən böyük parklarından biridir. Parkda sakinlərin istirahəti üçün hər bir şərait yaradılmış, geniş yaşıllıq zolaqları salınmış, müasir standartlara uyğun işıqlandırma sistemi qurulmuşdur. Dədə Qorqud parkı həm də qədim Azərbaycan tarixinin və mədəniyyətinin açıq havada nümayişi meydanıdır. Park Azərbaycan Diplomatik Akademiyasının yanında salınmışdır. Burada ölkəmizin qədim tarixi və zəngin mədəniyyəti ilə bağlı toplanan məlumatlar şübhəsiz ki, şəhər sakinlərinin, qonaqların, xüsusilə də Azərbaycan Diplomatik Akademiyasının yerli və əcnəbi tələbələrinin informasiya almasında mühüm rol oynayacaqdır.

Parkda yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev mərasimdə iştirak edən elm, təhsil və mədəniyyət ictimaiyyətinin tanınmış nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Bu gün çox əlamətdar bir gündür. Biz Bakıda Dədə Qorqud abidəsinin açılışına toplaşmışıq. Mən sizin hamınızı bu münasibətlə ürəkdən təbrik edirəm.

Bu abidənin ucaldılması böyük hadisədir. “Kitabi-Dədə Qorqud” Azərbaycan xalqının milli sərvətidir. Bu əsərdə Azərbaycan xalqının keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur. Əsərin qəhrəmanlarının adlarını Azərbaycanın çoxsaylı yaşayış məntəqələrində görmək olar. Bu əsərdə Azərbaycan toponimləri əks olunmuşdur. Bir sözlə, “Kitabi-Dədə Qorqud” dastanı Azərbaycan xalq ədəbiyyatının yazılı abidəsidir. Bu dastan hər bir azərbaycanlı üçün əzizdir. Bu gün bu abidənin ucaldılması Azərbaycan xalqının bir daha öz tarixi keçmişinə, mədəniyyətinə olan münasibətinin təzahürüdür.

Bildiyiniz kimi, 1950-ci illərə qədər “Kitabi-Dədə Qorqud” Sovet İttifaqında qadağan edilmişdi. Ancaq 1950-ci illərdən sonra Azərbaycan alimlərinin səyləri nəticəsində bu əsər tədqiq edilməyə başlanmışdır. Təsadüfi deyil ki, bu əsərin tədqiqi ilə bağlı olan elmi işlər Azərbaycan alimlərinə məxsusdur. Bu, bir daha onu göstərir ki, bu əsər bizim xalqımıza, bütün türk dünyasına məxsusdur. Amma Azərbaycanda “Kitabi-Dədə Qorqud” dastanına xüsusi münasibət vardır. Əsərdə Oğuz eli kimi coğrafi məfhum bütün Azərbaycan ərazilərini əhatə edir. 1970-1980-ci illərdə ulu öndər Heydər Əliyevin tövsiyəsi ilə əsərin təbliği, onun sovet, dünya ictimaiyyətinə çatdırılması ilə bağlı konkret qərarlar qəbul edilmişdir. Ulu Öndərin tövsiyəsi ilə 1970-ci illərdə bədii film çəkilmişdir.

Ondan sonra, müstəqillik dövründə - 1993-2003-cü illərdə artıq bu dastanı dünya ictimaiyyətinə çatdırmaq üçün çox böyük işlər görülmüşdür.

2000-ci ildə Bakıda dastanın 1300 illik yubileyi təntənəli şəkildə keçirilmişdir. Bütün türkdilli ölkələrin dövlət başçılarının, UNESCO-nun baş direktorunun iştirakı ilə böyük təntənəli mərasim keçirilmişdir. "Dədə Qorqud" ensiklopediyası nəşr olunmuşdur. Ulu öndər Heydər Əliyev Dədə Qorqud heykəlinin ucaldılması haqqında Sərəncam vermişdir. Yəni, bütün bunlar bir daha onu göstərir ki, Dədə Qorqud Azərbaycan xalqının qəlbində daim yaşayırdı, yaşayır və yaşayacaqdır. "Kitabi-Dədə Qorqud" dastanı, eyni zamanda, bütün türk dünyasını daha da sıx birləşdirir. Azərbaycan türkdilli dövlətlərin daha da sıx birləşməsi üçün öz səylərini əsirgəmir. Bu, bizim xarici siyasətimizin ayrılmaz hissəsidir, əsas istiqamətlərindən biridir. Türkdilli ölkələrin dövlət başçılarının Azərbaycanda keçirilmiş Zirvə görüşləri bunun əyani sübutudur. Bakıda, Naxçıvanda, Qəbələdə keçirilmiş bu Zirvə görüşləri türk dünyasını daha da sıx birləşdirir. Son Zirvə görüşündə mən qeyd etmişdim və bir daha demək istəyirəm ki, XXI əsr türk dünyasının əsri olmalıdır.

Türk dünyasında gedən inkişaf, qarşılıqlı əməkdaşlıq, müsbət demoqrafik dinamika əlbəttə ki, bizi daha da gücləndirəcək və bütün türkdilli dövlətlərin əməkdaşlığı, bir-birinə olan dəstəyi hesabına hər bir dövlət öz milli maraqlarını daha da böyük dərəcədə qoruya biləcəkdir.

Bizim ölkələrimizi əlbəttə ki, siyasi maraqlar, iqtisadi sahədəki əməkdaşlıq bağlayır. Ancaq əməkdaşlığımızın təməlində ortaq tarix, tarixi köklər dayanır, o cümlədən "Kitabi-Dədə Qorqud" dastanı burada çox böyük rol oynayır. Ona görə, mən hesab edirəm ki, bugünkü mərasim bütün türk dünyasında gözəl əks-səda verəcəkdir.

Eyni zamanda, bu gün biz gözəl parkın - Dədə Qorqud parkının açılışını qeyd edirik. Yəqin ki, hamımız yaxşı xatırlayırıq, bu ərazi çox baxımsız vəziyyətə düşmüşdü. Burada böyük abadlıq işlərinə ehtiyac var idi. Bu parkın ərazisi genişləndirilmişdir, gözəl süni göl yaradılmışdır. Bu gölün sahəsi üç hektardır. Gəzinti zolaqları yaradılmışdır. Yəni, bu park Bakı sakinlərinin sərəncamına verilir və əminəm ki, bu, növbəti gözəl istirahət zonası olacaqdır. Onu da qeyd etmək istəyirəm ki, Ulu Öndərin Sərəncamı ilə Dədə Qorqud heykəlinin məhz bu parkda ucaldılması nəzərdə tutulmuşdur. Sadəcə olaraq, biz Ulu Öndərin siyasətinə sadiq qalaraq bu işləri başa çatdırdıq. Mən çox şadam ki, bu gün bu gözəl park və abidə açılır.

Bakı şəhəri artıq parklar, bağlar şəhərinə çevrilmişdir. Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən birinə çevrilmişdir və bizim bu sahədəki fəaliyyətimiz getdikcə genişlənəcəkdir. Bakıda yeni istirahət zonalarının yaradılması ilə bağlı planlarımız vardır. Onların bir hissəsi icra edilir, bir hissəsi icra edilmişdir.

Bakı nadir bir şəhərdir. Təkcə gözəlliyinə görə yox, ona görə ki, Bakıda bir neçə mərkəz vardır. Adətən, şəhərlərdə, hətta böyük şəhərlərdə bir, ya iki mərkəz olur, ancaq Bakıda bir neçə mərkəz vardır.

İçərişəhər Bakının mərkəzidir. Azadlıq Meydanı, Bulvar şəhərin mərkəzidir. Yeni Bulvar, tikilməkdə olan Ağ Şəhər Bulvarı, Heydər Əliyev Mərkəzi artıq şəhərin mərkəzinə çevrilmişdir. Heydər Əliyev Sarayının önündə və arxa hissəsində salınmış yeni parklar, - onların uzunluğu bir kilometrdən çoxdur, -

mərkəzə çevrilmişdir. Yəni, bu, şəhərimizin xüsusiyyətidir. Əlbəttə, bu parkın açılması həm insanların istirahəti üçün yeni imkanlar yaradacaq, eyni zamanda, şəhərin bu hissəsinin abadlaşdırılmasına xidmət göstərəcəkdir. Biz gözəl şəhərimizin daha da gözəlləşdirilməsi işində bundan sonra daha böyük işlər görəcəyik.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan bu gün dünya miqyasında siyasi və iqtisadi mərkəzlərin birinə çevrilmişdir. Yüksək səviyyəli çoxsaylı tədbirlərin, zirvə görüşlərinin, iqtisadi forumların, dünyanın bir nömrəli iqtisadi forumu olan Davos Forumunun Azərbaycanda keçirilməsi əlbəttə ki, ölkəmizin siyasi və iqtisadi mərkəz kimi təqdim edilməsinə xidmət göstərir.

Eyni zamanda, Azərbaycan bu gün dünyanın humanitar mərkəzlərinin birinə çevrilmişdir. Ölkəmizdə keçirilən humanitar forumlar, Mədəniyyətlərarası Dialoq Forumunun iki toplantısı, digər tədbirlər Azərbaycanı artıq dünya miqyasında bir humanitar mərkəz kimi təqdim etmişdir. Bizim bu sahədəki rolumuz getdikcə artacaqdır. Çünki müasir, qloballaşan, ziddiyyətlə, toqquşmalarla dolu olan dünyada humanitar əməkdaşlığın əhəmiyyəti daha da artmalıdır. Azərbaycan bu sahədə nəinki bu tədbirlərə ev sahibliyi edir, eyni zamanda, öz təcrübəsini bölüşür, öz reallıqlarını ortaya qoyur və sübut edir ki, humanitar sahədə əməkdaşlıq təkcə humanitar sahə ilə məhdudlaşmır. Humanitar sahədə əməkdaşlıq dünyada gedən siyasi proseslərə müsbət təsir edir və etməlidir. Azərbaycanın siyasi konsepsiyası bu təməl üzərində qurulubdur - əməkdaşlıqdan maraqların təmin edilməsinə, qarşılıqlı yardımdan daha da dərin əməkdaşlığa. Bizim bu sahədə siyasətimiz yenə də demək istəyirəm ki, təkcə humanitar məsələlərlə məhdudlaşmır.

Əslində bütün dünya humanitar əsaslar üzərində qurulubdur. Bir daha demək istəyirəm ki, müasir, qloballaşan, böyük çətinliklərlə üzləşən dünyada humanitar əməkdaşlığın çox böyük mənası vardır. Ona görə mədəniyyət sahəsinə ayrılan diqqət, dövlət siyasəti hesab edirəm ki, xalqımız və dünya üçün lazımdır, vacibdir. Azərbaycan cəmiyyəti, əgər belə demək mümkündürsə, çox zəngin mədəni həyatı ilə yaşayır. Ölkəmizdə, Bakıda və bölgələrdə keçirilən çoxsaylı mədəni tədbirlər, festivallar, müsabiqələr artıq bir ənənəyə çevrilmişdir. Azərbaycana gələn qonaqlar dünyanın incəsənət və mədəniyyət elitasını təmsil edirlər, ölkəmizlə tanış olurlar, ölkəmizdən çox gözəl təəssüratlarla ayrılırlar. Bu da Azərbaycanın dünya miqyasında tanınmasında öz rolunu oynayır. Eyni zamanda, xaricdə, dünyanın aparıcı ölkələrində keçirilən Azərbaycan günləri bizim zəngin mədəniyyətimizi bir daha dünya birliyinə çatdırır. Dünyanın aparıcı şəhərlərində açılan Azərbaycan mədəniyyət mərkəzləri öz rolunu oynayır. Xaricdə Azərbaycan sərgilərinin keçirilməsi adi hala çevrilibdir. Yəni, mən hesab edirəm ki, mədəni, humanitar sahələrdə Azərbaycan böyük uğurlara imza atmışdır və cəmiyyətimizin normal, sağlam yaşaması üçün bu sahəyə daim böyük diqqət göstərilməlidir. Mən şadam ki, ölkəmizdə bu sahədə də Heydər Əliyev siyasəti davam etdirilir. Əminəm ki, biz gələcəkdə bu sahədə daha da böyük işlər görə biləcəyik.

Əziz dostlar, bu gözəl hadisə münasibətilə bir daha sizi ürəkdən təbrik etmək istəyirəm. Artıq Bakıda Dədə Qorqud parkı, Dədə Qorqud abidəsi vardır. Bir neçə dəqiqədən sonra biz hamımız bu abidənin açılışını qeyd edəcəyik.

Hər bir Azərbaycan vətəndaşına sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram. Sağ olun.

Zəlimxan YAQUB
Xalq şairi

MƏMMƏD ARAZ DÜNYASINA SƏYAHƏT

Borçalıdan Bakıya təzə gəlmişdim. Azərbaycan mətbuatına təzə-təzə ayaq açırdım. Çağdaş Azərbaycan şairlərini görmək, tanımaq, duymaq istəyirdim. Sevdiyim adlar içərisində bir ad da var idi. Məmməd Araz! Əvvəllər Məhəmməd İbrahimov olan, adında və soyadında iki peyğəmbərin – İbrahim peyğəmbərin və Məhəmməd peyğəmbərin adlarını daşıyan şairimiz Məmməd Araza çevrildi, Məmməd Araza döndü. Arazı özünə təxəllüs götürdü. Araz bizim üçün göz yaşı, hıçqırıq, ayrılıq, həsrət, hicran olduğuna görə bu çay Məmməd Arazın taleyinə yazıldı. "Gələcəyə inam sarıdan dünyanın ən varlı adamı"nı görmək üçün fürsət axtarırdım. Bu fürsəti mənə Bakıda qarşılaşdığım ədəbi mühit verdi. O mühit ki, orada Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Hüseyn Arif, Məmməd Araz, Xəlil Rza, Söhrab Tahir, Nəriman Həsənzadə, Tofiq Bayram, Cabir Novruz kimi istedadlı şairlər nəsli yazıb yaradırdı.

Məmməd Araz öz halal ilhamının ilkini, əzəlini Naxçıvandan, Şahbuzdan, Nursdan, Batabatdan, Zor bulaqdan, ata yurdundan, anasının şairənə dünyasından, atası İnfil kişinin nəfəsindən və taleyindən almışdı. Halal ilham həmişə dediyini deyir, təmiz, pak, saf bir dünyası var halal ilhamın. Məmməd Araz ilhamı kimi!

Məmməd İbrahimovun Məmməd Araz olması çox da uzun çəkmədi, Arazı təkcə çay adı kimi götürmədi. Azərbaycanın tarixi kimi, yararlanmış və paralanmış torpağımızın taleyi kimi, o taylı-bu taylı vətənimizin dərdləri kimi "Gülüstan" və "Türkmənçay" anlaşmasına münasibət kimi götürdü.

Sahilində küləklər,
Gəzməyib mənim kimi.
Sularında ördəklər
Üzməyib mənim kimi.
... O mənim mürəkkəbim,
Mən onun qələmiyəm.
O mənim telli sazım,
Mən onun Dilqəmiyəm.
...Yox, Araz deyəndə mən,
Təkcə çay düşünmürəm.
...Mən Arazın səsiyəm,
Mən onun yatağıyam.
Mən onun sahiliyəm,
Mən onun ləpəsiyəm.

– dedi, Araz çayının onun üçün nə olduğunu poetik bir dillə xalqa bəyan etdi, mənasını, məzmununu açdı. Araz şair üçün dərdli insanın tərcümeyi-halı, Vətənin vəziyyəti, torpağın həsrəti, millətin ağrılı-acılı günləri, "bir gəlin hörüyü, bir ana yuxusu, Qıratın yalmanı, Bozatın tərliyi, dilsiz çöllərin nəğməkar dilidir" deyib, Arazın yatağı kimi qəmli suları canına çəkdi, Arazın səsi kimi qəmli-qəmli oxudu, Arazın sahibi kimi həm o taya, həm bu taya yana-yana baxdı, Arazın ləpələri kimi həsrətli nəğmələr oxumağa başladı.

Şeirlərin adına fikir verin: "Araz yadıma düşüb", "Mən Araz şairiyəm", "Oxuyan Təbriz", "Bu gecə yuxumda Arazı gördüm", "Araz dili", "Araz axır". Bu əsərlərin hansını oxuyursan oxu, hamısında xalqın taleyi, Vətən torpağının tərcümeyi-halı, millətin dərdi var. Araz şairin vətən haqqında yaratdığı, ümumiləşmiş poetik obrazıdır.

Arazımla yol yoldaşı olmadım,
Bu da belə bir ömürdü, yaşadım.

– deyən şair əsl sənətkar ömrü yaşadı, qitələr, ölkələr dolandı, Viktor Hüqo qitəsindən keçdi, "Eyfel qülləsi"ni nişan verdi, "Nazimə Türkiyə sovqatı" gətirdi, yaddaşlara səs kimi yazıldı, vətəninə oğul oldu, "Qalx ayağa, Azərbaycan" deyib milləti ayağa qaldırdı, Mirzə Cəlil yanğısından, Sabir kəsərindən yazdı, dünyanı düzəltmək uğrunda vuruşdu, şeirin səngərində həqiqət uğrunda döyüşdü, Xəzərin dərdindən Gülə məktub yazdı, Vətənin daşına, torpağına çevrildi, başının üstündə çaxan ildırımlara "dağların çibini" kimi baxdı, ocaq keçəndə, budaq qırılanda, bulaq su-

sanda, düzlərdən ceyran azalanda özünü günahkar saydı, ölə-ölə yazmadı, yaza-yaza öldü. "Haqqın var, Məmməd Araz!" haqqını qazandı, ənənə ilə müasirliyi birləşdirdi. Şair, qayalara, dağlara söykən, mənim də arzumu sən yaşat bir, – dedi, qələm dostu Musa Yaqubu əbədiyyətə harayladı. Qaya obrazını yarada-yarada özü də qayaya çevrildi. Daş altda yanan suda şair varlığını göstərdi, "Üç oğul anası"na layla çaldı, müharibəyə nifrət yağdırdı. "Atamın kitabı"nda Nizamini fikir dağına bənzətdi, Bethovenə, Üzeyir bəyə, Qara Qarayevə, Fikrət Əmirova simfoniya verən, "Qatar" verən dağlarla üz-üzə gəldi. Homer, Dante, Puşkin zirvələrinə əl atdı, atasının çəkdiyi əziyyətləri zəhmət əlifbası kimi şeirə gətirdi, su ilə söhbət elədi, torpaqla danışdı, "anadan-bacıdan gizlətdiyini, kağızdan, qələmdən gizlətmədi", qəbirlər önündə diz çökdü, xatirələr yaza-yaza özü də xatirələşdi, Məmməd Araz oldu!

Məmməd Araz deyiləndə bir də mənim gözlərimin önünə qayalar gəlir. "Qayalara yazılan səs", "Daş qartal", "Ağlayan qayalar", "Məmməd Araz qayası", "Qanadlı qayalar", "Daş harayı", "Ərimgəldi qayası" şeirləri təsadüfən yazılmayıb. M.Araz zirvəsi, M.Araz dağı, M.Araz kürsüsü, M.Araz ucalığı, M.Araz bulağı gəlir xəyalıma. Qaya Məmməd – Məmməd qaya olmaq da hər şairə qismət olmur.

"Mən duyuram sən olmağın ağırlığını. Ey mən qaya, mən olmaq da asan iş deyil", – deyən şair qayaların taleyini insanlaşdırır, daşlarınqayaların nə çəkdiyini insanlara xatırladır. Daş – ağlaya-ağlaya yol gözləyən daşa dönmüş anadır, daş – dünyanın taleyini düşünən insandır, daş – daşlaşan dilimizdir, daş – "daşlaşan, torpaqlaşan ulu babam"ın harayıdır. Daş – bir qayaya söykənib daşa dönmək istəyən bir şairin ölümsüz obrazıdır. Daş – beli sınan, tağı uçan körpülərin, ağrı-acrısıdır. Çünki "o da elə bir gün idi, igidlərin yaşaması daş olmaqla mümkün idi". Çünki, "Qaya kimi dayaq olub, yumruq olub, ox olublar, qayadöşlü qəhrəmanlar qayalıqda yox olublar". Qaya-daş obrazı Məmməd Araz üçün canlı həyatdır. Ona görə də Vətənin özünü də qayalaşdırır şair.

Azərbaycan qayalarda bitən bir çiçək,
Azərbaycan çiçəklər içində qaya

– deməklə vətəni bir daha müqəddəsləşdirir şair.

Bir qayanın dibindəcə süfrə açdıq,
Kürsümüz də, mizimiz də daşdan idi.

Məmməd Arazın havasında, suyunda, süfrəsində, çörəyində, təbiətində, xarakterində bir qaya təbiəti var. Məmməd Araz yaradıcılıqda neylədisə, "Vətəni sevmək naminə, ucaltmaq naminə" elədi. Sözlə həm vətəni ucaltdı, həm də özü ucaldı.

Məmməd Araz istedadlı, "ağıllı ürəkdən, ürəkli ağıldan" doğuldu. Onun poeziyası qələmə qardaş, varaqlara şumlanmış torpaq dedi, yazı masasını Mil-Muğan, Qarabağ düzünə bənzətdi, yaradıcılığı sirdaş bacı, həmdəm qardaş bildi, ürəyin yarpaq dilini, bənövşə nisgilini duydu, ürəksiz başlardan, başsız ürəklərdən uzaq oldu. "Bir zərrənin işığına milyonlar şərik olan dünyada, Yüz il qoşa atılsaq da qoşa düşmərik" – şeirdən bir dünya yaratdı.

Füzulidən Allah nişanı, Səməddən vurğunluq aldı. Sevgi nəğməsi oxudu. İlham pərisi ilə həmişə dost oldu. Babək qılıncına söykəndi.

Məmməd Araz olmaq üçün nurlu suda yuyunmalısan, şeirin çətin yollarında addımlamalısan, torpağın dilini bilməlisən, kotandan, xışdan yapışmalısan, holavar oxumalısan, ana ürəyinin qubarından, ata əlinin qabarından doğulmalısan, bir qayaya söykənib qayaları, daşları daş dilində dilləndirməlisən, səndən-məndən ötüb vətənə dəyən zərbələri öz üzərinə götürməlisən, "Günəşi ittiham edənlər"ə cavab vermək üçün çox sualları cavablandırmalısan, qara sazın tellərində "bəlkə bu yerlərə bir də gəlmədim" deməlisən, eyni zamanda sən bu dünyadan getsən də, dərələr, dağlar, meşələr, çəmənlər, qarlı zirvələr, əsən yellər, ötən dillər səndən deməli, səndən danışmalıdır. Ürəksiz bir kəlmə də olsun yazmamalısan. Dünəni döşdən asmamalısan, dünəninə qəbir qazmamalı, tarixi tarix kimi göstərməlisən. Ürək elə deməlidir ki, əl öz yazdığını dəyişməsin. Budur Məmməd Araz olmağın çətinliyi!

Məmməd Arazın yolu Nizamidən başladı, Füzulidən keçdi, Aşıq Ələsgərdən, Səməd Vurğundan qüvvət aldı.

Hər külək ağzında bir səmtə varsam,
Açılmaz şeirimin qızıl dan yeri.
Əgər yer üzündə Nizami varsa,
Fikir dartımıdır fırladan yeri.

– dedi, Nizamiyə söykəndi. Yolunu heç çaşmadı, fikrini, əqidəsini parçalamadı, dar cığırları böyük yollara qovuşdurdu.

Bu yollarda öləcəyəm, özüm bilirəm,
Bu ölümü ən şərəfli ölüm bilirəm.

– deyib şeirin-sərvətin yolunda yeni bir işıq yandırdı. Elə bir işıq ki, o heç vaxt sönməyəcək.
Məmməd Araz əkinçi ömrü yaşadı:

Bir ömür yaşadım – əkinçi ömrü,
Öz ömrümü şum elədi öz əlim.

Varaqları qara şum elədi. O şumda Məmməd Araz karandaşı göyərdi. Varaqlara söz toxumu səpdi, bərəkət göyərtdi, sünbül yetişdirdi, unu, dəni, çörəyi evləri, süfrələri, könülləri bəzədi. Onun söz süfrəsində hər cür nemət oldu.

Mən gözəl bir süfrə açdım,
sözdən əhli-aləmə,
Onda bir zövq artıran
hər dürlü nemət düzmüşəm.

– deyən babası Füzuli kimi, sözün süfrəsində dürlü-dürlü nemətlər düzdü. Oxucuların ürəyinə hopdu. "Gündoğandan günbatan mənzilim" deyən şairin vətəni Azərbaycan qədər böyüdü, dünya qədər genişləndi, Türk dünyası qədər ucaldı, ən uca zirvələrlə baş-başa dayandı.
Gənc qələm yoldaşlarına:

Dünyada bir damla olmaq istəsən,
Dünyaya bir ümman həvəsiylə gəl

– deyib onları yaradıcılıq sevgisinə çağırdı. "Şəhriyar gəlmədi" şeiriylə ayrılığa, həsrətə, hicrana qəzəbini, nifrətini bildirdi, silləsini vurdu, yumruğunu endirdi.

Güllər güllüklərdə dərili qaldı,
Çiçəklər yollara sərili qaldı.

"Şəhriyar gəlmədi" – deməklə həm də o tayın qələm adamlarına tükənməz məhəbbətini ifadə etdi.

Sevdiyi şairlər çox olsa da, ən çox Füzulini, Aşıq Ələsgəri və Səməd Vurğunu sevdi, Füzuliləşdi. "Nədənsə, şairim, adın gələndə çox şairin adı yadımdan çıxır", – deyib Füzuliyə əbədi sevgisini, şirin-şəkər qoşmaları ilə Ələsgər yoluna sədaqətini dilə gətirdi.

Sazına Vaqifin səsimi gəldi,
Səsindən baharın nəsimi gəldi.
Alqışa Füzuli, Nəsimi gəldi,
Eşqə gətirəndə qəzəllər səni

– deyib, Səməd Vurğuna vurğunluğunu göstərdi.

Bilirsən, təzə bir əsər yazıram,
Eh, nələr düşünüb, nələr yazıram.
Hər sözü incidir, hər sözü haqdır,
Adımı göylərə qaldıracaqdır.

– deyən şair dostluqdan yazdı, dostdan yazdı, dünyanı dostluğa çağırdı. Dilinə yalan qonan dostları dilindən salıb itirdi, "dərdini öz dərdi bilən dostları" sevdi, əzizlədi. Onu ölməyə qoymayan dostlarını minnətdarlıqla yad elədi.

Ömründə bir kəsə dost olmayan kəs,
Hansı bir dostluqdan əsər yazır bəs?

– deyib, sualları ilə insanı düşündürdü. İnsan sevgisinə böyük önəm verdi. "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" hökmünü də Məmməd Araz imzaladı.

Məmməd Arazın şeirləri – indi də bir çox parçalarını əzbər bildiyim "Üç oğul anası" poeması gündəlik söhbətlərdə, dost məclislərində, oxucularla görüşlərdə, ədəbi müzakirələrdə həmişə səslənirdi, təhlil olunurdu, yüksək qiymətləndirilirdi.

Üç oğul böyüdən oğul anası,
Özgələr çiynində gora gedirdi.

– deyən şair,

Qəlbimin bu sadə şeiriyyətindən,
Bir ana heykəli qoyulsun bu gün.

- deyib ananın ölməz ruhuna bir poetik abidə qoymuşdu.

Məmməd Arazın dostları çox olsa da, iki ziyalının adını çəkməyi özümə borc bilirəm. Biri xalq şairi, hamımızın çox istədiyimiz, "əmi" dediyimiz Söhrab Tahirdi ki, o, Məmməd Arazın gənclik, cavanlıq dostu olub. Söhrab Tahir o taydan gələndə Məmməd Araza yazmışdı:

Sən məni bir axşam qonaq saxladın,
Yaramı yaranla yayıb bağladın.
Mənim gözlərimlə bəzən ağladın,
Qoymadın gözlərim dola, qardaşım.

Toyuna gəlmişəm, hər yan xonçadır,
Boş əlim bükülmüş qanlı qonçadır.
Bircə ürəyim var, parça-parçadır,
O sənə çatacaq, ala, qardaşım.

Məmməd Araz Söhrab Tahirdən, onun şairliyindən, insanlığından, dostluğundan həmişə ürəklə danışdığı kimi, Söhrab Tahir də Məmməd Arazın böyüklüyündən həmişə ürəklə danışır. Ömrünün müdrik çağlarını yaşayan Söhrab Tahir bu gün də Məmməd Araz deyir, Məmməd Araz eşidir. Bir də Cəfər Quliyevi (xalq arasında ona Cəfər həkim deyirlər) böyük sevgilərlə xatırlayıram. Mən həmişə Cəfər həkimi Məmməd Arazla görmüşəm. Məmməd Arazın gərəkli, lazımlı günlərində Cəfər həkim həmişə onunla bir yerdə olub. Sevincinə, dərdinə şərik olub. Məmməd Araza həsr olunan şeirlərdən ibarət bir kitab da nəşr elətdirib. "Haqqın var yaşamağa" adlı bu kitab oxucuların stolüstü kitabına çevrilib.

Məmməd Arazın vətəndaşlığı çox yüksək səviyyədə idi. Vətən Məmməd Araz üçün kitablara sığışmayan bir mövzu idi. Onun əbədi ünvanının adı Vətən idi:

"*Vətən mənə oğul desə nə dərdim",*

"O, dərman istəmir, Vətən istəyir,
Dərdli, yoxsul olsun, tək vətən olsun!"

"Bir-iki yarpaqlı sözüm vardısa,
Vətəndən almışdım, Vətənə qaldı",

"Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı",

"Sənə inanıram, keşikdə duran,
Ayıq Vətən oğlu, Vətən əsgəri",

"Bu gün gərək hər anımız Vətən desin".

Vətənlə bağlı bu cür misallar Məmməd Araz yaradıcılığında çoxdur. Nə qədər desən misal gətirmək olar. Ancaq söhbət ondan gedir ki, bütün yaradıcılığı vətən yanğısı üstündə köklənib. Vətənin torpağı da, daşı, qayası da, ağacı, yarpağı da, qarışqası, arısı, kəpənəyi, böcəyi də, canlı-cansız təbiət də Vətən deyir, Vətənlə nəfəs alır. Bu da şairin yaradıcılığında ən işıqlı səhifələrdən biridir, – deyib, yanılmadıq.

Məmməd Araz insan kimi də böyük idi. Bütün qələm dostları onu insan kimi çox yüksək qiymətləndirir, xətrini həmişə əziz saxlayırdılar. Mən onu dostların əhatəsində, oxucularla görüşlərdə, ayrı-ayrı insanların taleyi ilə bağlı işlərdə çox müşahidə eləmişəm. Çox diqqətcil, xeyirxah, alicənab, qayğıkeş idi. Heç nə gözündən yayınmırdı. Yaxşılıq eləmək, qayğı göstərmək, sahib durmaq onun üçün ən böyük mükafat idi. Unudulmaz sənətkarımız Mikayıl Mirzə onun şeir və poemalarını çox ilhamla, ehtirasla oxuyurdu. "Mikayılın oxuduqları yalana, böhtana, riyakarlığa, nadanlığa qarşıdır. Onları daşıyanlara qarşıdır, onlara sillədir, qılıncdır Mikayılın şeirləri. Onları dinləməmək mümkün deyil", – deyən Məmməd Araz öz nəfəsindən, ilhamından Mikayıla pay vermişdi. Mikayıl da Məmməd Arazın şeirlərini, poemalarını oxuyanda göydə ildırım kimi çaxırdı. Əmi hər dəfə Mikayıla qulaq asdıqca cavanlaşır, qartal kimi uçmaq istəyirdi. Məmməd Arazın Mikayıl Mirzəyə yazdığı şeirlər şair ürəyinin çırpıntıları, döyüntüləridir.

Səsi salonları titrədən, zalları ayağa qaldıran Məmməd Araza görüşlərdə çox qulaq asmışam. Coşqun, havalı, sinəsi sözlə dolu olan Məmməd Arazı bu gün də həmin duyğularla xatırlayıram. İlk dəfə onu APİ-də (indiki Pedaqoji Universitet) görüşdə Söhrab Tahirlə birlikdə görmüşəm. Sonradan çoxsaylı görüşlərimizdə şairi həmişə ilhamlı, çılğın, ehtiraslı görmüşəm.

Bir dəfə Astaraya gedirdi. Məni də özü ilə götürdü. Onda orada İnşallah adlı bir dostu işləyirdi. O dəvət eləmişdi. Mən Məmməd Arazın böyüklüyünü, insanlığını, geniş ürəkli bir insan olduğunu, dostluğunu, sədaqətini onda kəşf etdim ki, mən adi bir insanla yox, böyük Azərbaycan şairi ilə yola çıxmışam. Aradan otuz ildən çox vaxt keçsə də, o görüşləri, Astarada keçirdiyimiz Məmməd Arazlı günləri böyük ehtiramla xatırlayıram.

Bir xatirəm köçəcəkmi xatirələrə,
Min xatirə köçəcəkdir mənimlə, əfsus.

– deyən ustad şairimiz bu gün xatirələrdə, ürəklərdə, yaddaşlarda yaşayır. Şeirimizdə, şeiriyyətimizdə, poeziyamızda yaşayır.

Ana yurdun hər daşına üz qoyum,
Hər dərəndə çaldığım saz yaşayır.

...Sıx gözünü, hansı daşda su yansa,
O daş altda Məmməd Araz yaşayır.

– deyən ustad sənətkarımız yaşayır və yaşayacaq Nə qədər söz var, Azərbaycan xalqı var, Məmməd Araz da var olacaq!

Əziz oxucu! Bilirsən, Məmməd Arazı duyursan, sevirsən, tanıyırsan, oxuyursan, öyrənirsən. Ancaq indi onu "Bir Şuşa bürcü", "tamaşa bürcü", şeirimizin "Məmməd Araz bürcü" kimi yenidən oxu, sev, əzizlə, yaddaşlara yaz, ürəklərdən ürəklərə, gözlərdən-gözlərə köçür, sözlərini el-el, kitablarını əl-əl dolaşdır.

Ürək xəzinəndə "Bu da belə bir ömürdü yaşadım", "Dünya sənin, dünya mənim, dünya heç kimin", "Vətən mənə oğul desə nə dərdim", "Şair, qayalara, dağlara söykən", "Bəlkə, bu yerlərə bir də gəlmədim", "Ya Rəbbim, bu dünya sən quran deyil", "Sən kimə gərəksən, mən kimə gərək", "Fillərin ömrünü qoruyun", "Nobel mükafatı", "Anamdan yadigar nəğmələr", "İki ömür yolu, bir dəmir yolu", "Atamın kitabı", "Məmməd qaya, qaya Məmməd", "Nə günah", "Tək səni özümlə aparacağam", "Unut məni, aldat məni, at məni", "Professor Gülə məktub", sevgi nəğmələri, Araz dünyası ilə bağlı əsərlərindən ibarət bir Məmməd Araz dünyası yarat! Qoy bu dünya səni həmişə işıqlı yollarla gələcəyə doğru aparsın. Elə bir gələcəyə ki, orda Məmməd Araz var!

Məmməd Araz deyiləndə
ayağa dur ki,
Ana yurdun ürəyinə
toxuna bilər.

15.10.2013

Muxtar KAZIMOĞLU (İMANOV)
Filologiya üzrə elmlər doktoru,
AMEA Folklor İnstitutunun direktoru
mukhtarkazimoglu@gmail.com

USTAD AŞIQ VƏ TARİXİ ƏNƏNƏ

Aşıq Şəmşirin təmsil etdiyi aşıq sənətinin təşəkkül tapıb özünəməxsus yol tutmasında ən başlıca göstəricilər, təbii ki, sazın meydana çıxması, ayrı-ayrı saz havalarının və onlara uyğun şeir şəkil və janrlarının yaranması, dastanların yeni məzmun və forma xüsusiyyətləri qazanmasıdır. Bu göstəricilərin mahiyyətini daha dərindən başa düşməkdə isə ən münasib üsullardan biri aşıq sənətini imkan daxilində ozan sənəti ilə müqayisə etməkdir. Əlbəttə, müqayisə o vaxt daha səmərəli olardı ki, XV-XVI əsrlərəcən qopuzda çalınan ozan havaları barədə dəqiq məlumat əldə edə biləydik, həmin havalardan hansının müqabilində hansı formalarda şeir oxunmasından xəbər tuta biləydik. İndiki halda aşıq-ozan müqayisəsini, əsasən, ehtimallar üzrə aparmalı və bu ehtimalları irəli sürərkən ən çox «Dədə Qorqud» eposuna üz tutmalı oluruq. «Dədə Qorqud» eposuna qopuzla sözün əlaqəsi baxımından nəzər saldıqda diqqəti ilk növbədə eposdakı «söyləmə»lər cəlb edir. «Söyləmə»lərin heca vəznli qoşma və gəraylılardan fərqlənməsi üzərində düşünüb folklorşünaslıqdakı məlum fikirlə biz də razılaşmalı, «Dədə Qorqud» şeirlərinin heca standartlarından kənara çıxmasını xüsusi qopuz havaları ilə əlaqələndirməli oluruq. Və vurğulamaq istəyirik ki, ozan şeirində olduğu kimi, aşıq şeirində də ortaya çıxan bir çox sualların cavabı məhz musiqidədir. Bizdə sazın sözdən, sözün sazdan ayrı öyrənilməsi, aşıq şeirinin aşıq musiqisindən nə dərəcədə asılı olmasına diqqət yetirilməməsi bu sahəyə aid tədqiqatların lazımi istiqamətdə getməsinə maneçilik törədir. «Lazımi istiqamət» dedikdə aşıq şeirini ifa prosesi ilə vəhdətdə götürmək, ifa prosesində yaranmasını aşıq şeiri üçün səciyyəvi cəhət saymaq və bu cəhətinə görə onu yazılı şeirdən fərqləndirmək kimi amilləri nəzərdə tuturuq. Bu cür amilləri nəzərə almaq isə aşıq şeirini dastan kontekstində araşdırmağı zərurətə çevirir. Çünki aşıq şeiri (bütövlükdə aşıq sənəti) öz mahiyyətini

dastan ifaçılığında daha qabarıq şəkildə göstərir. Aşıq şeiri nəinki məzmun, həm də formasına görə dastan ifasına, həmin ifa zamanı çalınan saz havalarının ritm və ahənginə tabe etdirilir. Sərbəst şeiri xatırladan «Dədə Qorqud» «söyləmə»ləri qopuz havalarının ritm və ahənginə uyğun olaraq ortaya çıxırsa, heca standartları əsasında yaranan «Koroğlu» qoşma və gəraylıları da saz havalarının ritm və ahənginə uyğun olaraq ortaya çıxır. Yeri gəlmişkən qeyd edək ki, saz havaları ilə aşıq şeirlərinin üzvi bağlılığı kimi son dərəcə vacib məsələ Azərbaycan folklorşünasları arasında Sədnik Paşayevin diqqətini daha çox cəlb edib. «Aşığın şeiri, musiqisi, dastan yaradıcılığı və ifaçılığı əlaqəli şəkildə öyrənilsə, bu sənət (aşıq sənəti – M.K.) haqqında tam təsəvvür yaranar» deyən S.Paşayev saz havalarının şeir janrları üzrə təsnifatını aparıb. Məsələn, gəraylıların «Atlı Koroğlu», «Ayaq Cəlili», «Baş sarıtel» («Kəvəri»), «Bağdad dübeyti», «Borçalı dübeyti», «Vanağzı», «Qazax dübeyti» («Zülfüqarı», «Mirzə dübeyti»), «Koroğlu bəhrisi», «Gəraylı», «Mina gəraylı», «Məmmədhüseyni», «Naxçıvan gülü», «Orta sarıtel», «Paşa köçdü», «Sallama gəraylı», («Cığalı gəraylı»), «Səyyadı», «Tərs gəraylı», «Hicaz gülü», «Şahsevəni» və s. havalar üstündə oxunduğunu müəyyənləşdirib, həmçinin qoşma, təcnis, bayatı, divani, müxəmməs kimi janrların hansı havalara bağlı olduğunu konkret adlar çəkərək təfsilatı ilə göstərib (Pirsultanlı S.P. Ozan-aşıq sənətinin nəzəri məsələləri. Bakı, Ozan, 2002, s.70-74,).

Biz – tədqiqatçılar aşıq musiqisini aşıq şeirindən, aşıq şeirini ifaçılıq prosesindən ayrı götürsək də, götürməsək də, ənənə ənənə olaraq qalır. Hər ustadın fəaliyyəti sayəsində yeni-yeni havalar, yeni-yeni dastanlar, yeni-yeni şeir janrları ilə zənginləşən ənənədə əsl mahiyyət dəyişmir. «Aşıq» adı daşıyan sənətkar nə boyda istedad sahibi olur-olsun, ənənəyə tabedir: sözü qələmdən çox sazla yaradır, sözü xalqa kitab-dəftərdən çox canlı ifaçılıqla çatdırır. Əgər belə olmasaydı, «aşıq» adı ilə yanaşı, «el şairi» adı da yaranmazdı. «El şairi» adı bir daha göstərir ki, qoşma-gəraylı yazmaq və bu yolla xalq arasında populyarlıq qazanmaq hələ aşıq olmaq demək deyil. Aşıqlıq mərtəbəsinə qalxmaq üçün söz ustası olmaqdan əlavə, gərək həm də mahir saz ifaçısı olub məclis apara, dastan danışa biləsən, sözü sazla birləşdirə, yeri gələndə sazın sədası altında bədahətən şeir deyə biləsən.

Ustad aşıqlara məxsus bədahətən şeir demək məsələsinə qismən ətraflı toxunub Aşıq Şəmşirdən, onun ənənəyə bağlılığından danışmaq istəyirik. Qeyd etmək istəyirik ki, bədahətən şeir demək, xalqın təsəvvüründə vergili olmaq deməkdir. İnama görə, məhz Allah vergisi ustad aşığı adi adamlardan fərqləndirir. Bu inamın hesabınadır ki, xalq arasında

ustad aşıqların övliyalığı haqda çoxlu rəvayətlər vardır. Bu rəvayətlərin bir qismi ustad aşığın hər hansı diləyinin (alqış və ya qarğışının) hasilə yetməsi ilə bağlıdır. Aşıq Ələsgərin şagirdi Aşıq Ağayarın söylədiyinə görə, Tapdıq adlı bir nəfər onun (Aşıq Ağayarın) xəncərini alıb geri qaytarmaq istəmir. Aşıq Ələsgər işə qarışıb Tapdıqdan xəncəri istəsə də, xeyiri olmur. Əlacsız qalan Aşıq Ələsgər Tapdığı qarğımalı olur: «Bu, mənim şəyirdimin xançalını vermədi. Bu gejə gərək o bir balıya irast ola, savahnan Aşıq Ələsgəri burya gətirələr». Aşıq Ələsgərin dediyi kimi də olur: gecə Tapdıq qəfil bəlaya tuş olub evdəkiləri döyməyə başlayır. Əmisi irəli yeriyib qabağını almaq istəyəndə boynunu qırıb onu da böyrü üstə yıxır yerə. Camaat yığılır, Tapdığı iplə evin dirəyinə bağlayır ki, əlindən başqa xəta çıxmasın. Tapdığın düşdüyü bəlaya çarə fikirləşirlər. Aşıq Ələsgərin qarğışı yada düşür. Gedib Aşıq Ələsgəri gətirirlər. Tapdıq yalvarır: «Ələsgər baba, qadan alım, məni burdan qutar!» Aşıq Ələsgər ovsun oxuyub Tapdığın üzünə üfürür. Tapdıq düşdüyü bəladan qurtarır, gətirib xəncəri Aşıq Ağayara qaytarırlar (Aşıq Ələsgər. Şeirlər, dastan-rəvayətlər, xatirələr. Toplayıb tərtib edəni İ.Ələsgər. Bakı, Çinar-çap, 2003, s.444-445). Buna bənzər əhvalatlar Aşıq Şəmşir barəsində də danışılır. Məsələn, danışırlar ki, uşaq vaxtı tay-tuşları ilə mal otaran Şəmşiri yoldan ötən bir atlı nahaqdan şallaqla vurmaq istəyir. Şəmşir ötkəmliklə dillənir: «A kişi ey, mənə şallaq vurma, bax atın büdrəyər, qılçı sınar, qalarsan piyada!

Kişi şallağı bir də tovlayıb, atı məhmizlədi. İlk addımdaca at büdrədi, qılçı sındı. Kişi… uşağa sarı qaçdı. Uşağa çatan kimi onun ayağına qapandı: − A bala, sən Allah, məni bağışla… Kimlərdənsən, hansı müqəddəsin övladısan?» (Aslan M. Şaxla izimi, dünya. Bakı, İşıq, 1989, s.9-10). Aşıq Ələsgər və Aşıq Şəmşir diləyinin bu cür yerinə yetməsi «qolun qurusun» deyib Dəli Qarçarın qolunu qurudan Dədə Qorqudun kəramətini yada salmırmı? Dədə Qorqudun bu kəraməti ilə söy söyləyib boy boylamaq qüdrəti arasında bir bağlılıq olduğu kimi, ustad aşıqların da qeyri-adi hərəkəti ilə bədahətən şeir demək istedadı arasında bir bağlılıq yoxdurmu? Əlbəttə, sullara müsbət cavab verib, ozan və aşığı vahid etno-kulturoloji sistemin yetişdirməsi saymalı oluruq. Eyni etno-kulturoloji sistemin daşıyıcısı olmağın nəticəsidir ki, «qayibdən dürlü xəbər söyləyən» Dədə Qorqud kimi, Aşıq Ələsgərdə də görücülük vergisi var. Hətta bu görücülük o dərəcədədir ki, ustad aşıq nə vaxt öləcəyini də qabaqcadan söyləyə bilir (Aşıq Ələsgər. Şeirlər, dastan-rəvayətlər, xatirələr, s.461-462). Əslinə qalsa, Aşıq Ələsgərin «bisavadlığ»ı ilə bağlı qənaətin də bir kökü Allah vergisi məsələsinə gedib çıxır. Təsadüfi deyil ki, ustad aşığın «bisavadlığ»ını yalnız sıravi adamlar yox, onu yaxından

tanıyan sənət adamları − yetirməsi Aşıq Ağayar, oğlu Aşıq Talıb, həmçinin Aşıq Şəmşirin özü də təsdiq edir. Aşıq Şəmşir atası Ağdabanlı Qurbanla dostluq edən Aşıq Ələsgəri belə xatırlayır: «Atamın günü Aşıq Ələsgərlə bir yerdə keçərdi… Onların göz yaddaşı, qulaq yaddaşı elə güclü idi ki, bir dəfə gördüklərini, eşitdiklərini heç vaxt unutmazdılar… Ələsgər əminin yazı-pozu ilə işi yox idi, hamısını sinədən, bədahətən deyərdi» (Dədə Şəmşir yaddaşlarda. Xatirələr. Toplayıb tərtib edəni Q.Şəmşiroğlu. Bakı, Gənclik, 2000, s.34). Həm Aşıq Şəmşir, həm də Aşıq Ağayar, Aşıq Talıb kimi başqa şahidlər «yazı-pozu bilməyən» Aşıq Ələsgərin hansı məqamda hansı şeiri bədahətən deməsinə aid kifayət qədər misal çəkirlər. Aşıq Ələsgərin yazı-pozu bilməməsi ilə bağlı xatirələr ustad sənətkarın sinədən söz demək istedadını daha qabarıq göstərmək və bu istedadın İlahi vergisi olduğuna dinləyicini inandırmaq üçündür. Əlbəttə, ustad aşığın yazı-pozu bilməsi heç də bu el sənətkarı ilə bağlı xalq təsəvvürünü dəyişdirmir. Nə qədər yazı-pozu bilirsə-bilsin, nə qədər savadlı olursa-olsun, ustad aşıq xalqın təsəvvüründə sinədən söz deməyi bacaran bir sənətkardır. Daha doğrusu, bu sənətkarı sənətkar eləyən ilkin kəramətlərdən biri qeyri-adi təbə sahib olmaq, bədahətən şeir deyib sinəni boşaltmaqdır. Ustad aşıqların son nümayəndələrindən biri olan və yazıb-oxumağı bacaran Aşıq Şəmşirlə də bağlı xalq təsəvvürü məhz o cürdür. Belə olmasaydı, yeddi yaşlı Şəmşirin haldan-hala düşüb yetim quzuya şeir qoşmasından rəvayət danışılmazdı: «Xalaoğlu Əhməd onun (Şəmşirin – M.K.) bu qərib halını səhərin gözü açılandan fərq etmişdi.

– Ağrıyan yerin yoxdu, xalaoğlu?

– Var.

– Harandı?

– Bilmirəm…

– Başına hava gəlib?

– Hə. Başıma yığılan o hava deyir ki, bu yetimə (quzuya – M.K.) söz qoşum…

Axır ki, göyərəsi bir «çəmənin» ilk «çiçəyi» çırtladı:

Mənə baxıb nə mələrsən,
Nə göynərsən, yetim quzu?!
Ot yerinə dərd yeyərsən,
Qəm çeynərsən, yetim quzu.

Baxışından ələm yağır,
Baxma mənə fağır-fağır.

Mənim dərdim dağdan ağır –
Gör neynirsən, yetim quzu!

Xalaoğlu Əhməd eşitdiyinə inanmaq istəmirdi» (Aslan M. Şaxla izimi, dünya. Bakı, İşıq, 1989, s.10-11). Şair M.Aslanın özünəməxsus bir üslubda qələmə aldığı bu əhvalatın həqiqətən baş verib-vermədiyini dəqiqləşdirmək o qədər də vacib deyil. Bu məqamda vacib olan başlıca cəhət xalqın təsəvvüründəki Aşıq Şəmşir obrazının M.Aslan təsvirindəki Aşıq Şəmşir obrazı ilə üst-üstə düşüb-düşməməsidir. Əlbəttə, aşıq sənətini, bütövlükdə xalq ədəbiyyatını çox gözəl bilən və duyan M.Aslan, əlinə qələm götürüb Aşıq Şəmşirdən kitab yazarkən «ustad aşıq kimə deyirlər?» sualının məlum cavabını nəzərə aldığına görə onun təsviri Aşıq Şəmşir barədəki xalq təsəvvürü ilə heç bir ziddiyyət yaratmır. Xalq da, M.Aslan da Aşıq Şəmşiri mahir söz ustası kimi tanıyır. Və bu ustalıq, məqamı gəldikdə bədahətən deyilən, məqamı gəldikdə qələmlə yazılan kitab-kitab şeirlərdə öz təsdiqini tapır. Xalq da, M.Aslan da söz ustası Aşıq Şəmşiri sazdan ayrı təsəvvür edə bilmir. Aşıq Şəmşirin saz ifaçılığındakı ustalığı isə öz təsdiqini lent yazılarında tapır. Yetmişdən çox saz havasını ifa edib lentə yazdırmaqla o, klassik aşıqların nümayəndəsi olduğunu bir daha sübuta yetirmiş olur. Şair O.Sarıvəlli Aşıq Şəmşir yaradıcılığında sazla sözün vəhdətini xüsusi qiymətləndirib yazır: «Unutmaq olmaz ki, aşıq poeziyası sazla yanaşı, aşıq musiqisi ilə həmahəng inkişaf edib boy atmışdır. Yaradıcı aşıqların şeirlərinin əksəriyyəti şəkli cəhətdən havacat üzərində qurulmuşdur. Odur ki, aşıq ürəkli şair, şair ürəkli aşıq – Şəmşirin yaradıcılığına sazla sözün birliyi mövqeyindən baxmaq lazımdır» (Sarıvəlli O. Aşıq ürəkli şair, şair ürəkli Aşıq Şəmşir / Dədə Şəmşir yaddaşlarda. Xatirələr. Toplayıb tərtib edəni Q.Şəmşiroğlu. Bakı, Gənclik, 2000, s.99). O.Sarıvəlli sazla sözün birliyi baxımından Aşıq Şəmşir yaradıcılığını götür-qoy etmək məqsədilə aşığın «Məni sən» rədifli cığalı müxəmməsi üzərində dayanır. Cəmi bir bəndini (yəni əsas bənd və onun arasına daxil olan cığa bəndləri) misal çəkən O.Sarıvəlli müxəmməsin forma mürəkkəbliyinə aydınlıq gətirir: «Sual olunur: müxəmməslərdə bu əlavə bəndlər, bu cığalar nə üçündür? Nəzərə almaq lazımdır ki, divani və müxəmməs şəklində yazılmış şeirləri eyni adlarda olan «Divani» və «Müxəmməs» havalarından ayrı götürmək, ayrı təsəvvür etmək çətindir. Bu saz havaları nəzərə alınmadıqda, bu şeir formaları da bir növ anlaşılmaz olur. Hətta bunlar bəzi oxuculara mənasız görünür. Yeri gəlmişkən, demək lazımdır ki, cığaların müxəmməslərə əlavə edilməsi, görünür, yalnız son dövrlərə aid məsələdir. Həm də müxəmməs şəklində olan şeirlərin «Müxəmməs» havasının üstündə ifa edilməsi ilə

çox əlaqədardır. Yeddi bəndlik, hər misrası da on altı hecadan ibarət şeiri aşıq ifa etdikdə çox yorucu olur. Belə bir vəziyyətdə cığalar ifaçıların köməyinə gəlir. Musiqi ("Müxəmməs" havası) əlavə xallarla yeri gəldikcə öz ahəngini dəyişir, havanı yeknəsək olmaqdan qurtarır. Beləliklə, götürülmüş böyük bir mövzu, geniş bir məzmun dinləyiciləri yormadan ifa olunur" (Sarıvəlli O. Aşıq ürəkli şair, şair ürəkli Aşıq Şəmşir / Dədə Şəmşir yaddaşlarda. Xatirələr. Toplayıb tərtib edəni Q. Şəmşiroğlu. Bakı, Gənclik, 2000, s.114-115).

Aşıq yaradıcılığına sazla sözün vəhdəti baxımından yanaşılarkən söhbət istər-istəməz dastan məsələsinə gəlib çıxır. Başqa cür də ola bilməz. Çünki dastan ifaçılığı həm saza, həm də sözə geniş meydan verir və aşıq sənəti bu meydanda öz mahiyyətini daha qabarıq şəkildə göstərə bilir. Bu gün şeirlərini kitablardan sevə-sevə oxuduğumuz klassik aşıqların hər biri, ilk növbədə, məclis aparıb, dastan danışmaqla tanınıblar. Öz şeirləri ilə uca zirvədə dayanan və yazılı ədəbiyyatın M.V.Vidadi və M.P.Vaqif kimi nümayəndələri ilə müqayisə oluna bilən Aşıq Ələsgərin yalnız Azərbaycanda yox, bütün «Qafqaz eli»ndə, sazın nüfüz etdiyi ətraf ölkələrdə tanınıb şöhrət qazanmasının mühüm səbəblərindən biri məhz dastan ifaçılığı ilə bağlıdır. Aşıq Ələsgərin hansı dastanları məclislərdə daha çox danışmağı barədə konkret məlumatlar var. Oğlu Aşıq Talıb və şagirdi Aşıq Ağayarın verdiyi məlumata görə, Aşıq Ələsgər «Abbas-Gülgəz», «Qurbani», «Tahir-Zöhrə», «Valeh-Zərnigar», «İbrahim», «Əmrah» kimi dastanlara, «Koroğlu»dan yeddi qola daha çox üstünlük verərmiş. Atasının dastana münasibətindən danışarkən Aşıq Talıb başqa bir nöqtəyə – Aşıq Ələsgərin getdiyi səfərlərə, həmin səfərlərlə bağlı sərgüzəştlərə də toxunur və Aşıq Ələsgərin öz sözünə əsaslanıb belə hesab edir ki, "o səfərlərin hərəsi bir gejəlik nağıldı", yəni dastandı (Aşıq Ələsgər. Şeirlər, dastan-rəvayətlər, xatirələr. Toplayıb tərtib edəni İ.Ələsgər. Bakı, Çinarçap, 2003, s.469). Bu kimi faktlar klassik aşıqların nəinki dastanlar danışmasından, həm də yeni-yeni dastanların yaranmasında onların mühüm rol oynamasından xəbər verir. Bu sözləri «klassik aşıq sənəti ilə müasir aşıq sənəti arasında möhkəm özüllü bir körpü təsəvvürü yaradan» (Kürdoğlu H. Dağlar nalə çəkib Şəmşirsiz ağlar / Dədə Şəmşir yaddaşlarda. Xatirələr. Toplayıb tərtib edəni Q.Şəmşiroğlu). Bakı, Gənclik, 2000, s.209) Aşıq Şəmşirə də aid etmək olar. O.Sarıvəllinin qeydlərindən məlum olur ki, Aşıq Şəmşir "Koroğlu", "Abbas və Gülgəz", "Heydər bəy", "Alı xanla Pəri xanım", "Abdulla və Cahan", "Novruz", "Həcər və Pərizad", "Valeh və Zərnigar", "Məsim və Diləfruz", "Şah İsmayıl", "İbrahim", "Tahir və Zöhrə", "Xəstə Qasım" kimi dastanların mahir ifaçısı olub; həmçinin müxtəlif mövzular üzrə üç dastan yaradıb

(Sarıvəlli O. Aşıq ürəkli şair, şair ürəkli Aşıq Şəmşir / Dədə Şəmşir yaddaşlarda. Xatirələr. Toplayıb tərtib edəni Q.Şəmşiroğlu. Bakı, Gənclik, 2000, s.118) Aşıq Şəmşirin ifa etdiyi dastanlar sırasında birinci olaraq "Koroğlu" adının çəkilməsi, görünür, təsadüfi deyil. Məsələ burasındadır ki, Aşıq Şəmşirin zil səsi "Koroğlu" havalarının oxunması üçün çox uyarlı bir səs olub. M.Aslanın bu qeyri-adi səslə bağlı olaraq qələmə aldığı bir əhvalat var. Həmin əhvalat Aşıq Şəmşirin Xan Qərvəndində Usuf adlı bir aşıqla qabaqlaşmağından bəhs edir: "Aşıq Şəmşir üzünü camaata tutdu: – Ay yoldaşlar, siz də sözümə şahid olun: hansı aşıq meydana çağırırsa, fürsət qabaqkınındı, çünki bu kişi özünə genəşib meydana çıxıb. Eləmi?! Qaydaya görə, əvvəlcə havacat üstündə sınaşmalıyıq, sonra mən burda, o burda – deyişəcəyik, qıfılbəndə keçəcəyik... Əvvəlcə mən "Bozuğu Koroğlu" oxuyacam.

Dədə Şəmşir dövrə vurub qıyya çəkdi:

Hanı mənim Qoç Koroğlum –
Gələ girə bu meydana!..

Növbəti bənddə Aşıq Usufun "hey!" deməyi ilə boğazından qan fışqırmağı bir oldu" (Aslan M. Şaxla izimi, dünya. Bakı, İşıq, 1989, s.36-37). "Bozuğu Koroğlu" oxumaq istərkən Aşıq Usufun boğazından qan açılması Aşıq Şəmşir səsinin dərəcəsini göstərmək üçün lazım olan bir detaldır. Bu detal göstərir ki, Aşıq Şəmşir səsi ilə oxumağa cəhd eləmək başqa aşıq üçün zora düşmək, boğazını sıradan çıxarmaq deməkdir.

Güclü səs, coşqun təb, iti yaddaş, saza-sözə sonsuz həvəs − İlahinin verdiyi bu nemətlərlə atası yanında şagirdliyə başlayan Şəmşirin ustaddan öyrəndiklərini bircə sözlə ifadə etsək, bu məqamda "ənənə" sözünü işlətməliyik. Doğrudan da, ustad öz şagirdinə illər uzunu dərs keçib Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Alı, Aşıq Valeh... kimi sənətkarların adı ilə bağlı saz və söz ənənəsini mənimsətmiş olur. Sonralar bir ustad kimi Aşıq Şəmşirin də otuzdan çox şagirdə aşıladığı həmin ənənədə bir səciyyəvi cəhət də var: şeirlərin dinləyiciyə yurd yeri ilə birlikdə çatdırılması. Bu məsələyə xüsusi olaraq toxunan S.Paşayev yazır: "Aşıq şeirinin yurdu olur. Şirvan-Salyan aşıqları bu yurda "döşəmə" deyirlər. Ustad aşıqların həyat və yaradıcılığının özlərindən sonra dastanlaşmasında bu yurdlar – döşəmələr (şeirlərə bağlı əhvalatlar) müstəsna rol oynamışdır" (Pir-sultanlı S.P. Ozan-aşıq sənətinin nəzəri məsələləri. Bakı, Ozan, 2002, s.75-76). Bu yurd yeri məsələsi və Aşıq Talıbın yuxarıda xatırlatdığımız fikri (Aşıq Ələsgərin hər səfərinin bir gecəlik dastan olması ilə bağlı qənaət) arasında bir səsləşmə yoxdurmu? Bizcə,

var. Əslində, S.Paşayevin, yurd yeri (döşəmə) barədə dedikləri Aşıq Talıbın, səfər sərgüzəştləri barədə söylədiklərinin Aşıq Ələsgərlə yanaşı, neçə-neçə başqa aşığa da arxalanıb təsdiq edilməsidir. Təbii ki, S.Paşayev məlum fikri təsdiq etməklə kifayətlənmir, fikrin imkan daxilində açılması, faktlarla əsaslandırılması qayğısına qalır: «Xanəndə oxuduğu qəzəl və qoşmaya yurd düzəldib danışmır. Aşıq dilində isə şeirin, sözün yurdu özü qədər şirin olub.

Aşıqlar bir də ona görə klassiklərin qoşmalarına az girişirlər ki, onlar bu şeirlərin yurdlarından xəbərsizdirlər. Aşıq qoşmaları isə müəyyən bir səfərlə, yerlə, əhvalatla bağlı olduğu üçün yurd düzəltməyə geniş imkan verir» (Pirsultanlı S.P. Ozan-aşıq sənətinin nəzəri məsələləri. Bakı, Ozan, 2002, s.85). Göründüyü kimi, S.Paşayev yurd yeri məsələsi ətrafında danışarkən aşıq şeirini yazılı şeirdən fərqləndirən mühüm cəhətlərə diqqət yetirir. O, yazılı ədəbiyyata aid qoşma-gəraylının sazdan, saz havacatından kənarda yaranmasını bir mühüm fərq sayırsa, yurd yerindən uzaqlığını da başqa bir mühüm fərq sayır. Əlbəttə, yazılı ədəbiyyata aid qoşma-gəraylının da müəyyən əhvalatla bağlı yaranmasını heç kim inkar etmir. Burada əsas məsələ yazılı ədəbiyyata aid şeirlə onun bağlı olduğu əhvalatın qoşa xatırlanıb-xatırlanmamasındadır. Tutaq ki, M.P.Vaqifin hər hansı bir şeirinə müraciət edilirsə, o şeirin nə vaxt, nə münasibətlə yazılmasının xanəndə üçün elə bir əhəmiyyəti yoxdur, amma aşıq üçün çox böyük əhəmiyyəti var. Aşıq yazılı ədəbiyyatdan o şeirlərə daha çox müraciət edir ki, həm saz havasına uyğun gəlsin, həm də müəyyən bir sərgüzəştlə bağlanmış olsun. Aşıq auditoriyası üçün yurd yerinə qulaq asmaq şeirin özünə qulaq asmaq qədər maraqlıdırsa, deməli, bu barədə düşünüb-daşınmaq, məsələnin məğzinə varıb, mahiyyətini aydınlaşdırmaq vacibdir. Məsələnin mahiyyətini aydınlaşdırmağın ən başlıca yolu, heç şübhəsiz, konkret nümunələri gözdən keçirməkdədir.

Aşıq Şəmşir şeirləri ilə bağlı yurd yeri nümunələrinə ustad aşığın öz xatirələrində və onun ünsiyyətdə olduğu adamların danışdığı əhvalatlarda rast gəlirik. Aşıq Şəmşir atası Aşıq Qurbanın, Aşıq Ələsgərin, Aşıq Talıbın… bir çox şeirlərinin yurd yerini danışdığı kimi, öz şeirlərindən də bir neçəsinin yaranma tarixçəsindən həvəslə danışır. Həm Aşıq Şəmşirin, həm də onunla ünsiyyətdə olmuş adamların xatirələrində S.Vurğun – Aşıq Şəmşir görüşünün xüsusi yeri var. Bu görüşə müxtəlif adamlar yazı həsr ediblər. Həmin yazılardan qırmızı xətt kimi keçən bir motiv Aşıq Şəmşirin sözə sözlə cavab verə bilmək məharətidir: «Şəmşir, Səmədin qoşmasını («Aşıq Şəmşir, Dəlidağdan keçəndə» misrası ilə başlayan qoşmasını – M.K.) avazla əzbərdən oxudu. Aşıq həmin şeiri

bircə oxunuşla yadda saxlamışdı. O, cavab olaraq, bu beşbəndli qoşmanı sinədən dedi:

Qoşqarla yanaşı duran adın var,
Bizim el tanıyır uca dağ səni.
Yanır yolumuzda sənət çırağın,
Bilirik şeirdə bir mayaq səni.

...Şəmşirlə görüşün qaldı yadigar,
Unutmaz nə qədər canında can var.
Səndən dərs almağa diyarbadiyar
Gəzərəm əlimdə şam-çıraq səni.

Səməd Vurğun sevinib əlini gur saçlarına çəkdi:

– Ayə, – dedi və güldü, – bu lap mənim şeirimdən qüvvətli çıxdı ki..." (Verdiyev S. Buzlaq dağının ətəyində / Dədə Şəmşir yaddaşlarda. Xatirələr. Toplayıb tərtib edəni Q.Şəmşiroğlu. Bakı, Gənclik, 2000, s.63)

Aşıq Şəmşir şeirlərindən bir çoxunun tarixçəsini Hacı Ziyadxan Əliyev imzalı müəllifin ustad sənətkarla söhbətləri əsasında daha ardıcıl izləmək olur. H.Z.Əliyevin qələmə aldığı Aşıq Şəmşir söhbətlərindən biri belədir: "Bir neçə ay bundan qabaq yenə Kəlbəcərdə idim. Qocalıq bir tərəfdən, üstəlik xəstəlik də məni əldən salmışdı. Yazın yaxınlaşdığı aylar idi. Gördüm ki, cavanlar yığışıb qartopu oynayırlar. Bunları görəndə mənim də yadıma cavanlıq düşdü. Dedim, mən də istəyirəm bir az sizinlə oynayam. Sözümü zarafata salıb güldülər. Kimsə kənardan dedi ki, ustad, sənə bir qartopu dəysə, axırın necə olar? Bu söz məni ayıltdı, fikirləşdim ki, doğrudan da, düz deyirlər. Axı mənim qocalıq niyə yadımdan çıxır? Ürəyimdə qövr eləyənləri bu məqamda şeirə çevirməyi özümə qənimət bildim:

Cavanlar oynaşır yalda-yamacda,
Mən də pəncərədən baxıram evdə.
Qıçım tutmur qocalığın əlindən
Yandırıb qəlbimi, yaxıram evdə.

...Tərlan könül şikar almış sar kimi,
Soluxuram şaxta vurmuş bar kimi.
Xəstə üçün gətirilmiş qar kimi,
Əriyib ocağa axıram evdə.

...Şəmşirəm, ağarıb saçım-saqqalım,
Hər şeydən bir qədər pozulub halım.

Yorulmuş ovçuyam, qaçmış maralım,
Tüfəngi yalandan çaxıram evdə”.

(Əliyev H.Z. Gəlimli-gedimli dünya / Dədə Şəmşir yaddaşlarda. Xatirələr. Toplayıb tərtib edəni Q.Şəmşiroğlu. Bakı, Gənclik, 2004, s.295-296).

H.Z.Əliyevin qələmə aldığı söhbət-əhvalatlardan bir çoxunun yığcam süjet xətti var. Qaçaqlarla görüşən Aşıq Şəmşir və Aşıq Talıbın həbs olunmasına; Aşıq Şəmşirlə Aşıq Bəstinin qarşılaşmasına; Aşıq Şəmşirlə Aşıq Talıbın Gəncəyə səfər etməsinə həsr olunan söhbət-əhvalatlar dediyimizə misal ola bilər. Yığcam süjet xətti olan bu əhvalatlarda dastan elementləri özünü göstərir. Dastan elementləri ilk növbədə ondan ibarətdir ki, danışılan əhvalatlarla şeir parçaları paralellik yaradır. Yəni bu əhvalatlarda hansısa şeirin yazılma səbəbi və tarixçəsi yox, süjet xəttinin özü diqqət mərkəzindədir. Aşıq Şəmşirin şeirləri isə həmin süjet xəttini açmaq, ətə-qana doldurmaq funksiyası daşıyır. Aşıq Şəmşir şeirlərinin belə bir funksiya daşıması səciyyəvi bir haldır və bu səciyyəviliyi dastan amili ilə izah etmək olar. Əvvəla, Aşıq Şəmşirin dastan yaratmaq təcrübəsi var və “Soltan-Qəndab”, “Bəhmən-Humay”, “Tanrıverdi”, “Kamal” kimi müasir dastanlar sırasında onun “Şəmşir-Sənubər” dastanı da çap olunub. Digər tərəfdən isə şeirlər kimi, şeirlərin bağlı olduğu əhvalatlar da yaranacaq dastanların qida mənbəyidir. Aşıq sənətinə Aşıq Ələsgərli, Aşıq Şəmşirli vaxtların gözü ilə baxsaq, görərik ki, bu sənətdə hər şey: musiqi də, şeir də, şeirlə qoşa səsləndirilən əhvalat da dastan üçündür və yaxud dastana hesablanıb. Musiqinin, şeirin, yurd yerinin və bunların hesabına yaranan dastanın ən çox məhəbbət mövzusuna həsr edilməsində isə təəccüblü bir şey yoxdur. Folklorşünaslıqdakı məlum qənaətə əsaslanıb deyə bilərik ki, qəhrəmanlıqla müqayisədə məhəbbət mövzusunun daha geniş yer tutması oğuznamələrdən sonrakı tarixi mərhələdə dastanların qazandığı məzmun özünəməxsusluğu ilə bağlıdır. Bu cür məzmun özünəməxsusluğu aşıq yaradıcılığında haqq aşığı – haqq aşiqi xəttini meydana çıxarır. Ustad aşıqların, eləcə də Aşıq Şəmşirin çox sayda şeirləri, həmin şeirlərin birbaşa və ya dolayı şəkildə bağlı olduğu dastanlar haqq aşığı – haqq aşiqi xəttinin ifadəsinə xidmət edir.

HĞSEYN BOZALQANLI - 150



Təranə VAHİD

"GÖZÜM AÇDIM, QƏRİNƏLƏR DOLANDIM"

Tarixin gəldiyi yolla geriyə – XIX əsrə yollanırıq. O əsrə ki, Azərbaycan aşıq ədəbiyyatına üç nəhəng sənətkarı – Aşıq Hüseyn Şəmkirli, Aşıq Ələsgər və Aşıq Hüseyn Bozalqanlını bəxş etdi. Məhz o əsrdə – 1863-ci ildə Tovuzun Bozalqanlı kəndində gələcəyin böyük sənətkarı Aşıq Hüseyn Bozalqanlı dünyaya gəldi.

Hüseyn kəndlərində yeni açılan dini məktəbdə – Molla Səməd Axundun məktəbində üç il təhsil alır, ərəb və fars dillərini mükəmməl öyrənir. Kiçik yaşlarından sözə, sənətə bağlanır, on iki yaşında ikən şeir yazmağa başlayır. Toylarda, məclislərdə aşıqlara qulaq asa-asa bu sənətə valeh olur.

Cəmi üç ay aşıq Məmmədquluya şagirdlik edir. Tezliklə fitri istedadı ilə toylarda, ziyafətlərdə bacarıqlı aşıq kimi şöhrət qazanır. Çünki Hüseyn haqq aşığı idi, sənəti ona möcüzələr yaradan Allah vermişdi.

Nə lazımdır, naqafilə söz deyim,
Xatirinə ya dəyməyə, ya dəyə.
Sizin olsun, eyvan, otaq, alaçıq,
Bizə bəsdi ya kölgəlik, ya dəyə.

Aşıq Hüseyn Bozalqanlının atası Məşədi Cəfərqulu comərdliyi, qəhrəmanlığı ilə zəmanəsinin nadir şəxsiyyətlərindən biri olduğundan, Hü-

seyn də həmişə üstündə sazla yanaşı, mauzer də gəzdirər, hazırcavablığı, özünə inamı ilə seçilərmiş. Aşıqlarla deyişəndə heç vaxt sözünü birinci deməz, öz rəqibinə fürsət verər və nəticədə təmkini ilə qalib gələrmiş.

Müxənnət zamana, beymürvət fələk.
Qoymadı mətləbim bir alam indi.
Gözüm açdım, qərinələr dolandım,
Görünür gözümə bir aləm indi.

Qurbani, Abbas Tufarqanlı, Vaqif kimi sənətkarların irsi ilə tərbiyələnən Hüseyn Bozalqanlı aşıq poeziyasının bütün formalarında özünü sınayır – gözəlləmələr, qoşmalar, təcnislər, dodaqdəyməzlər, divanilər, gəraylılar və dastanları ilə aşıq şeirinin ən gözəl nümunələrini yaradır.

Bahar gəldi, çiçək açdı,
Güllər qırmızı geyindi.
Çırtıq dəydi, üz qanadı,
Xallar qırmızı geyindi.

Ölməz sənətkarın on dörd şagirdi olduğu bəllidir. Onların arasında Bozalqanlı Aşıq Vəli, Əlimərdanlı Aşıq Nəcəf, Aşıq Mirzə Bayramov, el arasında Kor Ələkbər kimi tanınan Aşıq Ələkbər Əsgərov və başqaları Aşıq Hüseyn Bozalqanlı məktəbinin davamçıları olmuşlar. Deyilənlərə görə, Aşıq Hüseyn müasirləri olan məşhur Aşıq Ələsgər, Növrəs İman, Aşıq Ağacan, Xəyyam Mirzə, Qazaxlı Mirzə Səməd, şairlər Vəli, Nəcəf və başqaları ilə deyişib. Bu deyişmələr xalqın yaddaşında xoş xatirələr kimi qalmaqdadır.

Bilmirəm, nə dedim, yar küsdü məndən,
Coşqun çaylar kimi axdı da getdi.
Oynatdı qaşını, süzdü gözünü,
Mənə oğrun-oğrun baxdı da getdi.

Azərbaycan xalq yaradıcılığının inkişafında Hüseyn Bozalqanlının ən böyük xidmətlərindən biri də dastan yaradıcısı olması, "Qara Tanrıverdi", "Nəriman", "Xanlar", "Hacı Tağı" dastanlarını yaratmasıdır. "Koroğlu" dastanının ən kamil bilicisi də məhz Hüseyn Bozalqanlı hesab edilir. Dastanın bir neçə qolu – "Koroğlunun Toqat səfəri", "Bağdad səfəri", "Həmzənin Qıratı aparması", "Koroğlunun vuruşması" və s. qolları onun dilindən yazılıb.

Böyük sənətkar dövrünün görkəmli tarixi şəxsiyyətləri ilə qarşılaşıb və həmişə də onların məhəbbətini qazanıb. Aşıq Metex qalasında həbsdə olarkən Nəriman Nərimanovla yaxından tanış olur və sonradan "Qoca Şərqin Nərimanı gəlirmi?" şeirini və "Nəriman" dastanını yazır.

Bədahətən söz deməkdə Hüseyn Bozalqanlının əvəzi olmadığından Xalq şairi Səməd Vurğun onu "əliqılınclı şair" adlandırar, ona dərin məhəbbət bəsləyərdi.

Səyyad olub ov bərəsin keçəndə,
Yaxşı yerdə yaxşı gözlə, yaxşı yat.
Ovun gəlib bərəsinə çatanda,
Sərvaxt dayan, dürüst tuşla, yaxşı at.

"Geri dur" müxəmməsi və digər şeirlərindən aydın olur ki, Hüseyn Bozalqanlı Sədi, Firdovsi, Füzuli kimi klassiklərin əsərlərinə dərindən bələd olub. Satira isə onun yaradıcılığında xüsusi yer tutub.

Aşıq Hüseynin bütün şeirləri zəngin xalq təcrübəsinə əsaslanan ibrətamiz nəsihətlərdir, sınaqlardan çıxmış həyat fəlsəfəsidir. Onun fəlsəfi fikirləri, dini baxışları, həyatın yaranması haqqında şeirləri aşığın dünyagörüşünün nə qədər kamil olduğunu sübut edir:

Cəlili-cabbarım, Qadiri-muxtar,
Altı gündə bu dünyanı çəkibdi.
On səkkiz min aləm küllü hər nə var,
Ərşi, kürsü, nöh asmanı çəkibdi.

1937-ci ildə Hüseyn Bozalqanlı Azərbaycan Yazıçılar İttifaqının üzvü və ittifaq nəzdində aşıqlar bölməsinin rəhbəri seçilir. Ustad sənətkar I və II Aşıqlar qurultaylarının, eləcə də, Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüklərinin iştirakçısı olur. Şairin əməyi dövlət tərəfindən yüksək qiymətləndirilir. "Şərəf nişanı" ordeni və fəxri fərmanla mükafatlandırılır, 1941-ci ildə isə ən yüksək fəxri ada – Azərbaycanın Əməkdar incəsənət xadimi adına layiq görülür.

Hüseyn Bozalqanlı 1941-ci il noyabrın 13-də vəfat edib, Bozalqanlı kəndində dəfn olunub.

Bundan sonra aşığın zamansız ömrü başlayır. Bu ömrün nə əvvəli, nə sonu var. Harada aşıq sənətindən, sazdan-sözdən söz düşürsə Aşıq Hüseyn Bozalqanlının şeirləri dil açıb danışır, ustadın qanadlı misraları ruhumuzu oxşayır. O, beləcə yaşayır...

Airəsdə İMRAN QIZI (ALLAHVERDİYEVA)

AŞIQ CƏLAL QƏHRƏMANOVUN BƏDİİ İRSİ

Aşıq yaradıcılığının tarixinə diqqət yetirdikdə bir-birindən istedadlı, yaradıcı qabiliyyətə malik ustad sənətkarların olduğu görünür. Onların hər birisi zamanından, məkanından asılı olmayaraq aşıq sənətinin inkişafı və zənginləşməsi sahəsində gərəkli işlər görmüşlər. Bir növ ağır yığnaqlar aparmış, məclisləri öz sazı, sözü ilə zinətləndirmişlər. Dirili Qurbani, Abbas Tufarqanlı, Sarı Aşıq, Xəstə Qasım, Abdalgülablı Aşıq Valeh, Ağ Aşıq, Aşıq Alı, Aşıq Hüseyn Şəmkirli, Aşıq Ələsgər, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Əsəd, Əlimərdanlı Aşıq Nəcəf, Aşıq Əmrah Gülməmmədov, Dərya Məhəmməd, Aşıq Avdı və s. ustad sənətkarlar buna nümunədir. Onların həyatının, yaradıcılığının araşdırılması, şeirlərinin toplanıb nəşri sahəsində də son dövrlərdə gərəkli işlər aparılmaqdadır. Bunlar sözün həqiqi mənasında xalqın milli-mənəvi sərvətinə qayğının ifadəsidir. Bu sənətkarlar içərisində həyatı və yaradıcılığı ilə birgə araşdırılmalı olan ustadlardan biri də Aşıq Cəlal Qəhrəmanovdur. Özünəməxsus dəsti-xətti ilə seçilən bu sənətkarın yaradıcılığı nədənsə araşdırmalardan kənarda qalmışdır. Halbuki onun zəngin yaradıcılığı aşıq sənətinin zənginliyini, inkişaf istiqamətini araşdırmaq üçün kifayət qədər material verir. Düzdür, bu ustadın keçən əsrin doxsanıncı illərində bir kitabı çıxmış, haqqında bəzi məqamlarda müəyyən xatirə xarakterli yazılar yazılmışdır. Ancaq bu yazılanlar ustadın zəngin yaradıcılığı müqabilində çox azdır. Professorlar M.Həkimov və M.Allahmanlı, filologiya elmləri namizədləri A.Rüstəmli, Ş.Qəhrəmanov və başqaları müxtəlif səpkili məqalələrlə Aşıq Cəlal yaradıcılığına münasibət bildirmişlər. Məlahətli səsi, özünəməxsus çalğısı, şeirlərinin poetik imkanları bu ustadın ənənədə nə qədər ucalıqda dayandığını göstərir. Professor P.Əfən-

diyev aşıq yaradıcılığının zənginlik və orijinallığını vurğulayaraq bu ustadlar timsalında bir məqamı xüsusi olaraq vurğulayır: "Aşıq sənəti orijinal və təkrarolunmazdır. Bu sənət xalqın əsrlər boyu əldə etdiyi yaradıcılıq ənənələri üzərində yaranıb formalaşmışdır. Aşıq sənətinin bu bənzərsizliyi haqqında görkəmli Azərbaycan sənətkarları çox qiymətli fikirlər söyləmişlər". Həmin fikirlər bütünlükdə xalqın zəngin mənəvi dünyasının açılmasına yönəliklidi. Məsələn, S.Ağamalıoğlu aşıqların birinci qurultayındakı çıxışında xüsusi olaraq vurğulayırdı: "Aşıq elin anasıdır, burada dağların, bulaqların içərisindən alınıb da el havasına qarışmış səsləri eşidərsiniz". Doğurdan da, aşıq yaradıcılığı türk xalqlarının zəngin yaradıcılığında şəriksiz bir sənətdir. Onun açılması isə zaman-zaman tədqiqatçıların diqqət mərkəzində olmuş və indi də olmaqdadır. Professor M.Məmmədov (Bülbül) aşıqların sazını, onların çaldığı havanı təbiətin ecazkarlıqları ilə müqayisə edir: "Aşığa təmiz hava, yaşıl çəmən, çöl çiçəklərinin ətri, uca dağlar, geniş tarlalar, quşların cəh-cəhi, çayların şırıltısı ilham gətirir, aşıq əsl azad rəssamdır". Ustad Aşıq Cəlal Qəhrəmanovun çalğısı, çaldığı havalar bu mənada əvəzsizdir. Onun musiqisi, sazının səsi, demək olar, heç bir sənətkarın çalğısı ilə müqayisə olunmazdır. Çox təəssüf ki, musiqişünaslar bu məsələyə hələ diqqət yetirməyiblər.

Aşıq Cəlal Qəhrəmanov Gəncəbasar aşıq mühitinin yetirməsidir. Tədqiqatçılar bu mühiti bəzən Borçalı aşıq mühiti ilə eyni götürürlər. Burada bir həqiqət var. Ancaq onu mühit daxilində mühitlər kimi də səciyyələndirəmk olar. Çünki burada müəyyən yaxınlıqlardan (həm çalğı, həm də ruh yaxınlığı nəzərdə tutulur) əlavə, nisbətən kiçik fərqliliklər də nəzərə çarpır. O mənada Gəncəbasar aşıq mühitini Tovuz, Gədəbəy, Şəmkir, Qazax, Borçalı aşıq mühitləri kimi daxildə qruplaşmalara da ayırmaq olar. Bu cür qruplaşmada Aşıq Cəlal Qəhrəmanov Qazax aşıq mühitinin yetirməsidir. Belə ki, o, ustad sənətkarlarımızdan olan Aşıq Avdının yanında yetişmişdir. Aşıq Avdının bir neçə şagirdi olmuşdur ki, onlardan biri də Cəlal Qəhrəmanov idi. Məhz bu ustadlar hər ikisi Azərbaycanın ayrı-ayrı kəndlərində məclislər aparmış, aşıq sənətinin inkiaşfına əlindən gələn yardımı etmişlər. Aşıq Cəlal Qəhrəmanovun şeirləri məhz bunu aydınlıqla göstərir. O, müxtəlif şeirlərində ustadı Aşıq Avdı havqqında danışır, onun bir sənətkar kimi hansı ucalıqda dayandığını ortaya qoyur:

Mən Cəlalam, dara düşsəm yetməyə imdadım var,
El içində hörmətim var, şöhrətim var, adım var.
Məşhur Aşıq Avdı kimi kamil bir ustadım var,
Məclislərdə dövran edib dərs alam ondan gərək.

Bu fikirlər təsadüfi deyilməmişdir. Bir istiqamətdə Aşıq Cəlal Qəhrəmanov öz ustadı Aşıq Avdının kimliyi, hansı mərtəbədə dayanması haqqında informasiya verir. Digər istiqamətdə o, özünün ustadı ilə sənət bacarığına görə fəxr edir. Ustadından hələ öyrənməli çox şeylərin olduğunu göstərir. Burada ustad-şagird ənənəsinin tipik nümunəsi görünür. Çünki aşıq yaradıcılığında ustad-şagird ənənəsi davamlı olaraq yaşanır. Təsadüfi deyil ki, ustadlar, məsələn, Ululu Kərim "ustad görməyənin işi kəm qaldı" söyləyirdi. Dastanlarımızda bunun kifayət qədər tipik nümunəsi nəzərə çarpır. Və Aşıq Cəlal da çox doğru olaraq "dara düşsəm yetməyə imdadım var" söyləyir. Aşıq Cəlal Qəhrəmanovun bu tip bir-birindən maraqlı, ümumiyyətlə aşıq ədəbiyyatımız üçün örnək olacaq kifayət qədər şeirləri var. "Mənim" rədifli şeiri də bu sırada diqqəti cəlb edir:

Aşıq Cəlal, gücün özünə çatdı,
Qəm səni başqa bir aləmə atdı.
Sənət aləmində bir dağdı Avdı,
Dağ kimi duracaq o dağım mənim.

Artıq bu ustadların heç biri həyatda yoxdur. Lakin onlar sazı, sözü ilə doğrudan da sənət aləmimizi bəzəyir və sənət aləmində bir dağ kimi qalmaqdadırlar. Onların haqqında yazılanlar, radio dalğalarında oxuduqları mahnılar, çaldıqları havacatlar, xalq arasında danışılan hekayətlər bunu bir daha təsdiqləməkdədir.

Təxminən əlli il ömür sürən bu ustad bəlkə də neçə əlli illərə sığışacaq bir həyat yolu keçmişdir. Ustadı Aşıq Avdı öz yetişdirməsinin vaxtsız vəfatı ilə bağlı yazdığı şeirdə ürəkağrısı ilə deyir:

Bu saray bir də yapılmaz,
Kərən sındı, mil qırıldı.
Cəlalım bir də tapılmaz,
Cığır itdi, yol qırıldı.

Min yol dinlədim azından,
Heç doymadım avazından.
Aşıq Avdının sazından,
Pərdə düşdü, tel qırıldı.

Göründüyü kimi, bu, ustadın öz yetirməsinə münasibətidir. Daha doğrusu, bir sənətkar kimi qiymətləndirməsidir. Bu yapılan saray, doğrudan da bir də çətin ki, yapıla. Onun səsinə, sazının özünəməx-

susluğuna diqqət yetirəndə Aşıq Avdının dediklərində nə qədər böyük həqiqət olduğu aydınlaşır. Əlli illik bir ömürdə Aşıq Cəlal neçə-neçə qoşma, gəraylı, divani, müxəmməs, ustadnamə, dastan nümunələri yaratdı. Bu nümunələr hamısı onun hansı duyğularla yaşamasını, hansı düşüncədə olmasını göstərir.

Aşıq Cəlal Qəhrəmanovun yaradıcılığında diqqəti cəlb edən cəhətlərdən biri də etnoqrafik zənginliklərin olmasıdır. Burada təbiətin əsrarəngizlikləri, yurd yerlərinin xatırlanması müxtəlif istiqamətli araşdırmaları zəruri edir. Çünki bunların hər birisində bir tarix, tarix dolu rəvayət, hadisə özünün əksini tapır. Digər tərəfdən bu adların bir hissəsi itirilmiş yurd yerlərimizdir. Həmin yurd yerləri ki, indi məkrli, namərd qonşularımız tərəfindən əsarətdədir.

Gözəldir Eyfli, Şişdağ, Hayvalı,
Qazılı, Mirzəli, Darağan çalı,
Qılınc kəndi səfalıdır, səfalı,
Min dərdin dərmanı var nəfəsində.

Təbiətin əsrarəngizliklərinin tərənnümü Azərbaycan poeziyasının, ümumilikdə aşıq yaradıcılığının mühüm bir hissəsini təşkil edir. Aşıq Cəlal Qəhrəmanov da müxtəlif məqamlarda təbiətə müraciət edir, onun gözəlliklərini yazıya gətirmək məqsədində olur. Bu, birbaşa olmadan əlavə, bəzən dolayı xarakter daşıyır. Hansısa mövzuda yazdığı zaman ehtiyacdan, böyük sevgidən yaranır. Məsələn, ustadın "Sənnən" rədifli bir gəraylısı var. Burada sazın sirrindən, sehrindən, ona yaxın olmasından söhbət açılır. "Sədəfli saz məni dindir" deyən Aşıq Cəlal Qəhrəmanov maraqlı paralellər aparır. Sazla, sözlə bu gözəllikləri canlandırır. "Vurğun gəzən oylaqların zirvəsinə varmaq" istəyində görünür:

Yağış yağar narın-narın,
Gözü dolar bulaqların.
Vurğun gəzən oylaqların,
Zirvəsinə varam sənnən.

Aşıq Cəlal Qəhrəmanovun zəngin bədii irsi təkcə aşıq poeziyasının inkişafını deyil, eyni zamanda mühiti, ayrı-ayrı ustadlarla əlaqələri öyrənmək üçün də kifayət qədər material verir. Bu baxımdan onun deyişmələri, dastan yaradıcılığı, ustadnamələri, digər şeirləri böyük əhəmiyyət kəsb edir və daha geniş araşdırmalara ehtiyac doğurur.

Dos. Dr. Qalib SAYILOV
folklorşünas

UNUDULAN UNUDULMAZLAR...

Şirvanın iki el şairi haqqında düşüncələrim

Mövcud aşıq məktəblərinin əlaqəli dialektik münasibətləri sferasında törənən və törədici amillər mövcuddur ki, aşıq məktəblərinə bu prizmadan yanaşma elmi cəhətdən olduqca zəruridir. Aşıq üslubunda yazan onlarla şair vardır ki, onlar heç zaman saz çalıb-oxumamışlar, lakin yaradıcılıqları aşıq poeziyasından fərqlənməmişdir. M.H.Təhmasib onları aşıq üslubunda yazan şairlər adlandırmışdı. Zaman keçdikcə bu üslubda yazan şairlərə "el şairi" adı verilmişdir. Nə üçün bu şairlər bəzən aşıqlarla eyni tutulur? Çünki el şairləri aşıq tərzini mənimsəyərək o qədər ritmik, axıcı qoşqular yazmışlar ki, çox vaxt aşıqlar da onların şeirlərinə havacatlar oxumuşlar. Eyni zamanda aşıq da, el şairi də folklordan qaynaqlanır, onun kanonik mətn tiplərindən istifadə edir. Həmçinin aşıq da, el şairi də yazılı ədəbiyyatla təmasda olur. Bəzən aşıqlar məşhur olmayan, çox tanınmayan, əyalətdə yaşayan belə şairlərin şeirlərini öz adlarına da oxumuşlar. Belə hallar XX əsrin 70-ci illərindən günümüzə qədərki zaman vahidində mövcud olmuşdur. 1970-ci illərə qədər insanlar, aşıq həvəskarları bildiklərini şifahi ənənədən əxz etmişlər. Getdikcə bilici insanlar azaldı, belə baş-ayaq məsələlər də artdı. Mən bu gün Şirvanın unudulmaqda olan, bəzən də şeirlərini başqaları öz adına oxuyan iki istedadlı şairindən söhbət açacağam. Bu iki şairi də nəşr etməkdə çox gecikmişik. Ağızdan-ağıza eşitdiklərimdən duydum ki, bu şairlərin də şeirlərinin çoxusu itib-batıb, onun-bunun adına oxunur. Ancaq belə hallar çox davam edə bilməz, gec-tez haqq öz yerini tutur. Deyilənə görə, məşhur birisi mərhum Biqələmin şeirlərini öz adına oxuyurmuş. Lakin böyük bir məclisdə bu şeiri dəqiqliklə bilən birisi həmin şəxsi urvatsız edib. Haqqında söhbət açacağımız şairlər Əlibala Qədirli və Tahir Şirvanlı (Hüseynov) xalq şeiri üslubunda yazıb-yaradan şairlərdəndir. Onların hər ikisi el şairidir. Yaşadıqları zamanın mütərəqqi ideyaları onların şeirlərində sənətkarlıqla ifadə edilmişdir. Xalq şeiri formasında dərin hisslər və fikirlər ifadə etmiş, real təbii lövhələr yaratmaq istedadı onların qabil, kamil bir sənətkar olmalarından xəbər verir. Hər iki şair bədii sözün zəgnin poetik çalarlarından geniş istifadə etmişdir. Bu şairlərin poeziyasının sehrinə düşəndə munis

könül duyğularını, qəlbin hiss və həyəcanlarını, ağrı və acılarını ritmik bir havada yaşayırsan. Hər iki el şairi sözün poetik imkanlarından məharətlə istifadə edərək fikir və düşüncələrini oxucuya müxtəlif ədəbi formalarda çatdıran qələm sahibləridir. Fikirlərində pərakəndəlik yoxdur, obrazlı şəkildə, özünəməxsus forma və üslubda ifadə edə biliblər. İstər Əlibalanın, istərsə də Tahirin bədii yaradıcılığı məzmun etibarilə geniş və zəngindir. Yüksək ideallar, saf mənəvi-əxlaqi duyğuların tərənnümü ilə yanaşır, onların yaradıcılığında, həm də demək olar ki, dərin bir kədər, şəxsi iztirab və narahatlıq var. Onların yaradıcılığı Vətən, Ana, Dost, Torpaq sevgisi haqqında mükalimələrdir. Belə prinsiplərin, belə mükalimələrin müasir gəncliyimiz üçün ibrətamiz və tərbiyəvi əhəmiyyəti çox böyükdür. Klassiklərimiz də həmin formalardan bu və ya digər şəkildə istifadə edərək cəmiyyətin müəyyən problemləri ilə bağlı düşüncələrini ifadə etmişlər.

Unudulmaqda olan bu el şairlərini öyrənməklə insanlara – onların taleyinə münasibəti öyrənmək ortaya çıxır. Bu tendensiya gənc nəsli müasir günümüzdə keçmişin acı həqiqətlərindən xəbərdar etmək baxımından çox əhəmiyyətlidir. Son olaraq onu da qeyd etmək istərdim ki, bu şairlərin şeirlərini kitab halında nəşr etməyin vaxtı çoxdan keçib. Bu müəlliflərin şeirlərinin bir qismi hafizələrdə, bir qismi də başqa-başqa adamlardadır. Kim bunlar haqqında nə bilirsə, xahiş edirik bizə məlumat versin.

Əlibala QƏDİRLİ

AY ALLAH

Nadanların, qanmazların önündə,
Qolubağlı qul olmuşam, ay Allah.
Nə sitəmdir, çəkdirirsən sən mənə,
Dilim batıb, lal olmuşam, ay Allah.

Dərd əhliyəm, heç dərdimi bilən yox,
Ağlayanda göz yaşımı silən yox,
Tutulmuşam, harayıma gələn yox,
Yana-yana kül olmuşam, ay Allah.

Qədirliydim, ər oğluydum, ər idim,
Pəsək idim, karvan çəkən nər idim.
Zərbafta idim, qumaş idim, zər idim,
Eşşəklərə çul olmuşam, ay Allah.

SİRLİ DÜNYA

Hər kəsin taleyi sirli dünyadır,
Bilinməz ünvanı, bilinməz adı.
Bu fani dünyada qismət olmadı,
Onun varlığına gümanım vardır.

Seyrinə dalardım güllü bağların,
Mehmanı olardım buz bulaqların.
Bir zaman gəzdiyim uca dağların,
Qoynunda çiskinli dumanım vardır.

Məhəbbət ummazdım hər qara gözdən,
Süni baxışdan, işvədən, nazdan.
Minnətim olmazdı gəlindən, qızdan,
Mənim öz məhəbbət ümmanım vardır.

Görən harda qaldı o şirin dəmlər,
Mənə işvə edən nazlı sənəmlər.
İndi qocalmışam, üz verib qəmlər,
Mənim də dövranım, zamanım vardır.

Qədirliyəm, uçub gedər həvəsim,
Torpağa qarışar quru qəfəsim.
Məhşərdə qurular mizan tərəzim,
Ağlaram, deyərəm günahım vardır.

ÇATMAZ

Kor eylə nəfsimi, bərk çək cilovun,
Dost-dostu dünyanın varına satmaz.
Namərdin yesən də yağlı pilovun,
Mərdin lavaşına, şoruna çatmaz.

Çalış haram mala dikmə gözünü,
Heyifsən, nəfsinə satma özünü.
Kəssələr də dilini, doğru söylə sözünü,
Mərd adam haramı malına qatmaz.

Qədirli söz deyər mərdi-mərdana,
Qoy yayılsın eldən-elə, cahana.
Zəri zərgərə ver, suyu yanana,
Sözü qanana de, qanmaza batmaz.

YAXŞIDIR

Uydururam hərdən-hərdən,
Söz deyirəm mən ürəkdən.
Ədalətsiz rəhbərlərdən
Zəhmət çəkən qul yaxşıdır.

Dağlar durar öz yerində,
Ürək yanar köz yerində.
Danışmağa söz yerində,
Ağıl-kamal, dil yaxşıdır.

Kəklik gəzər dağda, daşda,
Ovçu gözü ovda, quşda.
Bir dərinlik yoxsa başda,
Danışmasa, bil, yaxşıdır.

Sığınmadığım dar bucaqdan,
Hərarətsiz yad qucaqdan,
İsinmədiyim ocaqdan
İlğım qalan kül yaxşıdır.

İsmarışdan, yalvarışdan,
Qeyrətsiz qohum-qardaşdan,
İstəsən söz keçsin daşdan,
Cibindəki pul yaxşıdır.

OLA-OLMAYA

Beş günlük dünyadır bu fani dünya,
Beşi də qismətin ola, olmaya.
Ellər cənazəni qaldıran zaman,
Kiminsə gözləri dola, dolmaya.

Sənlə öyünüb, səni öyənlər,
Hər gün də sənlə çörək yeyənlər,
Min dəfə can deyib, can eşidənlər,
Bir dəfə xəyala dala, dalmaya.

Qədirli, hər sözü açıb söyləmə,
Əcəl yetsə, əcəl atın əyləmə.
Övlada da çox da ümid eyləmə,
Qəbrinə bir cığır sala, salmaya.

BƏNZƏR

Ədəb-ərkan, böyük-kiçik bilənin,
Yeddi yaşı olsa, yetmişə bənzər.
Yersiz danışanın, yersiz gülənin,
Bitməmiş cümləsi bitmişə bənzər.

Nəsihət kar etməz hər dayaz başa,
Ağıl papaq deyil, qoyulsun başa.
Hər uzun saqqala, hər yekəbaşa,
Alim deyən qələt etmişə bənzər.

Aqil olan ədəb gözlər hər yerdə,
İstər kənddə olsun, istər şəhərdə.
Bir kimsə olmasa xeyirdə, şərdə,
Köçüb bu dünyadan getmişə bənzər.

Böyük gələn zaman kiçik durmasa,
Ədəbin göstərib, halın sormasa,
Köndələn uzansa, bardaş qurmasa,
Əsil-nəcabəti itmişə bənzər.

Müftə yeyib, xalqa xeyir verməsə,
Zəhmətin önündə sinə gərməsə,
Bir gül basdırmasa, ağac əkməsə,
Həyatı mənasız ötmüşə bənzər.

Qədirli nə molla, nə də hacıdır,
Haqqın sipəridir, haqqın tacıdır.
Deyir, nəsihətin ilki acıdır,
Sonu, nəticəsi kişmişə bənzər.

ƏLİDİR

İsminə qurban mən olum, Allahın şiri Əlidir,
Onu bütün islam əhli tanıyıb, həm bilməlidir.
Əlində ol zülfüqarı, qəzavata çıxmış idi,
Əmir Əntər başına zülfüqarın çaxmış idi.

Düldülün yəhərində kafəri islam elədi,
Çoxları qılıncına əyilib ikram elədi.
Aşıqlara buta verdi, təcəlleyi-nur elədi,
Allahın kəlamını hər yana zühür elədi.

Allah fərəc versin dilək-duama,
Sığınmışam Veysəl Qara babama.
Həzrət Şıxeyyuba, Həzrət babama,
Səadət bəxş edən Həzrət Əlidir.

Göydə fərişdələr olub səngəri,
Göyün sütunudur, yerin ləngəri.
Günəşi qürubdan qaytaran geri,
Xeybər qalasını alan Əlidir.

Qədirli, sözlərin ləldir burada,
Əli adın çəkən yetər murada.
Dəryada, divanda olsan, olar da,
Məzlumun qeydinə qalan Əlidir.

ŞAMLI TAHİR (Hüseynov)

QİYAMƏT EVİ

Qiyamət evinə gəl baxaq, ellər,
Burda nə ağladan, nə güldürən var.
Burdadı oğlanlar, nazlı gözəllər,
Burda nə sevən var, nə sevilən var.

Burdadı ox atıb, at oynadanlar,
Burdadı qaçanı qovub tutanlar.
Burdadı dünyanı alıb-satanlar,
Burda nə ölən var, nə öldürən var.

Burda soruşmayır kim kimin halın,
Burda heç kim sevmir dünyanın malın.
Hamı qoyub gəlib cahu-calalın,
Burda nə bölən var, nə böldürən var.

Tahirəm, görmüşəm dünyanı sonsuz,
Hamı gəlir bura köçsüz, karvansız.
Burda canlar yatır ahsız-amansız,
Burda nə danışan, nə dindirən var.

DE, QOCALMASIN

Canın aldanmasın hər gözəlliyə,
Bülbülü qoymayın göy çəmənliyə.
Səkməyi öyrədin sona kəkliyə,
Şəhla gözəllərə de, qocalmasın.

Qıyğacı baxanda qoy alsın canı,
Düşürsün taxtından şah Süleymanı.
Heyran etsin hər yaranmış insanı,
Sənəm gözəllərə de, qocalmasın.

Aşırsın zülfünü, salsın bir yana,
Bənzəsin çöllərdə ahu-ceyrana.
Qoy gözəllik versin Azərbaycana,
Nazlı gözəllərə de, qocalmasın.

Miskin aşiqləri çəkdirsin dara,
Yoxsul cavanları salsın azara.
Tahiri əllərilə qoysun məzara,
Bizim gözəllərə de, qocalmasın.

GƏL ŞİRVAN ELLƏRİN TANIDIM SƏNƏ

Gəl gəzək ölkəmin hər bir bucağın,
Bu Şirvan ellərin tanıdım sənə.
Seyidin, Sabirin ana torpağın,
Yaradan əllərin tanıdım sənə.

Talışnuru, Dəmirçi, Zarat, Ərçiman,
Çuxuryurd, Altıağac, Qozdu, Qızmeydan,
Mədrəsə, Minikənd, Zarxı, Sağıyan,
Gəl Lahıc ellərin tanıdım sənə.

Avaxıl, Məlhəm, Sis, Əngəxaran,
Alçalıpir, Qəleybuğurd, Keçmədin, Çağan,
Ovçulu, Bağırlı, Gəyəli, Çarhan,
En, o Qaş ellərini tanıdım sənə.

Sündü, Mərzəngəldi, Təklə, Çuxanlı,
Quşçu, Bayat, Çaylı, Məlikçobanlı,

Xanışlı, Şərədil, Kalva, Muğanlı,
Gəl Xatman ellərin tanıdım sənə.

Yekəxana, Cəmcəmli, Sədəf, Göydərə,
Bədəlli, Çıraqlı, Təsi, Ağdərə,
Nügdü, Adınalıdan baxaq Göylərə,
Gəl Padar ellərini tanıdım sənə.

Arabşahverdi, Pirvəhli, Hümbü, Cəbirri,
Nərimankənd, Mərəzə, Çalo, Cəgirri,
Qaracüzdü, Qurbançı, Bəklə, Nabırrı,
Qızılçay ellərin tanıdım sənə.

Kürdəmiş, Qonaqkənd, Həmyə, Cabanı,
Poladlı, Çorbaçı, Udulu, Kolanı,
Damlamaca, Dərəkənd, Şıxzərri, İlannı,
Gəl Ərəb ellərin tanıdım sənə.

Qəşəd, Bico, Lənəgəbiz, Hacıqədirli,
Qarasu, Çolpadar, Karrar, Sığırlı,
Qızılburun, Atbulaq, Ələt, Xıdırlı,
Gəl aran ellərin tanıdım sənə.

Pirsaat, Navahı, Rəncbər, Qubalı,
Hacıqabul, Yenişirvan, Xilə, Çılpaqlı,
Dadaşbəyli, Kərimbəyli, Kür Qarabağlı,
Gəl Muğan ellərin tanıdım sənə.

Çıx Babadağından üz tut Şirvana,
Şamaxı, Kürdəmir, get çıx Salyana,
Xalac çöllərində gəl bax ceyrana,
Bankədə kürüyə qonaq ol mənə.

Keç Təngə dağından çıx Dağıstana,
Xınalıq, Süsaydan en get Nabrana,
Günəşli ölkəmə – Azərbaycana,
Gəlginən Zirəyə qonaq ol mənə.

Qocaman Tahirəm, bağrı qanlıyam,
Əsilli Şamlıyam – mən Şirvanlıyam.
İndi hal-hazırda Qobustanlıyam,
Gəl bizim elləri tanıdım sənə.

İBRAHİMXƏLİL

AMANAT SAXLASIN…

(el şairi Əli Faxralı üçün dağlar havası)

… Bundan sonra inanmaram vəfana,
Sidq ilə sığındım Sübhana, dünya!

Şair Miskin Nəbi Borçalının bu misraları ilə tanışlığım zamanı el şairi Əli Faxralını tanımırdım. Hardan biləydim ki, Əli Faxralı ömrünün oğlan çağlarında, yəni yeniyetməlik vaxtlarında bu hüzn dolu misraların müəllifi ilə hətta deyişibmiş də!

1941-ci ildə baş tutan bu deyişmə cəmi cahanı yaman günə qoyan İkinci Dünya müharibəsi ilə bağlı olub. On beş yaşlı yeniyetmə ümid edir ki, düşmən öz mənfur taxtından salınacaqdır! İndi, 2013-cü ilin payızında 90 yaşlı Əli Faxralı düz 70 il əvvəl olduğutək Qarabağ üçün də elə ümidli və nikbindir! Əmindir ki, qədim Qarabağ torpağı tezliklə ağ günlərə qovuşacaqdır.

Şair Nəbi Borçalı ilə deyişdiyi günlərdə hansı çırpıntılı, həyəcanlı hisslər keçirdiyini təkcə Əli əminin özü bilər! Özü, bir də Allahı!

Zamanı durdurmaqmı olur, saxlamaqmı olur? Əbəs yerəmi deyiblər: ötən günə gün çatmaz, calasan günü-günə…

… İnşallah, qəbul olar,
Gələnlərin hər niyyəti.
Şükür Haqqa, mən də gördüm
Miskin görən vilayəti.

Bu misralar isə doğma kəndim Dəllər haqqında deyilibdir. Faxralı ilə Dəllərin arası eləmi böyük məsafədir? Necə deyərlər, gözünü

yum, aç – Dəllərdəsən! Axı, qohumluq, doğmalıq telləri kilometrlərləmi ölçülür? Şair Nəbi Borçalının Dəllər səfərlərini qocalarımız indi də danışırlar. Əli Faxralının Dəllərə hansı tellərlə bağlandığını isə təkcə gözlə görmək azdır, gərək adamın iç dünyasından, batinindən də bir xəbərin ola.

… Bu Çənlibellərdə qalsın.

Əli Faxralı Dəllər – Çənlibel məna yaxınlığını vaqiflərsayağı dərhal tuta bilib! Çünki Dəlləri bircə kərə görmək kifayətdir ki, «yarı alma kimi oxşar» ifadəsinin Ucalığa, Vüqarlılığa, Görkəmliliyə necə dəqiq ünvanlandığını duya biləsən!..

… Əli Faxralıyam, Qurban oğluyam,
Soyadda Tamılara sanallar məni!

Belə bir iddia ilə çıxış etmək niyyətim yoxdur ki, bizim Tamılara – Əli əmigili nəzərdə tuturam – qohumluğumuz yüzəyüzdür. Qətiyyən! Onsuz da hamımız, necə deyərlər, bir kökdən ayrılmışıq. Sadəcə, xırda incikliyim burasındadır ki, Əli əmi ilk dəfə Dəllərdə olanda ona niyə deməyiblər ki, Bayramlı kimi tanınan Tamıöyü, Tamılar Faxralıda olduğutək, Dəllərdə də var! Bu soyad nadir soyad olduğu üçün – Dərbənd, Borçalı, Təbriz arası yenə ola, ya olmaya – təxmin etmək olar ki, mən Əli əmi ilə mənəvi qohumluqdan, bədii Söz qohumluğundan öncə, həm də qan qohumuyammış! Görünür, hörmətli şairimiz Abbas Abdulla mənim familiyamı birinci dəfə görəndə dediklərində nə qədər haqlı imiş! O demişdi: «Zəncandan Ərzincana belə familiya tapa bilməzsən. Qohumluq tellərini axtarmağa elə Borçalıdan başlasan yaxşıdır».

Təvazökarlıqdan uzaq da olsa, bunları da əlavə edim ki, Abbas Abdulla o vaxt mənim «Ulduz» jurnalında gedən şeirlərimi yəqin ki, daha çox kökə bağlılıq baxımından «İbrahimxəlil Tamıoğlu» imzası ilə vermişdi.

…1926-cı ildə Bolnisi Faxralısında dünyaya gələn Əli 1943-cü ildə Marneulinin Böyük Muğanlı kəndinə köçdü. Burada çox incəliklər, çox mətləblər var. Zənnimcə, bütün incəlikləri açıqlasaq, azından bir dastana yaraşardı. Çünki çox mətləblər var ki, onu sözlə ifadə etmək çox adama müyəssər olmur. Gərək sözlə deyilə bilməyənlər sazla deyilə… Sazla deyilə, özü də sarı-sarı sim üstündə. Həm də nəzərə almaq lazımdır ki, ustadlar ustadnaməni üç deyiblər, bir deməyiblər.

… Tuş oldum bəlaya tifil yaşımda.

Əli Faxralı yaxşı bilir ki, yalnız vaqif adamlar öz alın yazılarına «düzəliş» edə bilmək iqtidarındadırlar! İradəli, səbirli və dözümlü adamlar…

Əli Faxralı, sadəcə olaraq dərdlərini sadalamır – dərdsiz adammı var – həm də dərddən qurtuluşun yollarını həyat təcrübəsi ilə işıqlandırır. İnsan necə yenilməz olmalıdır onu deyir, necə əyilməz olmalıdır onu yazır.

Dərddən bir dəfə yıxılmaqla canmı qurtarır? Dərddən gərək dönə-dönə, dəfələrlə yıxılasan ki, dünyanın mənasını qanasan! Uşaq yeriməyi iməkləyə-iməkləyə öyrənən kimi!..

…Dünya demiş… dünya haqqında yüzlərlə şeir oxumuşam, hərdən – şişirtmək olmasın – özüm də düzüb-toqquşdurmuşam. Əli Faxralının misralarına fikir verin:

Səyyad misallıdır gördüyün cahan,
Torundan çıxammaz nə sultan, nə xan,
İnsan bir buğdadır, dünya – dəyirman,
Üyüdüb vəlhəmə döndərər səni…

Bu, adi, adət etdiyiniz əxlaq, öyüd-nəsihət dərsi deyil. Bunlar el şairinin, xalq şeiri üslubunda yazan bir ustadın özünəməxsus, ancaq öz yolu olan ustadın özünəməxsus dəst-xəttidir. Əli Faxralı el şairləri içində özü, öz ***Yolu*** olanlardandır.

Gələk bütün Borçalıların can-ciyər havası olan Dağlar havasının üstünə! Süsən-Sünbülü deyə bilmərəm, amma Muğanlıda da, Faxralıda da, Darvazda da, Dəllərdə də belədir: əgər şeir kitabının içində dağlar haqqında heç nə yoxdursa, bu kitab Allaha ağır getməsin, kitab hesab olunmur. Xalq şairi Zəlimxan Yaqub demiş, sadəcə olaraq, «qalan kitab» yox, «qalın kitab» sayılır.

Dağlar haqqında Əli Faxralının ikicə misrasını göstərirəm. Amma tutumu dağlar qədər böyük və uca olan iki misranı:

Köç karvanı yollarına düzülə,
Saf suyunnan simavarlar süzülə…

El-obaya müraciətlə dedikləri də çox-çox, həm də ibrətamizdir:

Şən olsun binəsi binalar kimi…

və:

Kəm xəyallar savadında kasıbdı,
Yandırır qəlbimi odun, Başkeçid!

… Eşidib bildiyimə görə, Əli əmi kənddə həm də mahir sınıqçı kimi tanınır. Kömək əlini sınıqçıya ehtiyacı olan kimsədən əsirgəmir. Bu yerdə ağlıma bunlar da gəlir ki, bəlkə, elə Sınıq körpünün bir əlacı da elə Əli Faxralıda imiş! Çünki dünyada Əli Faxralı kimi insanlar nə qədər çox olsa, sınıq könüllər də, sınıq körpülər də bir o qədər az olar. Dünyanın ucqar adamı kimi, bunlar həm də mənim inam və etiqadımdır.

P.S. Mən hətta bu sahənin tanınmış tədqiqatçısı olsaydım da, Əli Faxralının şeirlərinin lirik və epik vüsətini bütün çalarları və ölçüləri ilə göstərə bilməzdim. Çünki onun bütöv yaradıcılığı çox genişdir. Bədii yaradıcılıqdan dolayı, beş övladı – üç oğul və iki qız – doqquz nəvəsi, on iki nəticəsi də Əli əminin yaratdığı sənət əsərləri sırasında deyilmi?

Hamısını Allah qorusun, hamısını Allah saxlasın! Əli əmi özü bu mənaya yaxın, bu anlama oxşar dağlara belə xitab edir:

Amanat saxlasın əllərin, dağlar!

P.P.S. 2013-cü il sentyabrın 20-də Əli əminin 90 illiyini bayram etməyə hazırlaşırdıq. Həmişə dünya mənfəətinin yox, Axirət qazancının dalınca gedən Əli Faxralının... qismət olmadı. Əlbəttə, uca Allah bilən məsləhətdir.

Dünyanın ucqar deyilən yerində, Əyriqarın ətəklərinə yaxın əlimdən bir bu gəldi ki, el şairi Əli Faxralı üçün «Dağlar havası»nın dili elə indiki zamanda da qaldı. Bir də ona görə ki, mənim üçün Əli əmi haqqında keçmiş zamanda danışmaq ağırdır, çox ağırdır.

Kənan HACI

HİTLERİN ƏSGƏRİ, STALİNİN MƏHBUSU OLAN AZƏRBAYCAN AŞIĞI

Zaman həqiqətin qonşuluğundadır. Zaman həqiqəti unudulmağa qoymur. Azərbaycan ədəbiyyatında bir Məzahir Daşqın həqiqəti var. El şairi Məzahir Daşqın Borsunlu qəribə tale yaşayıb, həyatı məhrumiyyətlər içində keçib.

Məzahir Həmzə oğlu Axundov 1909-cu ildə Tərtər rayonunun Borsunlu kəndində anadan olub. Şairin atası Məşədi Həmzə Tərtər rayonunun Borsunlu kəndində sayılıb-seçilən adamlardan biri olub. O, bir müddət xırda ticarətlə məşğul olub, sonralar ticarətin daşını atıb. Əkinçiliyə keçib. Məşədi Həmzə həmişə sadə insanların haqlarını qoruyub, kasıb-kusuba əl yetirib. Elə bu xüsusiyyətlərinə görə camaat arasında böyük hörmət qazanmışdı. O, yeni quruluşu dəstəkləyənlərdən idi. İyirminci illərdə Məşədi Həmzə tanınmış bolşevik Hüsü Hacıyevi müdafiə etdiyi üçün partiya sıralarından xaric olunur və bir müddət sonra həbs edilir. Az sonra həbsdən azad edilsə də, Məşədi Həmzə 37-ci il repressiyasından xilas ola bilmir. Həmin dövrdə o, Ağdamda Pambıq Birliyinin müdiri işləyirmiş. 1938-ci il mart ayının 5-dən 6-na keçən gecə onu güllələyirlər.

Gənc yaşlarında atasız qalan Məzahirin həyatını Böyük Vətən Müharibəsi dəyişir. Müharibə başlayan kimi Məzahir könüllü olaraq ordu sıralarına qəbul olunmaq üçün ərizə yazır. Hərbi təlim keçdikdən sonra sovet ordusunun tərkibində İrana göndərilir. Orda qaldığı müddətdə Cənubi Azərbaycana aid xeyli şeir yazır, Aşıq Hüseyn Cavanla tanış olur, el məclislərində şair aşıqlarla deyişir. Tanrı ona şairlik istedadı bəxş etmişdi, müharibənin qızğın çağlarında belə Məzahir Daşqının təbi dağ çayı kimi coşub-çağlayır.

1942-ci ilin fevralında Məzahirin xidmət etdiyi hissəni ön cəbhəyə yollayırlar. Həmin ilin iyulunda Kalmıkiya MSSR-in Arzgir şəhəri yaxınlığında almanlarla döyüşdə əsir düşür və o gündən məşəqqətli günlər

başlayır. Georgiyevski, Zaporojye, Dnepropetrovsk və Krakov şəhərlərindəki hərbi düşərgələrdə əsirlik həyatı yaşayır... O yerlər ölüm düşərgələriydi və taleyin labirintinə düşən Məzahir sabah onu nə gözləyirdi, bilmirdi.

1943-cü ilin fevralında mənzil qərargahı Polşanın Yedlino şəhərində yerləşən Azərbaycan legionerlərinin hərbi hissəsinə göndərilir. 1943-cü ilin aprelində 818-ci batalyonun Yedlino şəhərindəki musiqi taqımına komandir təyin edilir. 1943-cü ilin mayında Berlində Azərbaycan Xalq Cümhuriyyətinin 25 illik yubileyinə həsr olunmuş yığıncaqda onun rəhbərlik etdiyi musiqi taqımı yığıncaq iştirakçıları qarşısında konsert proqramı ilə çıxış edir. Daha sonra Berlində nəşr olunan "Azərbaycan" qəzetinin ədəbi müxbiri vəzifəsinə keçirilən Məzahir Axundov şeirlərini Aşıq Məzahir və Daşqın imzasıyla çap etdirirdi. Onun şeirlərinə bəstələnmiş mahnılar ilk dəfə 1943-cü il noyabrın 6-8-də azərbaycanlıların Berlində keçirilən birinci qurultayında səslənmişdi.

Məzahir Daşqının atası sovet quruluşuna sadiq adam olsa da, bu sistem onu güllələmişdi və məhz buna görə Məzahir sovet sisteminə, Stalinə nifrət edirdi. Bu nifrət onun şeirlərində də açıq-aşkar özünü göstərirdi:

Mən bir qulam, yerim altun, suyum gümüş, özüm ac,
Atam məhkum, Anam sayıl, elim çörəyə möhtac.
Dil yaranıb danışmağa, mən danışa bilmirəm,
Yar sinəmi, aç qəlbimi, ciyər vərəmdir, vərəm!

Koramaltək sürünməkdən, söylə, varmı bir məna?
Nə vaxtacan çörək üçün girim hər alçaq dona?!
Mən insanam, qəlbim vardır, kəskin zəkam, əqlim var.
Bəs deyilmi çiynimizi yağır etdi bu yadlar!
Nə qədər ki, hakimlik var, məhkumluq var, mən varam,
Zülmə qarşı üsyankaram, əzilsəm də, SUSMARAM!!!

Məzahir Axundov legionerlər üçün təsis olunan "III dərəcəli Bürünc medal"a layiq görülüb. 1943-cü ilin axırında musiqi taqımı azərbaycanlı legionerlərin qalan hissəsi ilə birlikdə Fransaya köçürülüb. 1944-cü ilin martında Daşqın yenidən təşkil edilmiş mədəniyyət şöbəsinin rəhbəri seçilib. 1944-cü ilin mayında o, təhsilini təkmilləşdirmək məqsədi ilə Potsdam təbliğat məktəbinə göndərilib və həmin ilin dekabrında ona alman ordusunun feldfebel rütbəsi verilib. Müharibənin sonlarına yaxın İtaliyanın Pyaçenza şəhərində çıxan "Bizim döyüş vərəqəsi" mətbu orqanı ilə əməkdaşlıq edib.

Böyük Vətən müharibəsi başa çatanda Məzahir Daşqın öz xahişi ilə Vətənə qayıtmaq arzusunda olduğunu bildirir, 1946-cı ildə əsirlikdən xilas olur. Yeganə arzusu doğma kəndini və anasını görmək idi.

Çox təəssüf ki, vətənə qayıdan Məzahir Daşqına nə anasını, nə də kəndini görməyə imkan vermirlər. Evlərinə çatmağa az qalmış onu yenidən həbs edib Mingəçevirə, sonra Bakı həbsxanasına, oradan da əvvəlcə Qorki vilayətinə, daha sonra Sibirə göndərirlər. 23 iyul 1956-cı ilə qədər Sibirdə sürgündə olur.

Məzahir Daşqın sürgündə olarkən Səməd Vurğunla Aleksandr Fadeyev böyük çətinliklə onu axtarıb tapmışdılar və bu görüş sürgündə əsir həyatı yaşayan şair üçün böyük səadət idi. Bu görüşdən sonra onun yaşamaq həvəsi özünə qayıdır. Onun sürgündən azad edilməsində Səməd Vurğunun böyük rolu olub. Səməd Vurğun ona "Aşıq qardaşıma" adlı şeir də yazıb. Deyilənə görə Sibirdən birdəfəlik xilas olub Vətənə qayıdan Məzahir Daşqın birbaşa Yazıçılar Birliyinə gəlib Səməd Vurğunu xəbər alır. Aldığı xəbərdən sarsılır. Səməd Vurğun artıq bir neçə ay idi ki, dünyadan köçmüşdü...

Məzahir Daşqın Vətənə qayıtdıqdan sonra Azərbaycan Respublikası xalq yaradıcılığı evində ştatdankənar metodist, ömrünün sonunadək isə Gəncə rayonlararası xalq yaradıcılığı evində folklor şöbəsinin müdiri vəzifələrində çalışıb. 1979-cu il oktyabrın 31-də vəfat edib və Borsunlu kəndində dəfn olunub.

O, xalq tərəfindən sevilirdi, şeirləri dillər əzbəriydi. Elə bir el şənliyi olmazdı ki, orda Məzahir Daşqının şeirləri oxunmasın. Onun yazdığı qoşma, təcnis, gəraylı, divani, qəzəl, müxəmməslər xalq ruhundan qaynaqlanırdı və ona görə də sadə insanlar bu el şairinin şeirlərini sevə-sevə oxuyurdular.

Bu yazını yazmazdan əvvəl onun əsərlərinin təbliği ilə məşğul olan yaxın qohumu, özü də bədii yaradıcılıqla məşğul olan Mübariz Dözümlü ilə görüşdük. Mübariz müəllim 2009-cu ildə Məzahir Daşqının 100 illik yubileyinin keçirilməsinə nail olub, onun əsərlərini nəşr etdirib, ona "Dəyanət" adlı böyük poema həsr edib. Nizami Muzeyində "Məzahir Daşqın" Fondunun yaradılması birbaşa onun əməyinin nəticəsidir.

Məzahir Daşqın dünyadan incimiş adamların şairi idi...

Unutsaq unudularıq

Musa NƏBİOĞLU

EL YADDA SAXLAMAZ EVDƏN GEDƏNİ....

Səhər tezdən idi. İşə təzəcə gəlmişdim. Mobil telefonuma zəng gəldi. Telefonun ekranında Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Rəşad müəllimin adı yazılmışdı. Onunla tez-tez zəngləşdiyimizdən düşündüm ki, belə tezdən zəng etməkdə yəqin işlə əlaqədar nəsə deyəcəkləri var. Amma Rəşad müəllimin səsindəki kədər bu fikrimi alt-üst etdi. Onun hüznlə – "Bu gecə Aşıq İslam həlak olub", – deməsi isə məni sanki şoka salmışdı. Doğrudur, ölüm xəbəri təzə xəbər deyil. Hər birimiz doğulduğumuz gündən ölümümüzə doğru yol getmirikmi?! Allahın bizə bəxş etdiyi ömür adlı zaman kəsimi beşikdən məzara gedən yolumuz deyilmi? Xalq şairi Zəlimxan Yaqub demiş, bu dünyadan köçəndə hər birimiz torpağın ömrünə calamaq üçün bir parça ömür aparırıq:

Keçib gedir ömrümüz yuxu kimi, duş kimi,
Axırda tabut kimi qonuruq çiyinlərə!

Ancaq bu xəbər o xəbərdən deyildi. Daha doğrusu, vaxtsız ölüm xəbəri idi:

Səndə ətək, məndə əl,
Adın amansız əcəl.
Gəlirsən vaxtında gəl,
Vaxtsız döymə qapımı!

Ani xəyaldan məni yenə Rəşad müəllimin telefonun o başından gələn səsi ayırdı: Qobustana, hüzrə gedirəm. Ondan xahiş etdim ki, məni də götürsün.

Hüzrdəki izdihamı görəndə yenə Zəlimxan Yaqubun misraları yadıma düşdü:

El yadda saxlamaz evdən gedəni,
İnsan əzizlənər eldən gedəndə.

Qobustanlılar, ətraf bölgələrdən gələnlər, yaxınları, sənət dostları İslamı son mənzilə yola salırdılar. Biz də Aşıq İslama Allahdan rəhmət, yaxınlarına səbir dilədik.

Artıq Aşıq İslamın ölümündən bir ilə yaxın vaxt keçir. Və onun dəfn mərasimində doğmalarına deyə bilmədiklərimi indi demək istəyirəm. Demək istəyirəm ki, Aşıq İslam, ustad sənətkarımız Əhliman Rəhimov demiş, sənət bağçasında, sənət bağında təzəcə açılmış gül idi və o, təkcə sizdən yox, elindən-obasından yox, həm də Azərbaycanımızın hər yerində olan çoxsaylı dostlarından, on minlərlə pərəstişkarlarından getdi. İslamın vaxtsız ölümü Azərbaycan aşıq sənətinə böyük itki oldu. İstedadlı, gənc olmasına baxmayaraq, kifayət qədər tanınmış, bir sənətkar kimi şöhrət qazanmış və gələcəyinə böyük ümidlər bəslənilən bir sənət adamını itirdik. Bu gün o, sadəcə cismən aramızda yoxdur, ruhu isə bizimlədir. İslam kimi oğullar heç zaman ölmür – dünyasını dəyişir, ölməzliyə qovuşur.

Nə qədər ki, qədirbilən xalqımız var, ölməz aşıq sənəti var, Aşıq İslam da yaşayacaq. Azərbaycan Aşıqlar Birliyi isə həm onun, həm də özü kimi dünyasını vaxtsız dəyişmiş atası Aşıq Rzanın xatirəsini zaman-zaman onların adlarına layiq tədbirlərlə yad edəcək, hər zaman əziz tutacaqdır.

Allah hər iki sənətkarımıza rəhmət eləsin!

SÜCAƏT

SƏN AĞLAMA,
MƏN AĞLARAM

Əsir vətən, həzin-həzin,
Sən ağlama, mən ağlaram.
Sürünürük dizin-dizin,
Sən ağlama, mən ağlaram.

Yanmışamsa, külüm hanı,
Obam hanı, elim hanı?
Axı, belə zülüm hanı?
Sən ağlama, mən ağlaram.

Biz yanmadıq, hamı yandı,
Biz sınmadıq, hamı sındı.
Qızım, sənin nə vaxtındı –
Sən ağlama, mən ağlaram.

Yazın gedər, qışın qalmaz,
Ağlın çaşar, huşun qalmaz.
Mən ölənə yaşın qalmaz,
Sən ağlama, mən ağlaram.

Sücaətəm, dostum qəmdi,
Görürsənmi, gözüm nəmdi.
Ağlamaq mənim peşəmdi,
Sən ağlama, mən ağlaram.

KƏLBƏCƏRİ
HARDAN ALIM

O dağları bəzəməyə,
Ləli-zəri hardan alım?!
Soldu-getdi çiçəklərim,
Təzə-təri hardan alım?!

Olmuşuq lal, olmuşuq kar,
Susub nəğmə, kiriyib tar.
O nəğməkar, o bəstəkar,
Xan Tərtəri hardan alım?!

El düşübdü pərən-pərən,
Zülüm nə vaxt bitər görən?!
Göy çəməndə süfrə sərən,
Xeyri-şəri hardan alım?!

Tikanlıqda gül gəzirsən,
Sızqalardan sel gəzirsən,
Qədirbilən el gəzirsən,
Kəlbəcəri hardan alım?!

Sücaətəm, döndüm aha,
Ümid qalıb bir Allaha.
Dəli könül, sorma daha,
O günləri hardan alım?!

GECƏLƏR

Gedənləri anda verib, yolundan
Saxlayıram, yatmıram ki gecələr.
Düz altmış min göz-göz olan yaranı
Bağlayıram, yatmıram ki gecələr.

Yurd-yuvamız viran olub, talanıb,
Bulaqların nəğməsi də bulanıb.
Addım-addım o dağları dolanıb,
Yoxlayıram, yatmıram ki gecələr.

Çox yanmışam, olmamışam belə mən,
Dərd çəkməyə yaranmışam elə mən.
Gah dönürəm aşıb-daşan selə mən,
Çağlayıram, yatmıram ki gecələr.

Fələk dərdi sinəmizdə oturub,
Sücaətin ahın göyə çatırdıb.
Balaları gülə-gülə yatırdıb,
Ağlayıram, yatmıram ki gecələr.

ÇAĞIRIR

Ay Kəlbəcər eli, qeyrət vaxtıdır,
Vətən oğul deyib sizi çağırır.
"Yanıq Kərəmi"yə bürünüb qalan,
O Dədə Şəmşirin sazı çağırır.

Nəğmə donub bulaqların dilində,
Rəngi solub çiçəyin də, gülün də.
Düşmən süngüsündə, düşmən əlində,
Çırpınan gəlini, qızı çağırır.

Dərdləri saymayaq, dərdimiz çoxdu,
Sücaət, çatıbdı intiqam vaxtı.
Bizim dayanmağa haqqımız yoxdu,
Tək qalan məzarlar bizi çağırır.

DAĞLARDA QALDI

Sinəmizdən dəlindik,
Sıralardan silindik.
Seyrəldikcə bölündük,
Sıxım dağlarda qaldı.

Üzüm qürbətə düşdü,
Sözüm qürbətə düşdü.
Azım qürbətə düşdü,
Çoxum dağlarda qaldı.

Hayım sinəmdə gəldi,
Vayım sinəmdə gəldi,
Yayım sinəmdə gəldi,
Oxum dağlarda qaldı.

Nə bu göldə batmıram,
Nə sahilə çatmıram.
Yeddi ildi yatmıram,
Yuxum dağlarda qaldı.

Qarım dağlarda qaldı,
Barım dağlarda qaldı,
Varım dağlarda qaldı,
Yoxum dağlarda qaldı.

Dağıldı obam, elim,
Doğrandım dilim-dilim.
Heç nəyim – üstəgəlim,
Çıxım dağlarda qaldı.

DAĞLAR

Sizsiz keçən ömür nədi,
Həsrət bizi didib yedi.
Dörd-beş yekəbaşın vədi,
Yalan oldu, yalan, dağlar.

Nə sağlamdı, nə xəstədi,
Həsrəti dəstə-dəstədi.
Gəzə-gəzə can üstədi,
Sənin şair balan, dağlar.

Sücaətdi ismim, adım,
Sındım, amma qırılmadım.
Torpağına qarışmadım,
Mənə layla çalan dağlar.

“SARITEL”DİMİ BU?

Pərdə yandı, tel titrədi,
Aşıq, “Sarıtel”dimi bu?
Çal ağlasın, çal ağlayım,
Perik düşən eldimi bu?

Bir obayıq, varı gedən,
Dostu küsən, yarı gedən.
O dağlara sarı gedən,
Qəribsəmiş yoldumu bu?

Günəş çıxdı, duman çökdü,
Tufan qopdu, leysan tökdü.
Ooy... nə sərin doğma mehdi,
Kəlbəcərdən gəldimi bu?

Onda aman, ah ağlayır,
Bir şah oğlu, şah ağlayır.
Gah hayqırır, gah ağlayır,
Ağadımı, quldumu bu?

Dərdin qalaq-qalaqdımı,
Barmağından qan axdımı?
Pıçıldayan bulaqdımı,
Şaqqıldayan seldimi bu?

ÖMÜR VƏFA ETSƏYDİ...

Ənvər İsmayıl oğlu Rzayev 1939-cu ildə Kəlbəcər rayonunun Aşağı Ayrım kəndində dünyaya gəlib.

Qoynunda dünyaya göz açdığı təbiəti sehirli, sazlı-sözlü Kəlbəcər, bu yurdun uca dağları, gül-çiçəyə bürünmüş xalıya bənzər düzənləri, ümumiyyətlə, bu yerlərin hər qarışı Ənvər Rzanın ilham mənbəyi olub. Ə.Rza şeirlərində reallıq, saflıq, məhəbbət, mərhəmət, qəlbdən süzülüb gələn ən saf duyğular hakimdir. Onun şeirlərində sözlər yerində, zamanında qədərincə deyilib. Elə bu amillər əsl oxucu, dinləyici sevgisini Ə.Rzaya qazandırdı. Müxtəlif vaxtlarda çıxan "Könlümə bahar düşüb", "Nə yaxşı görüşdük, nə yaxşı yenə", "Bəxtəvər dustaq adlı şeir kitablarında" Ə.Rza adını Azərbaycan poeziya sənətində vara biləcəyi məkana çatdıran, oxucuların dil əzbərinə çevrilən onlarla poeziya nümunələri vardır. O, həmişə haqq ədalət tərafdarı olub, yalana riyakarlığa göz yummayıb. Ölümündən sonra işıq üzü görən "Bəxtəvər dustaq" adlı şeirlər kitabına yazdığı ön sözdə Məmməd Aslan deyir: "Onun şairlik ideyaları duruluğa, təmizliyə, iman işığında həqiqət axtarmağa xidmət edir".

Ənvər Rza şair olmaqla bərabər, həm də çox gözəl tərcüməçi idi. İngilis poeziyasının orijinaldan Azərbaycan dilinə tərcüməsi üzrə ən öndə gedən mütəxəssislərdən biri olub. Ədəbi ictimaiyyət tərəfindən onun Şekspirdən, Bayrondan, Şellidən, Robert Bernsdən etdiyi tərcümələr çox böyük rəğbətlə qarşılanıb.

Ənvər Rzanın sağlığında və ölümündən sonra onunla bağlı mətbuatda dərc olunan yazılarla tanış olarkən, onun necə dəyərli bir insan, xalq üçün böyük ziyalı, olduğunu bir daha anladım. Yaralı qəlblərin məlhəmi olan şeirlər yazmaq, tərcümələr etmək, elmi yaradıcılıq axtarışları aparmaq, pedoqoji fəaliyyət və nəhayət insanların sevimlisi olmaq – bütün bunları qısa ömür yoluna necə sığdıra bildin, Ənvər Rza?!

Ömür vəfa etsəydi, 1987-ci ildə qırılmasydı bu yola daha böyük önəm sığdıra bilərdin. Həyat yolun qısa olsa da, mənalı və şərəfli bir ömür yaşadın. Sənli günlərdən bu günə çox şey dəyişib. Dəyişməyən isə səni sevənlərin qəlblərində ucaltdığı Ənvər Rza heykəlidir.

Ənvər Rzanın şeirləri aşıqlarımız tərəfindən də böyük məhəbbətlə oxunur. Onun şeirlərindən bir neçəsini "Ozan dünyası"nın oxucularına təqdim edirk.

Qorxmaz TOFİQOĞLU

Ənvər RZA

DƏLİDAĞ LÖVHƏLƏRİ

Dolanmaz bir qərib, bir naşı burda;
Göyün göz yaşında hər ay çimənəm.
Düşüb yazla qışın savaşı burda,
Bu qızmış nərlərə harayçı mənəm.

O kövşən geyinib nənələrsayaq,
Büzməsi çarpazlı, qırçın-qırçındır.
Necə də babama oxşayır o dağ,
Bulud – çiynindəki ala xurcundur.

Bayaqdan gözlərim zillənib göyə –
Bir görün nə boyda çadır qurublar!
Küləkdə, tufanda uçmasın deyə
Altına dağlardan dirək vurublar.

Güney körpə otdan bir hana qurub,
Quzeyi özünə yançı tutubdur.
Dağda ucalığı, vüqarı görüb,
Dərədə dumanı sancı tutubdur.

KƏLBƏCƏRƏ GEDƏN YOLLAR

Yazda əriş-arğac olur
Kəlbəcərə gedən yollar.
Köçdə örüş, arxac olur
Kəlbəcərə gedən yollar.

Cürət yeyib, tər üyüdür;
Dağ nənnisi, yüyrüyüdür,
Dəlidağın hörüyüdür
Kəlbəcərə gedən yollar.

Tələsini salar bəndə,
Haçalanar neçə kəndə,
Düşməni azdırar çəndə
Kəlbəcərə gedən yollar.

Bu nə əsrar, bu nə fənddir?
Göy üzündə daş kəmənddir,
Şəmşir yazan qıfılbənddir
Kəlbəcərə gedən yollar.

Min bulaqdan içib gedir,
Qayaları biçib gedir,
Ürəyimdən keçib gedir
Kəlbəcərə gedən yollar.

İSTƏMİRƏM QONAQ OLAM DAĞLARA

Ayağında bir balaca yer verə,
Başmaq olam, dolaq olam dağlara.
Ya da çəkib sinəsində cücərdə,
Palıd olam, qovaq olam dağlara.

Yaddaşımı xatirələr kötəklər,
Yaddaşımda pöhrələnər kötüklər.
Qayıdanda yol verməyə gədiklər,
Bi bəxtəvər dustaq olam dağlara.

Çaşqın dövran əməlini azdımı?
Daş kitaba qanla tarix yazdımı?
Kövrəltmərəm, özcə dərdi azdımı,
Bir yandan da mən dağ olam dağlara?!

Dağlar oğlu, dağa qoyma yağını!
Aldatdılar, uzaq sandıq yaxını.
Əritmişəm ürəyimin yağını –
Ay batanda çıraq olam dağlara.

Könül, eylə duyduğunu saf-çürük,
Bu dağlardan ayrı keçən ömür – yük.

Bir yer versin balasına ömürlük,
İstəmirəm qonaq olam dağlara.

GEDİRƏM

Dincəldim o ki var, gəzdim o ki var;
Cənnəti gözümlə görüb gedirəm.
Nigaran qalmışdım öz ilhamımdan,
Köksümü şeirlə hörüb gedirəm.

Qızların gözündən ocaq, od istə,
Kirpiklər nə əcəb yanmır od üstə?!
Qaraxal lalənin yaşıl ot üstə
Qanlı köynəyini sərib gedirəm.

Çapdım ilhamımı mən at yerinə,
Min köhlən yerinə, min at yerinə.
Həsrət qollarımı qanad yerinə
Zirvədən zirvəyə gərib gedirəm.

Bulaqlar ağzımı balla yaxadı,
Daşların ürəyi necə yuxadı.
Vüsalım hicranla əlbəyaxadı,
Qərib gəlməmişdim, qərib gedirəm.

Çayların yaxası məxmər səməni,
Nazladım, oxşadım çölü, çəməni.
Dağlar xəbər tutsa, buraxmaz məni,
Dağları yuxuya verib gedirəm.

GƏLMİŞƏM

Dağlar elsiz, çöl tütəksiz, çəmən lal;
Mən bu dərdi oxlamağa gəlmişəm.
Yazda nə var, yaylaqların payızda
Vəfasını yoxlamağa gəlmişəm.

Gözləşirəm bulaqların gözüylə,
Dolaşıram ötən çağın iziylə.
Bu gəlişin, bu vüsalın gözüylə
Həsrətimi dağlamağa gəlmişəm.

Susuz yurdum tək məcməyi, tək sini,
Şair kimi sözlə hörüb köksünü,
Gözlə çəkib bu dağların əksini,
Ürəyimdə saxlamağa gəlmişəm.

Göy təpələr sarı örpək bürünür,
Duman, çiskin ayağıma sürünür.
Ata yurdu, qardaş yeri görünür,
Bir xəlvətcə ağlamağa gəlmişəm.

Naxış olub biçinçinin hər vəri,
Qızıl payız ilhamımın sərvəri.
Xəzan vaxtı bahar bilin Ənvəri,
Dağ çayıyam, çağlamağa gəlmişəm.

NƏ YAXŞI GÖRÜŞDÜK, NƏ YAXŞI, YENƏ

Kəndin hər nemətdən yenə var payı –
Qayanın kəkotu, dağın qar payı...
Uzanıb yatdığım çəmən çarpayı,
Nə yaxş görüşdük, nə yaxşı, yenə.

Xəyalım buludtək burdan ötəndir,
Soruş: “Saçındakı bu dən nə dəndir?”
Yanmayıb qəlbimi yandıran təndir,
Nə yaxşı görüşdük nə yaxşı, yenə!

Hər yan cənnət olar, qəşəng baxsalar,
Bağban can yandırsa, qəşəng bağ salar.
Ay qəşəng həyətlər, qəşəng bağçalar,
Nə yaxşı görüşdük, nə yaxşı, yenə!

Bu da “yəhərləyib” mindiyim boz daş,
Kövrəlmə, ürəyim, tab gətir, tablaş.
Ömrümün ləzzəti a köhnə dam-daş,
Nə yaxşı görüşdük, nə yaxşı yenə!

Vurğundur bu yala, yamaca Ənvər,
Meyl edər yarpıza, umaca Ənvər!
Ay quzu otaran balaca Ənvər,
Nə yaxşı görüşdük, nə yaxşı yenə!

HASARLI

Ay Hasarlım, hasarlanıb aramız,
Nə gileyli baxışların var sənin!
Sinəmdəki həsrətimi silməyə
Gurşad-gurşad yağışların var sənin.

Çək buludu, götür göyün damından;
Yağış umsan, kölgə umsan, um ondan.
Səhər-səhər şeh qoxulu dumandan
Tala-tala naxışların var sənin.

Gəlmişəm ki, oda salım firqəti,
Getdi yoxdu! Fikrim, sözüm ta qəti.
Sınamağa dizimdəki taqəti,
Köhlənyoran yoxuşların var sənin.

Qınağınla cız sinəmi, cız, ha cız!
Onsuz da mən qovrulmuşam cızhacız.
Sən möcüzə, məndə qələm, təb aciz,
Nə yazların, nə qışların var sənin!

Könül səni haraylar da, dilər də,
Gündə min yol dirilər də, ölər də.
Ənvər kimi uzaq-uzaq ellərdə
Bilirsənmi naxoşların var sənin?

BƏNZƏMƏZ

Aşıq Alı necə qıyıb bənzədib? –
Özgə yaylaq bu yaylağa bəzəməz.
Ovçu olub, qarış-qarış gəzmişəm,
Özgə ovlaq bu ovlağa bənzəməz.

Yazda çəni, qışda qarı kürk elər,
Yayda suyu buz bağlayar, görk elər.
Durna kimi cərgələnib Cərgələr,*
Özgə dağlar bizim dağa bənzəməz.

Güneyləri kəklikotu qoxuyur,
Quzeyləri xalça, kilim toxuyur.
Bulaqları "Dodaqdəyməz" oxuyur,
Özgə torpaq bu topağa bənzəməz.

Yaranıbdır yerlə göyün mehrindən,
Doymamışam səfasından, seyrindən.
Dağlanmışam qəribliyin qəhrindən,
Özgə sitəm belə dağa bənzəməz.

Ənvər təşnə, susuz könlü sulanmır,
Xəyal burdan qeyri yerdə dolanmır.
Bicə dəfə çamırlanmır, bulanmır-
Özgə bulaq Gurbulağa** bənzəməz.

**Kəlbəcərdə dağ adıdır.*
***Kəlbəcərdə bulaq adıdır.*

HÜSEYN ƏMİNİN ARZUSU

Göyçəli Hüseyn Həsənov günlərin bir günündə Aşıq Ələsgər muzeyini yaratmaq qərarına gəlir. Ürəyinin istəyi ilə başladığı işə ömrünün nə az, nə çox – düz 10 ilini sərf edir. Nəticədə çox nadir və maraqlı muzey yaratmağa nail olur.

Bakının Nərimanov rayonunda Atatürk prospekti, bina 37, mənzil 75 ünvanında yerləşən Aşıq bu muzeydə bizi hər kəsin "Hüseyn əmi" deyə müraciət etdiyi 86 yaşlı Hüseyn Həsənov qarşıladı, sonra da zaman-zaman xalqın yaddaşına, ruhuna hopan haqq aşıqlarının, el aşıqlarının səliqə ilə divarlardan asılmış fotoşəkilləri... Beş otaqdan ibarət olan bu şəxsi muzeyin dörd otağını Dirili Qurbanidən üzü bu yana ustad sənətkarların xəyali çəkilmiş rəsmləri, yaxın keçmişimizdə yaşamış aşıqların fotoşəkilləri bəzəyir. Bir otaqda isə səs yaddaşımız olan vallar, valları işlətmək üçün qədim qrammofonlar, patefonlar yer alır.

Başdan-başa aşıq dünyası olan bu muzey əslində sadə bir göyçəlinin reallaşan arzusudur. Muzeyin yaradıcısı ilə bir az yaxından tanış olun.

Hüseyn Hacı Qulu oğlu Həsənov 1927-ci ildə Göyçə mahalın Ardanış kəndində anadan olub. Özü demişkən, o ağır illərdə cəmi-cümlətanı beş sinif oxuyub. Yeni qurulan şura hökuməti onların ailəsinə də xoşbəxtlik gətirməyib. Eldə-obada qoçaqlığı ilə ad qazanan Hacı Qulu kəndin ağsaqqalı olduğundan 1931-ci ildə həbs olunub. Bir neçə ildən sonra həbsdən azad olsa da, çox yaşamır. Ailəsinə vəsiyyət edir ki, köçüb Gədəbəyin Arıqıran kəndinə getsinlər. Hacı Qulunun ölümündən 6 il sonra ailə həmişəlik Gədəbəyə köçür. Ancaq illər Göyçə dərdini bu ailəyə unutdura bilmir. Ömrünü sürücülük sənətinə bağlayan Hüseyn kişi 10 övlad, 30-dan çox nəvə-nəticə sahibi olsa da, heç nə Göyçə ilə bağlı uşaqlıq xatirələrini qəlbindən silə bilmir.

Deyir ki, uşaq olanda atamdan-anamdan eşitmişdim ki, babam Məşədi Həsən Aşıq Ələsgərin yaxın dostu olub. Dəfələrlə Aşıq Ələsgər babamın, atamın evində qonaq olub. Aralarındakı bu hörmət-izzət uzun illər davam edib. Ancaq vaxt gəlib ki, erməni fitnəsi öz işini görür, göyçəliləri Göyçədən ayır salır, Aşıq Ələsgər mahalı boş qalır.

Dünyanın azını-çoxunu görən Hüseyn kişi ömrünün ahıl çağında, özü demişkən, Göyçənin günəşi Aşıq Ələsgərin ev muzeyini yaratmaq qərarına gəlir:

- Ələsgər bir şeirində deyir ki, fil götürə bilməyən dərdi mən necə çəkim? Ələsgər sənəti ilə Göyçəni bütün dünyaya tanıtdı, mən balaca adam olsam da, o torpağın oğluyam, göyçəliyəm. Aşıq Ələsgərin muzeyini ona görə yaratdım ki, Aşıq Ələsgərin eli, mahalı Göyçədə qalıb. Aşıq Ələsgərin heç olmasa burda evi, ocağı olmalıdır ki, aşıq sənətini sevənlər o ocağa üz tutsunlar. Dedim, hansı çətinliklər bahasına olursa-olsun, bu yükü çiyinlərimdə daşıyacağam. 2001-ci ildən Azərbaycanı qarış-qarış, şəhər-şəhər, kənd-kənd, el-el, ev-ev gəzmişəm, soraqlamışam, deyiblər filan kənddə, filankəsdə bir şəkil var, onun sorağı ilə gedib, o şəkli axtarıb tapmışam.

Belə-belə Hüseyn əmi ustad aşıqların fotoşəkillərini, xəyali çəkilmiş rəsmlərini, küncdə-bucaqda it-bata düşən aşıqların lent yazılarını, aşıqlarla bağlı kitabları axtarıb-arayır. Azərbaycan aşıq sənətində tarixə düşmüş 2 minə yaxın aşığın fotoşəkilini, 650 ədəd aşıq qrammofon vallarını, 3 qrammofon, 4 patefon, aşıqların, şairlərin 500-dək kitabını əldə edir. Bu işdə ona xeyirxah insanlar da əl tutur.

Dekabrın 14-ü Hüseyn Həsənovun 86 yaşı tamam oldu. Sadə bir ömür yaşasa da, Hüseyn əmi həyatda çox arzularına çatıb. Aşıq Ələsgər muzeyi də onun arzularından biridir. Deyir ki, mən bu muzeyi özüm üçün yox, xalq üçün yaratmışam. Çox istəyirəm ki, muzeyə rəsmi status verilsin. Aşıq Ələsgər saz-söz sənətinin zirvəsidir, bu muzey də aşıqların daimi ocağı olsun.

Yaxşı arzular gec-tez reallaşır. Hüseyn əmiyə bu arzusunun da həyata keçməsini arzulayır və aşıq sənətini sevənləri bu muzeyə dəvət edirik.

V.Tərana

OZAN DÜNYASINDAN SORAQLAR

"AŞIQ SƏNƏTİNƏ DÖVLƏT QAYĞISI" MÖVZUSUNDA DƏYİRMİ MASA KEÇİRİLDİ

Oktyabrın 28-də Mirzə Fətəli Axundzadə adına Milli Kitabxanada Azərbaycan Aşıqlar Birliyinin (AAB) təşkilatçılığı ilə "Aşıq sənətinə dövlət qayğısı" mövzusunda dəyirmi masa keçirildi. Giriş sözü ilə tədbiri açan Milli Kitabxananın direktoru **Kərim Tahirov** çıxışının əvvəlində oktyabrın 9-da respublikamızda keçirilən prezident seçkilərindən danışaraq qeyd etdi ki, möhtərəm Prezidentimiz İlham Əliyevin böyük səs çoxluğu ilə yenidən bu vəzifəyə seçilməsi ona olan ümüumxalq məhəbbətinin təcəssümü, yeritdiyi daxili və xarici siyasətə inamın təsdiqidir. O, vurğuladı ki, son on ildə mədəniyyətimizin digər sahələri kimi, aşıq sənətinə də böyük dövlət qayğısı var və bu qayğının nəticəsidir ki, bu gün aşıqlarımızın sorağı dünyanın ən mötəbər salonlarından gəlir.

Xalq şairi, Azərbaycan Aşıqlar Birliyinin sədri **Zəlimxan Yaqub** cənab İlham Əliyevi yenidən ölkə başçısı seçilməsi münasibəti ilə təbrik etdi, aşıq sənətinin dünəni və bugünündən söhbət açdı, son illərdə aşıq sənətinə göstərilən qayğıdan və qarşıda duran vəzifələrdən söhbət danışdı. Professor **Məhərrəm Qasımlı** bu ilin sentyabrında Gədəbəydə Aşıq Musiqisi Məktəbinin açılışında ölkə başçısı İlham Əliyevin iştirakını bu sənətə qayğının bariz nümunəsi adlandırdı.

Tədbirdə həmçinin professorlar **Qəzənfər Paşayev** və **İsmayıl Məmmədli,** şair **İlyas Tapdıq**, filologiya elmləri namizədi **Elxan Məmmədli**, Prezident təqaüdçüsü, ustad aşıq **Mahmud Məmmədov**, "Ozan dünyası" jurnalının baş redaktoru **Musa Nəbioğlu,** öz evində Aşıq Ələsgər adına aşıq muzeyi yaratmış **Hüseyn Həsənov**, saz ifaçısı, sənətşünaslıq namizədi **Fəzail Miskinli** və başqaları da çıxış edərək son illərdə aşıq sənətinə dövlətin və Heydər Əliyev Fondunun göstərdiyi qayğıdan danışdılar.

AŞIQ İMRAN HƏSƏNOVUN 85 İLLİK YUBİLEYİ QEYD OLUNDU

Noyabr ayının 4-də R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında Əməkdar Mədəniyyət işçisi, ustad aşıq **İmran Həsənovun** anadan olmasının 85 illik yubileyi qeyd olundu. Professor Məhərrəm Qasımlının aparıcılığı ilə keçən gecəni giriş sözü ilə açan Xalq şairi, Azərbaycan Aşıqlar Birliyinin sədri **Zəlimxan Yaqub** İmran Həsənovun XX əsr Azərbaycan aşıq sənətindəki mövqeyindən danışdı, onunla bağlı xatirələrini dilə gətirdi, bir sənətkar kimi əvəzolunmazlığını vurğuladı. Daha sonra folklorşünas alim **Elxan Məmmədli**, şair **Musa Ələkbərli** və **Fəzail İsmayıl** ustad aşıqla bağlı xatirələrini söylədilər.

Aşıqlardan Prezident təqaüdçüsü Mah**mud Məmmədov**, cənubdan gəlmiş aşıq **Səlcuq Şahbazi,** Əməkdar Mədəniyyət işçiləri **Əhliman Rəhimov, Ədalət Dəlidağlı** və **Sərdar Məmmədov, Telli Borçalı, Ramin Qarayev, Altay Məmmədli, Qələndər Zeynalov, Bəhmən Göyçəli, Məhərrəm Hüseynli, Vüqar Mahmudoğlu, Nəbi Nağıyev** və digərlərinin ifasında Aşıq İmran Həsənovun şeirləri səsləndirildi. Tədbirin sonunda göstərilən videolent isə tamaşaçıları bir anlıq da olsa İmranlı günlərə qaytardı, Aşıq İmranın Koroğlu nərəli səsi salonu ağuşuna aldı.

Tədbirin sonunda ustadın oğlu Firdovsi Həsənov ustadın ailəsi adından yubiley tədbirinin təşkilatçılarına minnətdarlığını bildirdi.

Xatırladaq ki, İmran Mehralı oğlu Həsənov 1928-ci ildə Göyçə mahalının Ağbulaq kəndində anadan olub, sonradan Tovuz rayonunda yaşayıb. Sənətin sirlərini əvvəlcə əmisi aşıq Dünyamalıdan, sonar isə Məhərrəm Hacıyevdən öyrənib.

Azərbaycan aşıqlarının III və IV qurultaylarının nümayəndəsi olan Aşıq İmran bir sıra ölkələrdə beynəlxalq festivallarda iştirak edərək vətənə mükafatla qayıdıb.

Klassik aşıq yaradıcılığının mahir bilicisi olan Aşıq İmran həm də bədii yaradıcılıqla məşğul olub. Yubiley ərəfəsində onun “Sənətimin sultanıyam” adlı şeirlər kitabı da işıq üzü görüb.

Aşıq İmran Həsənov 2000-ci ildə vəfat edib.

AŞIQ ƏKBƏRİN 80 İLLİK YUBİLEYİ TOVUZDA QEYD OLUNDU

Noyabrın 12-də Tovuz rayon Mədəniyyət evində ustad aşıq, Əməkdar mədəniyyət işçisi Əkbər Cəfərovun 80 illik yubileyi münasibətilə düzənlənən tədbir saz-söz sənəti xiridarlarının sənətkar haqqında xoş xatirələri, canlı ifaları və dəyərli fikirləri ilə yadda qaldı. Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Aşıqlar Birliyi və Tovuz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən tədbirin aparıcısı filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev öncə sənətkar haqqında düşüncələrini iştirakçılarla bölüşdü. Bildirdi ki, Əkbər Cəfərov ifası, sazı, sözü ilə daima yaddaşlarda yaşayacaq ustad aşıqdır.

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov qonaqları və tədbir iştirakçılarını tovuzlular adından salamladı və qeyd etdi ki, aşıq Əkbərin bir çox məclislərində iştirak edib: «Aşıq Əkbər dünyasını qələmə almaq üçün hələ çox sözlər deyiləcək. Aşıq Əkbər fəlsəfəsi böyükdür, o heç vaxt xalqın yaddaşından silinməyəcək. Allah-təalanın ona verdiyi fitri istedad onu əbədi yaşadacaq».

Tədbir Tovuz aşıq məktəbinin yetirmələrindən olan Firudin Hüseynov, Elməddin Məmmədov və Şəhriyar Qaraxanlı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, aşıq Samirə Əliyeva, aşıq Hakim Azaflı, Əli Quliyev, Şirvan aşıq məktəbinin yetirməsi Əli Taptıqoğlu, Göyçə məktəbinin yetirməsi Şöhrət Kərimov, Əkbər Cəfərov sənətinin davamçısı, kiçik oğlu Cahandar Cəfərovun rəhbərliyi ilə gənc aşıqlar ansamblının, Tovuz rayon Mədəniyyət evinin nəzdində fəaliyyət göstərən «Misri» ansamblının bir-birindən maraqlı ifaları ilə davam etdi.

Aşıq Əkbər sovet dövründə kitabı nəşr edilən az sayda sənətkarlardan olub. Həmin dövrdə onun «İşıqlı tellər», «Saz danışanda» adlı iki kitabı işıq üzü görüb. Dünyasını dəyişəndən sonra 2004-cü ildə Məhərrəm Hüseynli onun haqqında «Aşıq Əkbər oxuyanda» kitabını yazıb. 2009-cu ildə isə sənətkarın şeirlərindən ibarət «Söz qanana qurban olum» adlı kitabı çapdan çıxıb.

AŞIQ ŞENLİK VƏ TÜRK DÜNYASI

Türkiyənin Ərdahan şəhərində türkiyəli saz-söz ustası aşıq Şenliyin ölümünün 100-cü ildönümünə həsr edilmiş beynəlxalq elmi konfrans keçirilib. "Ölümünün yüzüncü ilində aşıq Şenlik və türk dünyası aşıqlar mərasimi" mövzusunda konfransda ölkəmizi AMEA Folklor İnstitutunun "Dədə Qorqud" şöbəsinin əməkdaşı Nailə Əskər təmsil edib. Tədbirdə türk aşıq sənəti və Aşıq Şenliyin yaradıcılığı, sənətkarlığı haqqında məruzələr dinlənilib.

Nailə Əskər "Aşıq Şenlik Azərbaycan araşdırmalarında" mövzusunda məruzə ilə çıxış edib. O, məruzəsində Azərbaycan və Türkiyənin ortaq mənəvi dəyərlərindən biri olan aşığın ölkəmizdə, o cümlədən bütün Qafqazda tanındığını söyləyib.

Konfransda müasir türk aşıq sənətinin nümayəndələri konsert proqramı ilə çıxış ediblər.

"SAZIN-SÖZÜN SEHRİNDƏ"

Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin təşkilatçılığı ilə aşıq Rza Qobustanlı adına mədəniyyət evində ustad aşıq Xanmusa Musayevin anadan olmasının 85 illiyinə həsr edilmiş "Sazın-sözün sehrində" mövzusunda tədbir keçirilib.

Tədbirdə Azərbaycan Aşıqlar Birliyinin sədri, Xalq şairi Zəlimxan Yaqubun ustad aşığa təbrik məktubu oxunub.

Mərasimdə çıxış edən ədəbiyyat, incəsənət xadimləri, aşığın dostları, yetirmələri onun sənətə sevgisindən danışıblar. Bildirilib ki, Şirvan aşıq məktəbinin layiqli davamçısı, neçə-neçə şagirdlər yetirmiş Xanmusa Musayev saz ifaçılığı və səsi ilə xalqın rəğbətini qazanıb. Tədbirdə ustad aşığın şagirdlərinin ifasında el havaları səsləndirilib.

MİLLİ ÇÖVKƏN OYUNUMUZ UNESCO-nun SİYAHISINDA

2013-cü il dekabrın 3-də Bakıda UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasında Azərbaycanın çövkən oyunu UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı Olan Qeyri-Maddi Mədəni İrs Siyahısına salınmışdır.

Sonra Təcili Qorunmaya Ehtiyacı Olan Qeyri-Maddi Mədəni İrs Siyahısına salınmaq üçün təqdim edilmiş nominasiyalar nəzərdən keçirilmişdir. İlk müzakirə edilən nominasiya Azərbaycanın ənənəvi Qarabağ oyunu - çövkən olduğundan iclasa sədrlik edən mədəniyyət və turizm naziri Ə.Qarayevi Braziliya nümayəndəsi əvəz etmişdir.

Komitənin iclasında Azərbaycana aid qovluqda əksini tapmış çövkən oyunu haqqında məlumat verilmişdir. Bildirilmişdir ki, ənənəvi Qarabağ oyunu olan çövkən iki komanda arasında çəmənlikdə oynanılır. At üstündə olan hər komandanın üzvləri taxtadan, yaxud dəridən düzəldilmiş kiçik topu digər komandanın qapısına vurmağa çalışırlar. Bu oyun əslində milli adət-ənənələrdən irəli gəlir və milli mənliyin formalaşmasında böyük rol oynayır.

Bildirilmişdir ki, Komitənin məşvərət şurasının qərarına əsasən, nominasiya müvafiq kriteriyalara uyğun gəlir. Hazırda gənclərdə çövkən oyunu istiqamətində elə də həvəs müşahidə olunmur. Əlbəttə, bu, daha çox urbanizasiya və miqrasiya ilə əlaqədardır. Azərbaycan dövləti tərəfindən bu istiqamətdə maliyyə yardımı göstərilir. Müvafiq sənədlərdə hüququ və təşkilati tədbirlər açıq-aydın görünür. Hesabat yoxlanılmışdır.

Sonra çövkən oyununun UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı Olan Qeyri-Maddi Mədəni İrs Siyahısına salındığı elan edilmişdir.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Azərbaycan hökuməti və xalqı adından Komitəyə, eləcə də UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Konvensiyasının katibliyinə təşəkkürünü bildirmişdir. Diqqətə çatdırmışdır ki, çövkən oyununun beynəlxalq səviyyədə tanınması sevindirici haldır. Çövkən oyununun müvafiq siyahıya daxil edilməsi icmalara bu istiqamətdə öz fəaliyyətlərini daha həvəslə davam etdirmək imkanı verəcəkdir.

Nazir bildirmişdir ki, çövkən oyununun bu siyahıya daxil edilməsi çox mükəmməl bir komanda işinin nəticəsində mümkün olmuşdur. Bu, çövkən oyununun Azərbaycanda qorunmasına və daha yüksək səviyyəyə çıxarılmasına böyük təkan verəcəkdir. Beynəlxalq əməkdaşlıq məsələlərində Azərbaycanın həmişə açıq olduğunu deyən Ə.Qarayev diqqətə çatdırmışdır ki, müvafiq Konvensiya həm də insanları birləşdirməlidir. Ona görə də Azərbaycanın çövkən oyununun UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı Olan Qeyri-Maddi Mədəni İrs Siyahısına salınması bu birliyə çağıran böyük bir qərardır.

"AŞIQ SƏNƏTİNİN TARİXİ İNKİŞAF YOLLARI VƏ AŞIQ ŞƏMŞİR MƏRHƏLƏSİ" MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ KONFRANS KEÇİRİLİB

2013-cü il dekabrın 5-də AMEA-nın Əsas binasında AMEA Folklor İnstitutu və "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyinin birgə təşkilatçılığı ilə Aşıq Şəmşirin anadan olmasının 120 illiyinə həsr olunmuş "Aşıq sənətinin tarixi inkişaf yolları və Aşıq Şəmşir mərhələsi" mövzusunda Beynəlxalq elmi konfrans keçirilib.

Öncə Aşıq Şəmşirin həyat və yaradıcılığını əks etdirən video çarx nümayiş olunub.

Azərbaycan, elecə də Türkiyə, İran, Rusiya və Qırğızıstandan qabaqcıl elm və tədris müəssisələrini, elmi qurumları təmsil edən nümayəndələrin iştirak etdiyi tədbiri giriş sözü ilə AMEA Folklor İnstitutunun direktoru, filologiya üzrə elmlər doktoru Muxtar İmanov açıb. Bildirib ki, tədbirin keçirilməsində əsas məqsəd ustad saz-söz sənətkarı Aşıq Şəmşirin yaradıcılığı fonunda ümumən aşıq-ozan mədəniyyətinə verilən dəyərin elmi-analitik şəkildə gündəmə gətirilməsidir. XX əsrin aşıq sənətinin qüdrətli nümayəndəsi Aşıq Şəmşirin qeyri-adi səsi və çalğısının saz-söz sərrafı olan Kəlbəcər, Göyçə və Qarabağ ellərində yüksək qiymətləndirildiyini bildirən M.Kazımoğlu ustad sənətkarın orijinal ifaçılığı və şairliyindən söz açıb, Şəmşirin aşıq şeirinin müxtəlif poetik formalarında qələmə aldığı nümunələrinin folklor tarixində əvəzolunmaz izlər qoyduğunu qeyd edib. Aşıq Qardaşxan, Qəmkeş Allahverdi, Aşıq Xalıqverdi

kimi saz-söz sənətkarlarının yetkinləşməsində Aşıq Şəmşir məktəbinin əvəzsiz rolu olduğunu söyləyib, aşığın 40-dan artıq şagirdinin olduğunu bildirib.

Ümummilli lider Heydər Əliyevin Aşıq Şəmşirin 110 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması haqqında sərəncamını xatırladan alim AMEA Folklor İnstitutu tərəfindən 2003-cü ildə şairin yubileyinə həsr olunmuş Beynəlxalq elmi konfransın keçirildiyini diqqətə çatdırıb.

Azərbaycan ədəbiyyatında xüsusi rola malik olan Azərbaycan folkloru haqqında məlumat verən AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli ölkəmizin dünyanın ən zəngin folklor sərvətlərinə malik ölkələrdən biri olduğunu bildirib. Qeyd etdi ki, ölkəmizdə aşıq sənətinə həsr olunmuş tədbirlərin keçirilməsi Azərbaycanın milli-mənəvi dəyərlərə verdiyi önəmin göstəricisidir.

İ.Həbibbəyli Aşıq Şəmşirin aşıq sənətini yaşadan və daima onu yetişdirməyə can atan sənətkarlardan olduğunu söyləyib. Bildirib ki, şairin irsi yalnız Azərbaycanın deyil, türk xalqlarının və onlarla eyni mədəni məkanda yaşayan qonşu xalqların da filoloq və musiqişünas alimləri üçün maraqlı və dəyərli tədqiqat obyektidir.

Sonra çıxış edən AMEA Humanitar və İctimai Elmlər Bölməsinin akademik-katibi, AMEA-nın müxbir üzvü Kamal Abdullayev Azərbaycan xalqının folklorda yaşayan tarixinə və tarixi şəxsiyyətlərinə yeni meyarlar müstəvisində nəzər salınması baxımından konfransın önəmliyini vurğuladı. Miskin Abdalın soyundan və Ağdabanlı Qurbanın oğlu olan Aşıq Şəmşirin klassik aşıq şeirinin əksər janr və formalarında mükəmməl nümunələr yaratdığını, 70-dən artıq saz havasını və 20-dən çox dastanı ustad peşəkarlığı ilə ifa etdiyini qeyd edib.

Tədbirdə Abant İzzət Baysal Universitetinin (Türkiyə) bölüm başqanı, elmlər doktoru, professor Əli Yaman, Dağıstan Respublikasının Qarabudaq Kənd Gimnaziyasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru Ruqaniyat Musayeva, Qırğızıstanın Texniki Universitetinin Fəlsəfə və sosial elmlər kafedrasının professoru Talantaali Bakçiyev və başqaları məruzə ilə çıxış ediblər.

Tədbirdə qırğız manasçısı, qumuq aqaç-kumuzçusu, Savə (İran) cökürçüsü və Azərbaycan aşıqlarının ifasında müxtəlif dastanlar, aşıq sənəti nümunələri səsləndirilib.

Tədbir iştirakçılarına Aşıq Şəmişirə həsr edilimiş kitablar, disklər və digər açıqçalar paylanıb.

Konfransda “Aşıq Şəmşir poeziyasında xalq gülüşünün izləri”, “Aşıq Şəmşir poeziyasında Səməd Vurğun obrazı”, “Aşıq Şəmşir və Kəlbəcər mühiti”, ”Aşıq sənəti Səməd Vurğun poeziyasının milli koloriti kimi”,

"Aşıq Şəmşir şeirlərinin dili və üslubu", "Aşıq Şəmşir yaradıcılığında təəssüf ənənəsi ilə bağlı obrazlar" və s. mövzularda məruzələr dinlənilmişdir.

Konfransda Qurbani, Dadaloğlu, Manas, Aşıq Ələsgər və başqa azman türk aşıqları haqqında da danışılmışdır.

Mərasimdə aşıqların və qiraət ustalarının ifasında ustad sənətkarın əsərləri və şeirlərinə yazılmış mahnılar səsləndirilmişdir.

Sonda "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyinin sədri, aşığın oğlu Qəmbər Şəmşiroğlu atasının xatirəsinə göstərilən böyük ehtirama görə ailəsi adından Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir. O, tədbir iştirakçılarına aşığın kitablarını hədiyyə etmişdir.

Xəbərləri hazırladı:

Elşad ÇOBANLI

AŞIQ BƏHRAM HƏSƏNOV
(1918-1991)

Aşıq Bəhram Alı oğlu Həsənov 1918-ci ildə Qazax rayonunun Daş Salahlı kəndində anadan olub. Saz-söz mühitində boya-başa çatan aşıq Bəhram erkən yaşlarından aşıq sənətinə böyük maraq göstərib. Bir tərəfdən də babası Misgin Alı və əmisi Mirzə Səməd Qazax mahalında tanınmış el şairləri kimi böyük hörmət qazanıblar.

Bəhram Həsənov aşıq sənətinin sirlərini bir müddət (üç il) əslən Göyçə mahalından olan Aşıq Hümbətdən aldıqdan sonra el ağsaqqallarının məsləhəti ilə üç il də o dövrün mötəbər aşığı Sadıq Sultanovdan dərs almışdır.

Aşıq Bəhram aşıq sənətimizin zəngin xəzinəsinə kifayət qədər yaxşı bələd idi və yetmişdən çox klassik aşıq havalarını, 30-a qədər xalq dastanlarını kifayət qədər bilirdi.

O, həm də yaradıcı aşıqlarımızdan biri idi. Aşıq şeirinin əksər forma və şəkillərində qələmini sınamışdı. Onun şeirləri ilk dəfə Qazax aşıq mühitini tədqiq edən gənc araşdırıcı İlhamə Qəsəbova tərəfindən "XX əsr Qazax aşıqları və el şairləri" kitabında dərc olunmuşdur. (Bakı, 2009, "Nurlan" nəşriyyatı, səh.323-374)

Aşıq Bəhramla ilk və son görüşüm 1981-ci ilin yay aylarında onun doğulduğu Daş Salahlı kəndində baş tutmuşdu. Ustadın evində iki gün onunla sənət söhbətləri etdik, ustadlarından danışdı, mərhum ustadı Sadıq Sultanov haqqında mənə məlum olmayan xoş təssüratlar söylədi.

Bu görüşümüzdə ondan xahiş etdim ki, ustad, mümkünsə mənə elə bir dastan danışın ki, hələ indiyə qədər heç yerdə nəşr olunmamış olsun. Aşıq Bəhram məmnuniyyətlə xahişimə əməl edib vaxtilə Aşıq Sadıq Sultanovdan öyrəndiyi "Yetim Hüseyn" dastanını danışdı. Mən bu dastanı böyük həvəs və maraqla səsyazan cihazla lentə köçürdüm.

Dastanı bitirdikdən sonra onu da qeyd etdi ki, ustadım aşıq Sadıq söyləyirdi ki, "Yetim Hüseyn" dastanının yaradıcısı Aşıq Hüseyn Şəmkirli olub. Bir neçə il sonra mən həmin dastanı Göyçə mahalında ustad aşıq mərhum Müseyib Nəsibovdan da yazıya aldım (1985-ci ildə).

Aşıq Müseyib də dastanı atası aşıq Qasımdan öyrəndiyini, eyni zamanda dastanın müəllifinin Aşıq Hüseyin Şəmkirli olduğunu qeyd etdi.

Hər iki el aşığının söhbətlərindən mənə o da məlum oldu ki, hazırda "Hüseyni" və "Dastanı" adı ilə məşhur olan eyni havanın da bəstəcisi Aşıq Hüseyn Şəmkirli olub. Mənə o da məlum oldu ki, indiyədək efirlərdən və bir çox aşıqlardan eşitdiyimiz "Ağ gül, qırmızı gül, bir də sarı gül" mahnısının mətni də olduğu kimi "Yetim Hüseyn" dastanında öz yeri, öz məqamı olan bir şeirdir və bu vaxta qədər təqdim olunduğu kimi, hansısa İbrahimin yox (İbrahim, qurbandı gülün üçünə) bu sözün də müəllifi H.Şəmkirlinindir.

Dastan çox maraqlı süjet xətdinə malikdir. Böyük maraqla qarşılanır. Dastan qəhrəmanı Hüseyn bir çox gərgin məqamlar yaşasa da, sonda öz məqsədinə çatır və dastan böyük nikbinliklə bitir.

İnanırıq ki, bu dastan geniş oxucu kütləsinin və mütəxəssislərin də böyük marağına səbəb olacaqdır.

"Yetim Hüseyn" dastanı haqqında geniş təfsilatı ilə bəhs etməyi lazım bilmədik. Nəzərə aldıq ki, hər kəs dastanı oxuduqdan sonra onun necə bir əsər olduğuna özü əmin olacaq və qiymətini verəcək.

Son olaraq Aşıq Bəhram Həsənova rəhmət diləməklə yanaşı, "Yetim Hüseyin" dastanını ilk dəfə nəşr olunmaq üçün "Ozan dünyası" jurnalına təqdim edirəm.

Elxan MƏMMƏDLİ
AAB İdarə heyətinin üzvü,
AMEA Folklor İnstitutunun
"Aşıq yaradıcılığı" şöbəsinin müdiri,
Əməkdar mədəniyyət işçisi.

YETİM HÜSEYN DASTANI

(Söyləyəni: Qazax rayon Daş Salahlı kənd sakini Aşıq Bəhram Həsənov. Dastan 15-17 may 1981-ci ildə folklorşünas Elxan Məmmədli tərəfindən yazıya alınmışdır.)

YETİM SÖYÜN

Şah Abbas İsfahan mülkündə əyləşmişdi, çox yerdən də xərac alerdı. Bir gün adəti üzrə Şah Abbas Allahverdi xan vəziri çağırdı, dedi: Vəzir, de görüm elə bir vilayət, elə bir şəhər varmı ki, bizə xərac verməsin?

Vəzir əl öpüf göz üstə qoydu, gedif xərtiyə baxıb qayıdıf gəldi. Dedi ki, bəli bir şəhər var, o şəhər bizə xərac vermer.

– Vəzir, hansı şəhər olar o.

– Şahim, o şəhər Luj şəhəridir ki, bizə xərac vermir.

– Hazırlaş, qoşuna da əmr ver gedək Luj şəhərinnən xərac alax!

Vəzir qoşun sərkərdələrini yanına çağırdı, göstəriş verdi. Az keçmədi qoşun hazır oldu. Şah Abbasnan vəzir də qoşunun qabağına tüşüf yola düşdülər. Şah Abbas adəti üzrə səfərə çıxanda dərviş libas olardı. Bu dəfə də gizlincə şah libasının altından dərviş paltarı geyinmişdi.

Bəli, qoşunnan az getdilər, çox getdilər, Şah gördü ki, yaman yoruluf, qoşuna da dincəlmək lazımdı. Odu ki, gəlif elə bir guşəyə çatdılar ki, gəl görəsən. Bir tərəf meşəlik, bir tərəf çəmənlik, güllər açılıf, bülbüllər oxuyur cəh-cəh vurur.

Şah Abbas qoşuna əmr verdi ki, qarannıx qarışer, qoşun atdan tökülsün. Elə də oldu. Hamı tökülüşdü. Qoyunnar kəsildi, ocaxlar çatıldı, qazannar asıldı. Böyük qoşundu nolajax, hərə bir şeynən məşğul olor. Oyun oynuyan kim, çalıf-çağıran kim, hərə bir şeynən məşğul olor. Şah Abbas vəziri çağırıf deyir, əyə vəzir, hələ görürəm günün batmağına bir çatı boyu qalıb, gəl biz də gedək bir qədər ov eliyək. Vəzir Allahverdi xan, şah Abbas hər ikisi öz bədöyünə getmişdilər. Bu vaxt Şah Abbasın ayağının altınnan bir ceyran qaçdı. Şah bunu görüf atı çapdı ceyranın dalınnan, burda ceyran, orda ceyran, ceyran qorxusunnan meşəyə girdi. Ceyran getdi at getdi, at getdi ceyran getdi, birdən elə oldu ki, Şah Abbasın şahlıq libasınnan heç bir nişana qalmadı, hamısı kola-kosa ilişif cırıx-cırıx oldu. Bir yannan meşənin qarannığı, bir yannan da axşamın qarannığı Şah Abbası az qala çaşırdmışdı. Əmə Vəzir meşiyə girmədi, qayıdıf qoşunun yanına qayıtdı.

Şah Abbas o tərəfə getdi, bu tərəfə getdi, nə ceyranı tapa bildi, nə də yolu. Qaldı meşənin içində. Atı sürdü sağa, getdi gördü kü elə bir qayaya rast gəlif heç olmuyan kimi. İrəli sürdü, getdi zıvallığa rast oldu. Arxıya qayıtmağa mümkün olmadı. Naəlac qalan şah əldən-dildən düşdü.

Atalar der at murazdı, at muraz verəndi. Şah Abbasın da umudu bircə ata qalmışdı. Şah bütün ömrünü, bütün taleyini ata bağlayıb dedi:

– Ey mənim bədöyüm, səni and verirəm zatın düldülə, sən ol sənin Allahın olsun, min bir yaşdı cavan Allahın olsun, mən canımın ixtiyarını sana verirəm, harya istiyirsən apar. Özü də başını qoydu atın ayaqlarının üstünə yuxulamaxda olsun, kəhərə bir huş gəldi, at bir cığır tapıf həmən cığırnan ehmalnan yavaş-yavaş şahı meşədən çıxartdı. Meşiyi çıxannan sonra bir yol tapdı, tanımadığı bu yolnan gedif böyük bir şəhərə irast oldu. Şəhərə daxil oluf, irast gəldiyi birinci darvazadan içəri girəndə qapı qaraulu səs elədi. Qapı qaraolu səs eliyəndə Şah da yuxudan oyandı. Oyandı gördü ki, əvvəlki şah livasınnan əynində heç nə qalmıyıf, qalan bircə dərviş libasıdı. Şah Abbas öz-özünə dedi ki, elə dərviş livasında olmağım yaxşıdı. Şah libasında olsam tanıyallar məni. Qapı qaraolu səs eliyəndə həyətdəki öylərin birində kasıf bir ailə şam yeməyinə hazırlaşırdılar. Kişi dedi: ay arvad, nola birdən qapımız döyülə, bir qonax gələ, biznən baravar çörək kəsə, qonaxsız öy bərəkətsiz olar. Elə bu vaxt həmən səs gəldi, öy sahibi eşiyə çıxıf tanımadığı dərviş libasdı qonağı gördü, sevincinnən yerə-göyə sığmadı:

– Qonax qardaş, atdan düş, xoş gəlif safa gətirirsən. Bir yannan da öyün qarısını səsdədi, ay arvad, bayaxdan arzuladığımız qonağımız da gəlif çıxdı. Bu səsə qarı da çölə çıxdı. Qonağı çüşürtdülər (düşürtmək) atın yəhərini götürüf isti su gətirdilər, atın tərriyini yudular. Kişi atın tərriyini belinə çəkif toylüyə çəkməkdə olsun, dərvişi də öyə aparıf "xoş gəldin" eylədilər. Dərviş içəri daxil oluf əyləşdi, ancax o qarta da varadöylətə malik olmayan bu qojaynan qarı bir az narahat olmağa başdadılar, fikirrəşdilər ki, ay Allah, nə təhər eliyək ki, bu qərib qonax bizdən razı qalsın. Görəsən bizim xörəkdən-çörəkdən xoşu gələcəkmi?

Öy sahibi qarıyı eşiyə çıxardıf dedi, ay arvad, mən Allaha yalvarmışdım, qonax da verdi. İndi bunun ruzusunu hardan alax?

Qarı dedi: a kişi, qonağı göndərən Allah onun ruzusunu özünnən qabax göndərif. Bircə qoyunumuz var, get gətir kəs, qonağa da kəsmiyənnən sora nəyə lazımdı o qoyun.

Qoja qarının dediyi kimi qoyunu kəsif xörəyi hazırramaxda olsun, ancax dərvişlivas şah bu vaxt otaxda pərdə arxasında bir cavan zənən xaylağının hənirtisini eşidəndə hiss elədi ki, hər kimsə həm cavandı, həm

də gözəldi. Ara bir hərrənişinnən annadı ki, bu lap cavan qız uşağıdı, özü də çox cəld-çevikdi.

Bu arada xörək gəldi ortalığa. Üç qava çəkilif, biri qonağındı, biri qojanındı, biri də qarınındı. Qonax üzünü qojuya tutuf dedi: Sizdən tavaqqım budu ki, elə eliyin hamıya xörək çatsın, heç kim süfrədən kənar qalmasın. Qoja dedi, qonax qardaş, kanarda kim qalır, sənsən, mənəm, bir də qarımdı. Üçümüzə də pay çəkilib. Da kimi dersiniz? Şah dedi: Bax, o biri otaxda pərdənin arxasında kimsə var, onu derəm.

Qoja dedi, ay qağa, o mənim qızımdı, ortalığa çıxası heç ləyağı yoxdu, şikəstdi.

Şah dedi, qoja, səni and verirəm bir Allaha, yüz iyirmi dörd min peyğəmbərə, qoy gəlsin o qız bizimlə çörək yisin.

Qoja dedi, ay qağa, gözdəri kordu gələ bilmir.

– Əlinnən tut gətir.

– Topaldı, yeriyə bilmir, qulaxlarlı da kardı.

Qonax çox dedi, qoja az eşitdi, qonağın özü ayağa qalxıf naməhrəmi gətirif süfrüyə əyləşdirdi. Gördü ki, gözü kor nə, qılçası topal nə, başı keçəl, qulağı kar nə, gözəl bir qız uşağıdı. Bir qız ki, qüdrətin yeddi qisminnən rənglənif, yanaxlar çırtıx vursan partdıyar, dodaxlar çin piyalası kimi, boyun surahı, bədən büllur, qaş yay oxu, gərdan mina. Dilnən deyiləsi doylü. Soruşur adın nədi?

Şah Abbasın qızdan çox xoşu gəldi, bir konuldan min konula vuruldu bu qıza. Üzünü qojuya tutuf dedi: qoja, ya bu qızı mana ver, sənnən qohum olax, ya da bu axşam sənin çörəyinə əl vurası döyləm.

Kişiyə bu söz bir təhər gəldi, laf söyüşdən betər oldu. İstədi desin, ayə, belə-filan oğlu, səni mən çağıra-çağıramı gətirmişdim, indi də qızıma elçisiz-filansız müştəri tüşüfsən. Qarı kişinin ətəyinnən basıf, kirimişcə dedi, kişi, qismətdən artıx yimək olmaz, o qoyun bunun qismatında olan kimi, bəlkə elə bu qız da onun baxtına-qismatına yazılıb. Qarı bir az kişinin hirsini yatırtdı. Kişi dedi, qonax, o ku belə oldu, onda hələlik sən çörəyini ye, sabah mən molla çağırıf kəfin-nikahınızı kəsdirərəm. Qonax dediyinnən dönmədi dedi:

– Qoca baba, mən özüm oxumuş adamam, özüm kəbin kəsə bilirəm, elə bu axşam Mələknisəynən kəbinimizi kəsəjəm. Bunu dedi ayağa qalxdı, kağız-qələmini tapıf həmən qızın kəbinini özünə kəsdi. Həmişə şah Abbas arxalığının alttda saz de gəzdirərdi, sazı çıxartdı, zilini zil, bəmini bəm elədi, götürdü görək nə dedi:

Bir gözəlsən, şoxun düşüb cahana,
Yoxdu sənin kimi gözəl, göz ala.

Yox aşıx cahana,
Canım qurban cahana.
Haqqın əziz bəndəsi,
Xoş gəlifsən ca hana.
Yaradan yaradıb, salıb cahana
Yoxdu sənin kimi gözəl, göz ala.

Bağbansan bağ bəslə, bağ işini gör,
Bağ bəslə, bağ becər, bağ işini gör.

Aşıq, bağ işini gör,
Bağban, bağ işin gör.
Nə yatıfsan, ay ovçu,
Maralın baxışın gör.

Hələ sən tərlanım baxışın gör,
İstiyir canımı gözəl, göz ala.

Abbas deyə, mən qurbanam sənə yar,
Uca boylu, tuti dilli sənə yar.
Yox aşıq, sənə yar,
Aşıq oldum sənə yar.
Qış otaxda, yaz bağda,
Mehman oldum sənə yar.
Dolandım dünyanı necə sənə yar,
Yoxdu sənin kimi gözəl, göz ala.

Bu sözdən sonra Şah Abbasın əhli-hərəmi Mələknisə oldu. Bir müddət burda qalmaxda olsun, sizə kimnən danışım, vəzir Allahverdi xannan. Eləki Vəzir şah Abbası itirdi, qayıdıf qoşuna dala qayıtmaq əmri verdi. İsfana qayıtdılar. Bir neçə gün gözdədilər. Şah Abbasdan sorax çıxmadı. Allahverdi xan vəzir heç kimə genəşmiyif, şah Abbasın livasdarınnan birini əyninə keçirif taxtda əylişdi. Vəzir şahın taxtında oturmaxda olsun, gənə qayıdax Luj şəhərinə.

Şah Abbas düz 40 gün bu şəhərdə qaldı, 40 gün Mələknisə xanıma nəvaziş göstərdi, onu əzizdədi, busə alıb-busə verdi, piyalə dodaxlarınnan şərvət içdi. Bir söznən, qızı kamına yetirdi. 40 günnən sonra öz-özünə dedi: “Ay dili qafil, mənim İsfahan mülkü kimi şəhərdə tacı-taxtım var, xəzinəm, dövlətim, şəhərlərim var, bu nə işdi mən tuturam. Qalalar basan qoşunumu başsız qoyub bir qızın qoynunda qalmışam. Mənə belə iş

yaraşırmı, deyif qəti getmək qərarına gəldi. Gənə də sazı köynəyinnən çıxartdı, bu ayrılıx ona çox ağır gəlirdi, hərəmlərinin içərisində hələ Mələknisə kimi dünya gözəli yox idi. O, həm də çox ağıllı, tərbiyəliydi. Şah Abbasın ürəyi nana yarpağı kimi əsməyə başdadı, götürdü görək nə dedi:

Ay nazənin, əlim sənnən üzüldü,
Gahdan ağla, gahdan yada sal məni.
Şan-şan oldu, qara bağrım əzildi,
Gahdan ağla, gahdan yada sal məni.

Qız baxıf gördü ki, dərviş əsif-coşufdu. Bu qıza gündə bircə dəfə belə oxumurdu. Əma indi yaman yanıxlı oxuyur. Odu ki, Mələknisəyə də təb gəldi, pərişan tellərinnən üç tel ayırıf bağrına basdı, Abbasın qənşərində dayanıf görək ona nə cavaf verdi:

İyidlər iyidi, iyidlər xası,
Getmə qonax, mana zulumdu, zulum.
Çıxart ürəyinnən qaranı, pası,
Getmə qonax, mana zulumdu, zulum.

Qız qaralmış bulud kimi gözünnən abi-leysan tökdü. Şah Abbas özünnən bihuş olub bu ayrılığna tavlayır, götürüf görək nə deyir:

Bağban idim, bağım təğayir oldu,
Xoyrat əli dəydi, təqayir oldu.
Gözüm gördü, könlüm təğayir oldu,
Gahdan ağla, gahdan yada sal məni.

Götürdü Mələknisa xanım:

Atamın taxtını yıxa bilmərəm,
Anamın üzünə baxa bilmərəm.
Tay-tuş arasına çıxa bilmərəm,
Getmə qonax, mənə zülümdü, zülüm.

Dərviş Abbas:

Mən sana can deyim, sən də mana can,
Alışıb bu eşqin ataşında yan.
Adım dərviş Abbas, şəhrim İsfahan,
Gahdan ağla, gahdan yada sal məni.

Mələknisa:

Mələknisəyəm, qara gəldi baxtım da,
Atam paymal olsun tacı-taxtında.
Hardan ürcah oldun gejə vaxtında,
Getmə qonax, mana zulumdu, zulum.

Söz tamama yetdi, dərviş əlini civinə yetirif, civinnən bir bazubənd çıxartdı. Bazubənd ustad aşıxlarımızın dilinnən desək "dəryeyinur" addanardı. Bu, dəryadan tapılmaydı, bununheç bir qıymatı yoxuydu. Abbas dedi:

– Mələknisə, al bu bazibəndi, mənnən sana peşkəşdi, görörəm hazırrığın var. Mənim tərəfimnən səndə yadigar qalar. Saxla, o yadigar dünyaya zühr olana qədər. Əgər qızımız olsa, sat xırdala, satsan onun pulu yeddi arxa dolannarınızın hamısına yetəcəkdi. Yox, oğlan olsa, sol qolunu çərmə ata-ana qədri bilən vaxta qədər. Atasını axtaran vaxtı sol qolunu çərmə, sol qoluna bağla. Hər iyidin bir qan çalxanan vaxtı olur. Onun da həmən vaxtı olajax. Əyər qeyrəti varsa, atasını axrtarıf tapajax, yox axtarmıyajaxsa, satıf qumar oynuyajax. Mələknisə, Abbas gedənnən sora belə deyir:

Əlim yarımnan üzüldü,
Ağlaram, ana, ağlaram.
Göz yaşım üzümə süzüldü,
Ağlaram, ana, ağlaram.

Anası Xeyransa:

Atan sana zulm elədi,
Ağlama, qızım, ağlama.
Bağrın başını teylədi,
Ağlama, qızım, ağlama.

Mələknisa:

Mən ağlaram yana-yana,
Yandı bağrım, döndü qana.
Bazubənd məndə nişana,
Ağlaram, ana, ağlaram.

Mələknisə bazubəndin adını çəkən kimi anası Xeyransa:

Darayıf zülfün hörəyim,
Boyna tasatdıx verəyim.
Gətir bazubəndi görəyim,
Ağlama, qızım, ağlama.

Mələknisa baxdı ki, anası əl çəkən döylü. Əgər həmən bazubəndi satdıx etsə, bə Dərviş Abbasın uşağına nə cavab verər, odu ki, anasını aldadır görək:

Mələknisa – mənim adım,
Aləmi yandırır odum.
Bir söz idi, yalan deyim,
Ağlaram, ana, ağlaram.

Xeyransa:

Bu dünya fanidi, fani,
Nə səni qoyar, nə də məni.
Ağlar qoydun Xeyransanı,
Ağlama, qızım, ağlama.

Bəli, dərviş Abbas çıxdı getdi İsfahan mülkünə. İsfahan mülkündə gənə öz tacı-taxtına çıxdı. Vəzirnən-vəkilnən görüşüf böyük qonaxlıx düzəldir. Şəhərə səs tüşür "əyə, itən padşah gəlifdi, Şah Abbas gəlifdi." Bəh-bəh, bir şaddıx-şadyasıx var ki, gəl görəsən. Pütün şəhər bayram libası geydi, hamı kef-damağa qurşandı, şahın gəlişini beləjə bayram elədilər. İndi şah Abbas burda – İsvahanda qalıf padşahlıx eləməyində olsun, görək Mələknisə xanımın halı nə təhər keşdi.

Mələknisə bir müddət yükü gəzdirənən sora, doqquz ay, doqquz gün, doqqz saat, doqquz dayqadan sora yükü yerə qoydu.Müjdəçilər Qoja babaya, Xeyransa qarıya muşduluğa qaşdılar.

– Baba, nənə, oğul nəvəniz oluf, muşdulux sizdən çatajax.

Baba-nənə öydə oluf- qopannan muşduluxçuyu yola salır.

Aşıxların dili yüyrək olar, bir də deyəllər ki, kasıf adamların uşaxları gejədə bir arpa boyu irilənir, amba varrılarınkı çox ləng yekələnir, çətin yekələnirdi. Uşaxkı belə böyüməyə başdadı: gün oldu iməklədi, yeridi, danışdı, onda baxıf gördülər ki, budu ey, Söyün bayırda-bajada uşax-larnan oynamağa başdıyıf. Bu Söyünün adı ketdikcən tay-tuşldarının

arasında yayılmağa başdadı. Söyünün adına bir "yetim" də qoşdular. Başdadılar "Yetim Söyün" çağırmağa. Uşax 16-17 yaşa çatmışdı, en-enə getmişdi, uzun uzuna getmişdi, qaş-göz boy-buxun bir aləm idi ki, tamaşasına dayanırdılar. Elə bil tanrının könlünün xoş vaxtında Söyünü yaratmışdı.

Günnərin bir günü Söyün küçüyə çıxmışdı, gördü ki, uşaxlar aşıx-aşıx oynuyur. Bir qıraxda duruf tamaşa eləməyə başdadı. Aşıx oynuyan-nardan biri o birinin pütün aşıxlarını uduf qurtaranda, uduzan çırnaxçılıx eləməyə başdıyıf, həmən aşıxları udannan dava eləməyə başdadı. Bu vaxt Söyün dözmüyüf gəlif cırnaxçıya bir şapalax vurdu. Həmən bu çırnaxçı baxdı gördü Söyünə gücü çatmıyajax, yanmışdığınnan "atasınan xəbərsiz" deyif Söyünü yamannadı. Söyün cin atına minif oğlanın yaxasınnan yapışdı ki, sən nə sarsax-sarsax danışersan, mənim atam-anam ola-ola niyə mənə "atasınnan xavarsız" dersən. Həmən uşax dedi:

– Kimdi sənin atan?

Söyün dedi, əyə xırsız oğlu xırsız, mənim atam Kərim kişi, anam da Mələknisə olduğunu pütün şəhər biler.

– Xeyr, elə şey yoxdu, Kərim kişi sənin bavandı, qiryatdı oğulsan, get anannan soruş gör sən kimin oğlusan? Sənin atan bir dərvişiydi, gəldi anannan beş-on gün qızışdı, sora da çıxdı getdi. Xalxın, gözü kor, qulağı da kar döylü.

Söyün da həmən uşağa heç şey demiyif, qaça-qaça öylərinə gəldi, ağlıya-ağlıya özünü anasına yetirdi. Anası çox yalvar-yaxar elədi, Söyünü inandıra bilmədi, axırda Mələknisə məjbur oluf hər şeyi oğluna danışdı. Dedi ki, oğlum, bil və agah ol, sənin atan İsfahan şəhərində Dərviş Abbasdı. Al bu da onun bazubəndidi. Özü tapşırıf ki, sol qoluna bağlıyım. Söyün məsələdən halı olannan sonra iki ayağını bir başmağa salıf getmək qərarına gəldi. Ana, nənə-bava çox yalvardılar, Söyün heş kəsi eşitmədi, yola hazırlaşmağa başdadı. Tay-tuşdarı qız-oğlan hamı bu xavarı eşidif onnarın hayatına toplaşdılar. Söyün nənəsinnən, bavasınnan, anasınnan halallıq istiyif yola düşəsi oldu. Üzünü anasına tutuf yol üstə görək anasına nə deyir, siz də nə eşidersiniz:

Söyün:

Başına döndüyüm gül üzlü ana,
Ana, bavam kimdi, mən gedər oldum.
Südünü əmmişəm mən qana-qana,
Ana, bavam kimdi, mən gedər oldum.

Mələknisə:

Başına döndüyüm gül üzlü oğul,
Qürbət eldə hərdən yada sal məni.
Sənə yedirmişəm yağınnan noğul,
Qürbət eldə hərdən yada sal məni.

Söyün:

Bir gül idi, dəstə-dəstə dərdilər,
Dəribinən pünhanlara sərdilər.
Yetkin çağlarımda xəbər verdilər,
Ana, bavam kimdi, mən gedər oldum.

Mələknisə:

Sinədağ yarandım qövlu-bəladan,
Ölmədim, qurtaram bu qəmxənadan.
Oğul da üz döndərərmi anadan,
Qürbət eldə hərdən yada sal məni.

Söyün:

Söyünəm, gedərəm babam elinən,
Baş açmadım seyrağubun felinən.
Gecə-gündüz qoyma məni dilinən.
Ana, babam kimdi, mən gedər oldum.

Mələknisə:

Ərşə çatar Mələknisə nalası,
Veran olsun Luj şəhrinin qalası.
İsfahandı Dərviş Abbas balası,
Qürbət eldə hərdən yada sal məni.

Söz tamama yetən kimi məhlənin qızdarı da yığılmışdı bura. Hərəsi bir dəstə gülnən Söynü qərq elədilər. Qızdardan biri irəli yeriyib dedi ki, Ay Söyün, amanın bir günüdü, heç yana getmə, bir belə qızın hamısının

gözü səndədi, birimizicə seç özünə bu daşı ətəyindən çöyür, heç yana gedib eləmə. Söyün götürdü görək qızdara söznən nə dedi:

Bir bölük pərilər, pərizadalar,
Yığılıb bir yerə lalə dərəllər.
Şamaxı yaylığın salıb başına,
Aşiqanə nazü-qəmzə edəllər.

Bir bölük yığılıb hamı növrəsdə,
Dəriblər bənövşə, ediblər dəsdə.
Hər qıza baxanda edəllər xəstə,
Baxıb bir-birinə töhmət edəllər.

Söyünəm, olmuşam eldən avara,
Təbib gərək edə dərdimə çara.
Baş götürüb gedim hansı diyara,
Qohumum yox, gedib minnət edələr.

Qızdar dedi: "Ay Söyün, biz sana minnət eliyirik, heç yerə getmə".

Söyün dedi:

– Mənə heç bir minnət-filan lazım döylü, mana ancax atamın tapılması lazımdı.

Həmən qız gənə də əl çəkmədi, al məni, olum anan gəlini, – deyif, Söyünnən əl çəkmədi. Söyün götürdü görək bu qıza dübarə nə cavab verdi:

Naz eləmə, nazdı dilbər,
Qaşın kamana layıxdı.
Sənin o ala gözdərin,
Sultana-xana layıxdı.

Öldürməz sevən sevəni,
Sən ki, öldürürsən məni.
Yar yolunda bax bu səri,
Saxla, mehmana layıxdı.

Söyün deyəllər adıma,
Hax-tala yetsin dadıma.
Mənim bu qəmli oduma,
Yanan pərvanə layıxdı.

Söyün sözü tamama yetirdi. Anasınnan, nənə-bavasınnan öpüşüf, görüşüf, hallalaşıf ayrıldı. Başdadı İsfahan tərəfə yol getməyə. Bəli, nağıllarda vaxt tez gələr. Söyün də az gəldi, çox gəldi gəlif düz İsfahan şəhərinə, dədəsinin paytaxtına çatdı. Şəhərə gəlif çatanda bədəninə bir üşütmə gəldi ki, gəl görəsən. Aləm gözündə tiri-tar oldu. Ata yox, yanına getsin, ana yox, dərdini desin, qohum-qardaş heç kim yox, bə dərdini kimə desin?

İsfahan şəhərində o vaxtlar belə bir qayda varıydı. Hər küçədə, dükannarda da, daxıllarda da eyni adda adamlar işliyirdi. Yəni küçənin başında Əhmədin tükəni yerrəşirdisə, həmən küçədə axıra qədər bütün dükannarda Əhməd adında adamlar işliyirdi. Məmməd, Hümbət, Səməd hası küçə kimnən başdıyır, axıracan eləjə gederdi. Söyün o yerə çatdı ki, həmən küçə Səmədnən başdıyır. Bir-bir yaxınlaşdı bu tükənnərə, hərə bir tərəfə qovdu, heç kim Söyünə hayan olmax istəmədi. Axşamüstünə yaxın bir tükənin qabağına gəldi, bu, Qəndəhər Əhməd deyilən bir oyladsız adamın tükəniydi. Bu Əhməd kişinin üzünnən-gözünnən nur tökülürdü. Çox qonaxpərəst, çörəkli adam idi. Uzaxdan Söyünü görən kimi qərib olduğunu bildi, yanına çağırıf söhbətə tutdu. Dedi: qurvan olom, uzaxda durma, görörəm qarıv adamsan, yaxına gəl baravar söhbət eliyək, mən də darıxıram.

Söyün baxıf gördü ki, bu çox xoş qılıx adamdı, sidqi dilnən təklif eliyir, hər kimsə, çox xeyirxah adama oxşuyur. Odu ki, Söyün götürür Qəndəhər Əhməddən nə xavar aler:

Başına döndüyüm, ay qoca baba,
Baba, mən qəribəm, axşam bazarı.
Rəhm edən yox gözdən axan yaşıma,
Baba, mən qəribəm axşam bazarı.

Qəndəhər Əhmədin bir sazı var idi. Sazı daldeydan çıxardıf gətirdi, dedi, oğul, tək atın meydanı olmaz, mənim də ürəyimdə bir-iki kəlmə sözüm var, qulağ as, gör mən nə deyəjəm. Odu ki, sazı götürüf görək nə deyir:

Qoca bavan alsın sənin qadanı,
Oğul, sən qəribin hardan güzarı?
Qərib-qərib, qəmgin-qəmgin baxma gəl,
Oğul, sən qəribin hardan güzarı?

Söyün:

Küsmüşəm mən bu dünyadan, doymuşam,
Ağ əllərə əlvan həna qoymuşam.
Mən anamı Luj şəhrində qoymuşam,
Baba, mən qəribəm, axşam bazarı.

Qəndəhər Əhməd:

Xoşdamıram sultanını, xanını,
Buyurram, cəlladlar alar canını.
Bir mənə nişan ver adı-sanını,
Oğul, sən qəribin hardan güzarı?

Söyün:

Mövlam yetsin hər qulunun dadına,
Mən yanıram bir atamın oduna.
Atam Dərviş Abbas, Söyün deyəllər adıma,
Baba, mən qəribəm axşam bazarı.

Qəndəhər Əhməd:

Qəndəhər Əhmədəm, baxça-barım var,
Namusum var, qeyrətim var, arım var.
Sən qəribsən, gözüm üstə yerin var,
Oğul, sən qəribin hardan güzarın?

Söz tamama yetdi, Qəndəhər Əhməd Yetim Söyünün başına gələnlərdən halı oldu, həm kədərləndi, həm də söyündü. Söyündü ona görə ki, onun oğuldan-qızdan heç nəyi yoxuydu. Dedi:

– Oğul, sən özünə ata axtarırsan, mənim də züryətim yoxdu, gəl ol mana oğul, ata-bala əl-ələ verif işdiyək.

Söyünün nə bir gedəjəh yeri, nə qohum öyü – heç bir şeyi yoxuydu. Oduku Qəndəhər Əhmədin təklifini cannan-başnan qabul eliyif, ona oğul oldu.

Qəndəhər Əhməd Söyünü də götürüf öylərinə gəldi, işdən övradını da halı elədi. Qarı Söyünü köynəyinnən keçirif özünə oğul elədi. Axşam yedilər, şam elədilər, bir vaxt söz-söhbətdən sora yıxılıf yatdılar.

Səhər açıldı, üstünüzə xeyirli savaxlar açılsın. Qəndəhər Əhməd Yetim Söyünü yanına çağırıf dedi:

– Oğul, bax indi biz ikimiz də tükənə gedəjəyik, bunnan qabax gejələr həməşə tükəndə qalar, orda gejəliyərdim. İndi də sən oldun mənim doğma öyladım. Kefindi, axşamlar öydə sən gejələ, mən dükanda qalam, ya da mən öydə qalam, sən tükəndə qal.

Söyün dedi:

– Baba, mənim öynən nə işim var, yaxşısı budu, sən ordan-burdan tal tap gətir. Mən də qalım tükəndə, alverimi eliyim, gejələr də yıxılem yatem.

Qəndəhər Əhməd bu söhbətə razı oldu. Söyün tükəni iştətməknən maşğul olmağa başdadı. Bir gün, iki gün, üç gün belə keçdi. Camahat başqa tükənnərdən yığışıf, Söyün işdiyən tükənə şey-şüy almağa axışmaxa başdadı. Çünki, Söyün həm çox gözəl, boylu-puxunnuydu, həm də yaxşı davranırdı camahatnan. Qəndəhər Əhmədin müşdəriləri hərə bir tərəfdən onnan xavar aldılar ki, bəs bu cavan kimdi sənin yerinə tükəni işdədir? Əhməd cavaf verer ki, bəs bu mənim oğlum Söyündü, şahın qoşununda qulluq eliyirdi, indi qayıdıf gəlif mana kömək eliyir. Bu xavar beləjə pütün İsfahan şəhərinə yayıldı. Deməzsənmi, Qəndəhər Əhmədin oğlu var imiş, əsgərrikdən qayıdıf gəlif. Bir oğlandı, bir oğlandı gəl görəsən, gözəlliyinə, mərifətinə, qoçaxlığına, iyidliyinə söz ola bilməz.

Bu xavarı eşidən hərə bir tərəfdən tükənə gəlif mal almax mahnasınnan Söyünə tamaşa eliyirdilər.

Bu xavar hər yerə yayıla-yayıla gəlif şahın imarətinə də çatdı. Bu xavar getdi vəzir-vəkilin qızdarının, xanımlarının da qulağına çatdı. Bu xavar hamısınnan da əfzəl Vəzir Allahverdi xanın qızı Pəri xanımın da qulağına çatdı. Mətdaşələrnən gəzən, yüz min naznan hərrənən Pəri xanım eşitdi ki, Qəndəhər Əhmədin oğlu var imiş, hardaymışsa gəlif çıxıf. Mərfəti, qanacağı, gözəlliyi dillərdə söylənif. Pəri dedi:

– Ay qızdar, çox da dellər, öz gözümüznən görsək yaxşı olmazmı?

Qızdardan bir neçəsini yanına alıf özünü Qəndəhər Əhmədin tükəninə salan Pəri xanım əyağını tükənin astanasına qoyan kimi, Söyünü görüf behuş oluf yıxıldı. Qəndəhər Əhməd qızın qolunnan tutuf qaldırdı, nəbzini yoxladı. Qız özünü düzəldənnən sonra Söyün baxıf gördü ki, bu nə qiymatdı qızdardı, hardan gəlif çıxdılar bura. Oduku saz oxardan asılmışdı. Söyün sazı götürüf üzünü Pəri xanıma tutuf görək nə dedi:

Hər yetən gözələ gözəl demərəm,
Gözəllərdə bir qeyri əlamət olar.
Zülf pərişan ola, düşə gərdənə,
Özündən bixəbər bir babət ola.

Çünki Pəri xanım bihuş oluf yıxılanda zülfləri qızın gərdəninə tökülmüşdü. Söyün oma işarə eliyirdi.

Söylüyəndə pərvaz edə nimtənə,
Zülf üzə tökülə, dönə gülşənə.
Sərəndazı salar başdan gərdənə,
Bel bütöv açıla, qiyamət ola.

Hüseynin lütvü var nazik, lütvəli,
Şirin ədalıdır, nazı-qəmzəli.
Hər kimin ki, ola böylə bir yarı,
Bu dünya qəmindən salamat olar.

Hə... bu minvalnan Söyünən Pəri xanım bir-birinə vuruldu. Bir az tükəndə ora-bura baxdılar, qızdar qayıdıf gedəsi oldu. Vəzirin mülkünə çatdılar, Pəri xanım qızdarı başına yığıf soruşdu:

– Ay qızdır, kim deyər, dünyada nə şirin olar?

Qızdardan biri dedi bəhməz. Biri dedi yuxu, biri bal dedi. Hərə bir söz dedi. Amba Pəri xanım dedi yox, sirdaşdıxdan qiymətdi, şirin şey yoxdu. Ay qızdar, siz mənim sirdaşım olun. Bu gün o oğlan məni sevdi, mən də onu sevdim. Bu gün mana yazılan yazı gələn yay da sizə yazlajaxdı. İndi nə təhər eliyim ki, həmən oğlanın əli mənim əlimə çatsın. Mən özümü naxoşduğa vurajam, atama-anama xavar verin, Pəri xanım naxoşdu, həkim gətirsinlər. Həkim gələndə brirniz deyin, ay həkim bəlkə Pəri xanıma şəhərin kənarlarında təzə imarət tikilə, bura şəhərin ortasıdı, hava sıxlıqdı, orda yaxşı olar. Gözü-könlü açılar.

Bəli, Pəri xanım özünü xəstəliyə vurdu. Həkim çağırdılar. Pərinin ata-anası təşvişə düşdü. Həkim Pəridə heç bir xəstəlik-filan tapa bilmədi. Odu ku, qızdardan biri dedi, həkim, Pəri tənginəfəs olur, havası çatmır, bura şəhərin mərkəzidi, sıxlıxdı, olmazmı Pəri xanıma şəhərin ucqar yerində, havası təmiz yerində lap elə Qəndəhər Əhmədin tükənin yannarında bir imarət tikilsin, onda şəfa tapar, inşallah. Həkim dedi, qızım niyə olmur, ola bilər ki, havası çatmasın. Onda gərək Vəzir sizin xahişinizi yerinə yetirsin. Vəzirin pulumu yoxuydu? Pəri xanıma bir imarət tikdirdi ki, gəl görəsən. Bütün imarətdərdən də gözəl. Bina hazır oldu, Pəri xanımı başının qızdarınnan aparıb qoydular təzə imarətə, hansı ki, Qəndəhər Əhmədin mülkünə yaxın idi. Həmən günnən də Pəri xanım bir nəfər kənkan çağırıf öz imarətin altınnan Qəndəhər Əhmədin tükəninə yerltı yol açdırdı. Gündüzdər tükəndə alver eliyən Qəndəhəd Əhməd

axşamlar Söyünü tükəndə qoyuf özü öyə gələrdi. Söyün də hər axşam yarım girvənkə kişmişnən, yarım kirvənkə qozun qarışığını düzəlder, özün üçün yaxşı yeyif yaterdi. Bir axşam gejədən xeyli keçmiş Söyün gördükü, dörd nəfər mələkə gəldi.

– Hardan gəldiniz?

Qızın biri dedi:

– Ay Söyün, sənin xəbərin yoxdu.

Başdadılar bütün əhvalatı biz bildiyimiz kimi Söyünə danışdılar.

Söyün baxdı ki, həmən qızdarın içində sövdüyü də gəlif. Götürüf görək nə deyir:

Mislin artıb mürdələrə[1] can verif,
Soyuq suyun abi-həyatı kimi.
Şəkərdi ləblərin, şirindi dilin,
Dodaqların Misir nabatı kimi.

Altından al geyib, üstdən qələmnar,
Böyrü düymə, sinə gen, yaxa dar.
Sevdiyimin gözəl gül camalı var,
Bədrlənmiş ayın salatı kimi.

Zülfün kimi daldalayıb çəkməkdən,
Qızıl düymə kəsdiribdi dirsəkdən.
Gecə-gündüz həsrətini çəkməkdən,
Hüseynəm, incəldim xəyatı kimi.

– Ay Söyün, and bu, qəsəm bu, sən nəcərinnən dərd çəkifsən, mən səndən də artıq çəkmişəm. Ancaq gündüzdər tükənində alverində olajaxsan, gejələr mənim xidmətimdə. Söyünün əlinnən tutuf yeraltı yolnan bir baş gətirif imarətinə çıxartdı.

– A səni mənim öyümə xoş gəlif səfa gətirifsən.

Söyün görmədiyi günə tüşmüşdü, naz-qəmzə, qayğı, nə deem da, dünyada nə ləzzət varıydı hamısını görürdü. Beləcə, günlər gəlif bir ay yarım, iki aya keşdi.

Bu iki cavan bir müddət gejələr imarətdə kefdə-damaxda olsunnar, eşit, Şah Abbasdan. Şah Abbasa sədə çatmışdı ki, bəs deməzsənmi Qəndəhər Əhmədin bir oğlu peydah oluf, bütün şəhər onun mərfətinnən, qanacağından, gözəlliyinnən danışer. Oydu ki, özü gözünnən görmək istiyirdi. Axşam üstünə yaxın dərviş libasını geyif şəhəri gəzə-gəzə Qəndəhər Əhmədin tükənin yanına yaxınlaşdı. Bu o vaxt idi ki, Qəndəhər

Əhməd öyə çıxıb gedirdi. Tükəndə Söyün təkcə qalırdı. Şah Abbas Əhməd gedənnən sonra tükənə girib:

– Salam, oğul, – dedi.

– Ələykə salam, dərviş baba, xoş gəlifsən, dərviş baba.

– Oğul, dərvişdərin yeri-yurdu olmaz. Hər axşam bir yerdə qonaq qalallar. Olarmı bu dərviş baban bu axşam sənin qonağın olsun.

– Qonaq Allah qonağıdı, bu nə sözdü, bir gejə də qal, lap istiyir beş gejə də. Oydu ku Söyün axşam ploynu hazırrıyırdı, əvvələr bir özünnən ötürü hazırrıyırdısa, bu dəfə iki adamlıx ehtiyat gördü, pişirif, tüşürdü. Yedilər, işdilər. Birdən Pərinin kənizdərinnən ikisi içəri girif dedi ki, ay Söyün, xanımın yaman niyarandı bə vaxt keçir, niyə gəlif çıxmırsan. Söyün dedi get xanımına de ki, bu axşam bir qonağım var, onu qoyuf gələ bilmərəm, məni bağışlasın. Şah Abbas göz altdan baxıf qızdarı tanıdı. Çünki, vəzirin öyündə olanda bu qızdarı Pəri xanımın yanında görmüşdü. Heç üstünü vurmadı. Dedi, səbr eləmək lazımdı görək bunun axırı nejə olur.

Qızdar gedif Pəri xanıma dedilər ki, xanım, Söyün bu axşam gələ bilmiyəjəh, deyir bir qonağım var, gələ bilmərəm. Pəri xanım dedi, gedin deyin ona da qurban olum, qonağına da, qonağı da götürüf gəlsin.

Qızdar qayıdıf gəldilər dedilər ki, Pəri xanım deyir, özünə də qurban olum, qonağına da, ikisini də gözdüyürəm.

Söyün bir az çıxılmaz vəziyyətdə qaldı, əmə əlacı yoxuydu. Odu ku, dedi, başına dönüm, baba dərviş, məni bu axşam bir yerə qonax çağırıflar, məsləhətdi sən də bizimnən gedəsən. Əgər sənə əziyyət olmasa, əyər inciməsən, mənnən gedək.

– Ay bala, mən bu axşam sənin qonağınam, istiyir burda saxla, istiyir özünnən apar, niyə getmirəm.

Dərviş baxdı ki, qızdar tükənin içinnən bir zirzəmiyə girdilər, zirzəmidən yeraltı yollarnan, əllərində şam gedif bu yaxında vəzirin tikdiyi imarata gəlif çıxdılar.

Pəri xanım Söyüngilin gəldiyini görüf onları qarşıladı, xoş gəldin elədi. Dərviş öz-özünə dedi, ay gidi dünya, dünyada nə yaman sirlər var imiş, heç kim də bilmir. Bax bir, qulağımızın divində nələr olur, bizim də xavarımız yox. Deməli, İsfahanda bir qurd əmələ gəlif, hər yeri qutarıf, indi də bizə dadanıf.

Bu ara süfrə salındı, dünyanın nazı-nemətdəri ora töküldü. Genə də bajardıxlarınnan yidilər, içdilər, gejə bir müddət keçdi. Yatmax zamanı çatanda, Pəri xanım Dərvişə dedi: Dərviş baba, sənin yerini pərdənin o üzündə salmışıq rahatca yat.

Söyün gəlif Dərviş babasınnan dönə-dönə üzr istədi, dedi baba, icazə ver, mən də öz nişannımnan o biri otaxda dincəlim. Amma səni and verirəm inandığına, mənim sirrim sənin sirrin olsun, heç kəsə demə. Dərviş Söyünü arxayın elədi. Dedi, oğul, dərvişdərin qarnı sir dağarcığıdı, bu sirr də qarışsın onnara, mən elə adam döyləm, arxayın öz işində ol.

Səhər açıldı, Şah Abbas Söyünnən ayrılıb saraya gəldi, dərviş libasını dəyişif şah paltarını geyindi, Vəzir Allahverdi xanı yanına çağırdı. Dedi:

– Aya Vəzir, evin dağılsın vəzir. İsfahanda bir qurd əmələ gəlif hər yeri deşə-deşə indi də bizim haramxanamıza ayaq açıf. Vəzir dedi: Şah sağ olsun, heç nə başa düşmədim. Şah Abbas dedi, səni axşam başa salaram, özün gözünnən görərsən. Əmbə ağzını möhkəm saxla, sana dediyimi heç kəsə demə, özün də bir dəstə dərviş libası götür, axşam baravar gedərik hər şeyi öz gözdərinnən görərsən.

Vaxt ötdü, axşam tüşdü, şah Abbasnan vəzir Allahverdi xan dərvişlibas oluf Söyünün yanına gəldilər. Şah Abbas Söyünü görüf, ay oğul dedi, dünən axşam sənnən o qədər xoş üz gördüm kü, bu gün də yanına gələsi oldum. Mümkünsə, bu axşam da qonağın olax, sağlıq olsun, savahları İsfahanı tərk eləyəcəyik. Bu yanımdakı beli qırılmış da mənim kəndçimdi, qoşuldu mana. Mümkünsə, ona da bu axşam hayan ol, başına dönüm.

Söyün heç şey deyə bilməzdi, dünənki sirrini bildiyinnən on qonaq da gətirsəydi, qəbul eliyərdi. Odu ku, dedi dərviş baba, nə danışırsan, qonaq Allah qonağıdı, sənin dostun olar mənim dostum.

Bəli, bir az oturdular, çay-çörəkdən yidilər, olannan-qalannan Allah verənnən nə varıydısa. Elə bu vaxt gənə həmən dünən gələn iki qız peydah oldular. Şah Abbas vəzirin ayağını basıb dedi fikir ver, gör Pərinin yanındakı qızdardı. Vəzir istədi ki, səsini çıxartsın, şah Abbas onun biləyini sıxdı ki, axırını gözlə. Qızdar yenə də Söyünə üz tutuf Pəri xanımın ismarıcını yetirdilər ki, xanım deyir ki, bəs bu axşam niyə gecikir, tez gəlsin.

Söyün qızdara dedi ki, gedin Pəri xanıma deyin ki, dünən axşam qonağım biriydi, indi ikidi. Bağışdasın, bu axşam gələ bilmiyəcəm. Qızdar qayıdıf Söyünün sözünü Pəri xanıma yetirdilər.

Bir azdan qızdar genə qayıdıf gəldilər ki, bəs Pəri xanım deyir ona da qurvan olum, qonaxlarına da, hər ikisini də götürüf gəlsin. İstiyir on beş qonağı da olsa, hamısı qəbulumdu. Söyün dünənki kimi qonaxlarını da götürüf qızdarın dalınca yeraltı yolnan Vəzirin imarətinə getməyə başdadılar. Yolda şah Abbas Vəzirə dedi:

– Vəzir, bu həmən yolduku sənin təzə tikdirdiyin imarətin içinə girir. İndi dalısına bax!

Yeraltı yoldan çıxdılar, Pəri xanım əvvəlcə Söyünün, sora da dərviş babalarının üzünnən öpdü, şahı da, vəziri də qonağ otağına dəvət elədi. Vəzir bu əhvalatı gördü, əhvalı dəyişdi. Dedi: "Ay Allah tala, bu nə işiydi mənim başıma gətirdin". Nəsə, hirsini birtəhər uduf işin sorasını gözdəməyə başladı. Gənə də naz-nemətnən dolu sufralar açıldı, quş iliyi, can dərmanı hər nə istəsən var. Vəzirin boğazı tikili qalmışdı elə bil. Yeməkdən sora bir qədər söhbət, məzə, vaxt gəldi yetişdi, yatıb dincəlmək maqamı yetişdi. Gənə də Söyün gəlif dərviş babadan üzrhaxlıx dilədi, bu sirrin açılmamasını tavaqqa elədi. Şah Abbas deyir oğul, bu dərviş mənnən də sirr saxlıyandı, ölən günə qədər heç kimə açası döylü. Get öz kefində ol. Dərvişdər ikisi yan-yana, Söyünnən Pəri xanım da məzələnəməzələnə bu biri otaxta rəxti-xab oldular. İlan vuran yatdı, Şah Abbasnan Vəzir yata bilmədi. Şah Vəziri, Vəzir də Şah Abbası günahlandırdı. Şah deyir, axı, sən öz imarətini qoyub niyə qızına burda mülk tikdirirdin, bilmirdinmi bunun bir əmması çıxa bilər?

Vəzir də deyirdi: Mənim başım bəlkə xarab olmuşdu, bə sənin ağlına nə gəlmişdi ki, burada tikinti salmağa mənə icazə verdin. Nəsə, belə-belə bir-birini günahlandıra-günahlandıra səhər açıldı. Üstünüzə xeyirli sabahlar açılsın.

Səhər dərvişdər Söyünnən hallaşıf gəlif libasdarını dəyişif taxta çıxdılar. Şah Abbas fərraşdarı çağırıf əmr elədi ki, Qəndəhər Əhmədin tükəninnən Söyünü, bir də Vəzirin qızı Pəri xanımı hüzuruna gətirsinlər. Söyünü qolu bağlı sürüyə-sürüyə, Pəri xanımı da qabaqlarına qatıb Şah Abbasın hüzuruna gətirdilər.

Əvvəlcə Söyünü gətirdilər. Söyün meydanda yığılmış camahatı gördü, əli baltalı cəlladları gördü, ürəyi qubarradısa da, özünü tox tutdu. Tez cəlladlar onun paltarını çıxardıf qara libas geydirdilər. Meydana toplaşanların da heç hansının işdən xavarı yoxuydu. Hamının Söyünün cavanlığına, gözəlliyinə hayıfı gəlirdi.

Şah Abbas ayağa qalxdı, dedi: camaat, mən istiyirəm bu cavan oğlanı bu gün İsfahan camaatına qurvan kəsim. O, bizim qurvanımız olmalıdı. Söyün baxdı ki, hökm verilənnən sora onu dəyişdirmək çətin olajax. Odu ku, deyir Şah sağ olsun, izin ver ölməzdən əvvəl sinəmə bir-iki xanə söz gəlif onnarı saznnan deyim. Şah icazə verdi. Görək Söyün nə dedi:

Bizə böhtan atıb, böhtan deyənlər,
Axtarıf dərdinə dava bulmasın.
Məhşər günü ağ ələmin dibində,
İki dərviş, heç nəsliniz gülməsin.

Dizdərin titrəsin, qarnın cırılsın,
Ağ əllərin əlvan qanı yaxılsın.
Əzəl gələn dərviş, öyün yıxılsın,
Mən istərəm bu qalmağal olmasın.

Başıma qoymuşam külahi xası,
Geydirin əynimə ölüm livası.
Şahım, budu Söyünün duvası,
İki sevgi bir arada ölməsin.

Söyün sözünü tamam elədi, dilnən də Şaha yalvardı ki, şahım, məni öldürün, xahiş eliyirəm, Pəri xanıma toxunmuyun. Mənəm bu işdərin günahkarı. Mən olmasam, bu işdər də olmazdı. Şah dedi, ele şey yoxdu, əvvəlcə Pəri xanım öldürülməlidi, çünki onun razılığı olmasa, bu biabırçılıqlar da olmazdı. Söyün baxıf gördü ki, Şah dediyinnən dönmür, odu ku, ağlaya-ağlaya sazını götürüf görək nə dedi:

Başına döndüyüm, ədalət şahım,
Şahım, öldür məni qoy qız ağlasın.
Sahibim, sərtacım, ey qibləgahım,
Şahım, öldür məni, qoy qız ağlasan.

Xaneyi-nişinsən, eylə inayət,
Qibleyi-aləmsən, şahı-səltənət.
Əl mənim, ətək sənin, bimürvət,
Şahım, öldür məni, qoy qız ağlasın.

Hüseyn deyər yarı gördüm beydamaq,
Gözü sərxoş, sinə bəyaz, gen qabaq.
Qoyma düşsün əndəlibdən gül iraq,
Şahım, öldür məni, qoy qız ağlasın.

Şah fikirləşdi ki, oğlanın gözünün qavağında qızı öldürsə, Söyünə yaman zulumdu, bir tərəfdən də Vəzirə baxdı gördü kü qızının dərdinnən ürəyi gedif söykənif bir tərəfə. Onunçun da dedi ki, Söyünü öldürsünlər. Söyün ölüm qavağa götürdü görək şahdan nə dilədi. Dedi şahım, ürəyimə daha bir-iki kəlmə söz gəlif, öldürürsən, zülm elərsən, bağışdarsan, kərəm elərsən, qəriblərin köməyi Allah olsun, – deyəndə şah fikirləşdi

ki, bu Qəndəhər Əhmədin oğludu, qərif deyəndə görünür burda iş var, bu heç onun oğlu döylü. İzin verdi. Söyün başdadı:

Əzəl gələn dərviş öyün yıxılsın,
Çəkifnən gətdilər dara Hüseyni.
El yığılıf, təmmanasın eylədi,
Saldılar atama, nara Hüseyni.

Mənə nələr oldu beylə baxannan,
Şirin canım ataşlara yaxannan.
Zalım cəllad, nə tutufsan yaxamdan,
Salıfsan zindana, dara Hüseyni.

Bu günümdə gələ nənəm Xeyransa,
Yola zülflərini anam Mələknisa,
Əlim də yetmədi babam Abbasa,
Eyliyə dərdinə çara Hüseynin.

Şah Abbas sözə fikir verdi: "nənəm Xeyransa" "anam Mələknisa", "babam Abbasa". Ay dili qafil, bu kim ola? Odu ki, soruşdu Söyünnən, dedi o addarını şəkdiyin adamlar kimdi ki, belə yanıxlı-yanıxlı oları dilinə doluyursan, özün haralısan?

Söyün dedi, Şahım, mən Luj şəhərinnənəm, Xeyransa nənəmdi, Mələknisa anamdı, Abbas da atamdı. Şah öz-özünə dedi ki, dünyada o qədər belə oxşarlıqlar, təsadüflər olur ki, bu adını çəkdiyi mənim qohumlarım olmaz. Yarı şübhəli, yarı doğru ürəyində bir ağrı yarandı, dedi, camaat, sizi yığmışam bura tamaşıya, ama istəmirəm belə gözəl oğlanın ölümünü görüf qanınız qarala, yaxşısı budu, cəlladlar aparıf onu dərələrin birində öldürsünnər, qannı köynəyini gətirsinlər.

Bəli, şah Abbas beləjə oğluna ölüm hökmü verdi, iki qoldan yoğun cəllad Söyünü qavaxlarına qatıf şəhərdən aralandılar. Gəlif bir yerə çatdılar, Söyünün üst paltarını çıxardıf üzünü qibləyə tutdular. Söyünün alt köynəyini çıxaranda qolunda bazubənd göründü. Cəlladın biri çox bilmiş, çox görüb, çox götürmüş adam idi. Bazubəndə baxanda gördü ki, elə bir şeydi ki, bunun misli barabarı yoxdu. O biri cəllada dedi ki, ayə, öyün dağılsın, bu oğlan hələm adamın oğlu döylü, hər kimsə, böyük padşah oğludu, bu bazubəndin adı "dəryeyi-nurdu". Bu, olsa-olsa yer üzündə iki-üç adamda olar. Gəl bunu öldürməyək, axırda xatası çıxar. İndi Şah Abbasdı, ajıxı tutuf, savah ajığı soyusa, xavar alıf bilsə ki, bu kimdi,

kimin oğludu, onda bizim dərimizə saman təpər. Oduku, bazubəndi açıf oğlanın paltarını geyindirdi. Söyünü də aparıf bir xəlvəti yerdə gizlətdilər. Dedilər, Şah xəbər alsa ki, öldürdünüzmü, deyərik "hə", əgər hirslənif bizi cəzalandırmaq istəsə ki, niyə öldürmüşük, onda gətirif təhvil verərik, bizə çoxlu ənam verər. Elə də elədilər. Qoca cəllad iki-üç gün padşahın gözünə görünmədi. Bir gün padşah onnan xəbər aldı ki, cəlladlar, cavan oğlanı öldürdünüzmü, cəllad cavab verdi ki, Şah sağ olsun, öldürdük, amma hayıf elə gözəl oğuldan, özü də qolundan gör nejə bazubənd açdıq. Padşah bazubəndə baxıb öz nişanəsini tanıdı, ürəyi getdi, yıxıldı. Üz-gözünə su səpdilər özünə gəldi. Dedi, evin yıxılsın cəllad, evimi yıxıf, oğlumu öldürdün. Cəllad təzim edib dedi ki, şah sağ olsun, biz nə cürət edif sizin bazubəndiniz qolunda olan adamı öldürərdik. Oğlunuz sağdır. Gətirmişik özümüznən.

Ata-bala bir-birinə sarmaşıb həm ağladılar, həm güldülər. Saray əyyannarı, vəzir-vəkil hamısı toplaşdılar, işdən halı oldular. Şah Abbasa gözaydınlığı verdilər. Şah Abbas vəzir Allahverdi xanı çağırıf dedi toya hazırlaş, bu günnən Pəri mənim gəlinim, sən də mənim qudamsan.

Toy başdadı, addı-sannı aşıqlar, xanandalar 40 gün, 40 gejə çalıb oxudular. Luj şəhərinə çapar gedif Söyünün anasını, nənəsini, babasını da bu toya gətirdilər.

Aşıqlarımızın yaradıcılığından

Aşıq Şahniyar Gədəbəyli

BULAQ

Nə zamandı ayrılmışam,
Halım olub yaman, bulaq.
O yollarda yorulmuşam,
Talan olub yolun, bulaq.

Qayaların dinməz olub,
Güneylərin gülməz olub.
Qonaqların gəlməz olub,
Hanı sənin elin, bulaq.

Cığırlarda izim qalıb,
Deyilməmiş sözüm qalıb.
Şahniyaram, gözüm qalıb,
Uzanmayır əlin, bulaq.

BU DAĞLARIN

Qayğısıynan boy atmışam,
Naləsi var bu dağların.
Qoynunda mən çox yatmışam,
Laylası var bu dağların.

Çiçəyindən çələnk düzdüm,
Dilbər guşəsində gəzdim.
Lalasına şeir yazdım,
Lalası var bu dağların.

Şahniyarın yolu bağlı,
Dağ sinəli dağlar oğlu.
Bir canı var sana bağlı,
Balası var bu dağların.

Mövlud SÜLEYMANLI
Xalq yazıçısı

YER ÜZÜNƏ MƏKTUB...

(əvvəli 4(11) 2012-ci il, 1(12), 2(13) və 3(14) 2013-cü il tarixli saylarımızda)

Xalça bayatıları...

Dilimin andı hana,
Dizimin bəndi hana,
Yaxşı toxun, tez kəsil,
Dolanım kəndi, hana.

Darağım, ay darağım,
Həvək dəstə yarağım.
Can kitabım oxunub,
Qalıb bircə varağım.

Cehizim gəvədəndi,
Yunu yüz dəvədəndi.
İlmələr çiçək-çiçək,
Kirkitdən, həvədəndi.

Maralın izi hanı,
O qaragözü hanı.
Kirkit, sən buynuzusan,
Bəs maral özü hanı?

***

Vaxt özünü bir də nəsillərin dəyişməsində göstərir. Nəsillərin dəyişməsi əslində Vaxtın dəyişməsidir. Belə bir ifadə işlətmək olar; məsəl var,

"qardaşını tanıyırsanmı? Deyir, yoldaşlıq eləməmişəm"... Bu mənada *nəsillər də Vaxtın yol yoldaşıdı*. Vaxt yoldaşlıq etdiyi neçə belə nəsillərdən keçib gedər, ayaq izlərini, görüşlərini, baxışlarını, ən əsası, qanunlarını-qaydalarını qoyub gedər, əgər bir-birini əvəz edən nəsillər öz yaşadıqları tarixi həm də anlayırlarsa və yaşada bilirlərsə, biz də nəsillərin yaşadıqları *tarixi izləri* oxuya biliriksə, bu, TARİXDİR.

Bu mənada gənc nəslin, yəni cavanların yazılarını – şeirlərini, nəsr əsərlərini oxumağa başladım, düşüncələrini izlədim ki, bəlkə mən də öz yazımın yeni havasını ala bildim... yox, gənclərimizin çoxu hələlik özlərindən başqa heç kəsi görmürlər, daha doğrusu, görə bilmirlər, çoxu ayağının ucundadı, səsə-küyə boylanırlar ki, görsünlər harda nə var. Görmək üçünsə düşünmək lazımdı, bizim gənclikdəsə özünü soyundurmaq meyli yaranır, hisslərinin, duyğularının, dünyagörüşünün, ən acısı, ağrılısı tərbiyəsinin üstünü açmaq... elə bilir, bununla nəyisə görə biləcək... Bu meylə, bu düşüncəyə görə də çox gənc adamın yaddaşını bom-boş gördüm, *bu yaddaşsızlığa görə də onların üstündə Vaxt ilişib qalmır, onların oxuduğum yazılarında da Vaxtı görə bilmədim.* Bunu təxminən də olsa özləri də bilməmiş deyil. Boş yaddaşla, yəni yaddaşsız yaşamaqsa olmaz, tələsə-tələsə nə gəldi yaddaşlarına doldurduqları da ona görədi... Yaddaş dediyimizsə əslində milli ruhumuzdu, yaddaşımız necədisə, elə də görünürük. Bu cür şeylərdən danışanda da başlarını tutub qaçırlar. Amma hələ bilmirlər ki, heç yana yox, özlərinə qaçırlar. Çünki insanın özündən başqa yana gedən bütün yollar bağlıdır...

Midiyanın sonuncu şahı Astiyaqın öz sərkərdəsi Qarpağa dediyi "axmaqlıqlar"sa anlayan üçün dərslikdən başqa bir şey deyil...

Mən, əlbəttə, milli ruhlu, yəni, yaddaşı olan gənclərimizi də gördüm və sevindim, dərindən nəfəs dərib yazıya başlaya bildim... Yaddaşı – milli ruhu olan gəncliyimizin nəfəsini-ritmini duydum.

Ağlım kəsəndən özümüz haqda belə eşidirəm: "biz triximizi yazmamışıq". Millət haqqında söz düşəndə həmişə belə deyiblər: "biz tarixi yaratmışıq, amma tarixi yazmamışıq". Mən belə düşünmürəm. Tarix yalnız yazıya alınmaq üçün, yazıya alınmanın xətrinə yaradılmır. Söhbət yalançı tarixlərdən gedə biməz. Biz hamımız – Yer üzünün insanları, asanca razılaşarıq ki, belə tarix yazanlar və belə yazılmış tarixlər var.

İndi bu haqda fikirlərimi, özümü səsi batmış kimi hiss eləsəm də, anlayanların olacağına inanıb yazıram. Bədiilikdən qaçmaq... düşünürəm ki, bu gün bər-bəzəyin yeri deyil, yazdıqlarımı və yazılanları, ümumiyyətlə Yazıçılar İttifaqının qurultaylarında gördüyüm üzləri, teleşoulardakı burcutmaları unudub *yazmaq*.

Dediyim kimi, tarix yalnız kağıza yazılmır, tarix daşlara da yazılır. Yalnız daşlara da yox, dağlara, sulara, torpağa yazılır. Daha dərinlərə və dəqiqliyə getsək, xalq tarixini həm də öz içinə yazır. Bunu əsas götürərək belə bir qənaətə gələk: *tarix hər şeydən əvvəl içlərə yazılır.* İnanaq ki, *şərəfli, şərəfsiz tarixlər milli xarakterləri dəyişə bilir.* Xalqın yaratdığı tarixin xalqın xarakterində də dərin izlərlə yaşadığı təsadüfi deyil. Cürət edib çəkinmədən deyə bilərəm ki, əsl **Tarixi** xalq yaradır. Belə desək də doğru olar; tarixi güclü xarakteri olan, mənəviyyatca zəngin, istedadlı xalqlar yaradır və yaşadır.

Su yatağından çıxanda daha asanlıqla axar, çünki ətrafına yayılır, yayıldıqca dayazlaşır, yeni, yad torpaqlara hopa-hopa axır, bilmir ki, bu, onun yox olmağıdır. Özünün də xəbəri olmadan bir zaman doğrudan da yoxa çıxır. Tarix də belədir, "yatağından" çıxdı, yox olur, çünki artıq gerçəyi ifadə etməyəcək...

Yer üzündə hər şeyiylə – ədəbiyyatıyla, incəsənətiylə, musiqisi, adət-ənənəsi – gələnəkləriylə maraqlı xalqlar çoxdur. Bütün bu maraq axır üstümə, bu da dünyagörüşüdür ki, adına TARİX də demək olar və elə belə də deyilir.

Tarix yalnız ölümlərlə, qırğınlarla, qan-qadayla bağlı deyil. Tarix yaratmaq, qurmaq təntənəsiylə də bağlıdır.

Bunu da etiraf edək ki, tarixdən qıraqda qalan, dediyimiz ziddiyətlər, qırğınlar, təntənələr axınında adı çəkilməyən xalqlar da olub, indi də var. Bu xalqlar tarixin içində olmasalar da, elə qıraqdaca oğrun-doğrun özlərinə tarix düzəldiblər... Tarixləri öz istəklərinə uyğun söküb dağıdan, yazılanları, yapılıb yaradılanları yenidən quran və qurmağa cəhd edən, bir sözlə, tarixi saxtalaşdıran xalqlar zaman-zaman *gözə kül üfürüblər* ki, gerçəyi görən olmasın, xalqın özü demiş, *"bulanıq suda balıq tutmaq asandır..."* çox sular bulandırıblar... (Biz bu mənzərəni bir çox qonşu xalqların tarixçilərinin yaradıcılığında gördük) Bütün bunlara görə dedim, *əsl tarix xalqın iç aləminə yazılanlardır.*

Ona görə də bir daha qeyd edim ki, tarixi saxtalaşdıran xalqlar olub və var, amma deməliyəm ki, saxtalıqları əslində *xalq* etməz, xalqın arasında olan ictimai-siyasi tamahkarlıq, paxıllıq, *ayrılıqlar, mövqelər, mənafelər, münasibətlər* törədir; xalq adına mənəvi, siyasi terrora cəlb edilən öyrədilən insanların münasibəti saxtalıqlar yaradır, yalnız bir ideoloji qurumun öyrətdikləri yox...

Bu işi bütün dünyada olduğu kimi, Qafqazda da əsasən dini məktəblər həyata keçirtdi. Yəni kilsələr və məscidlər... bizim eranın VI-VII yüzilliklərindən başlayaraq Azərbaycan ərazisində bütün mənaların, mahiyyətin – geyimdən tutmuş, ada, soyadacan, dəyişməsi yönündə

məscidlər çalışdı, iş gördü, demək olar ki, müəyyən mənada istədiyinə də nail oldu... minilliklər boyu yaratdıqlarımızdan elə üz döndərdik ki, indi bizim olduğuna belə inanmırıq. Amma bizim eranın başlanğıcında artıq azərbaycan türkcəsi ən azından bütün Qafqazda ana dili səviyyəsindəydi. Kəndlər-kəsəklər, ellər-obalar türkcə səslənirdi. Midiya-Maday kimi qüdrətli bir dövlət demək olar ki, elə öz əli, öz qılıncıyla doğranıb Nineva atlarına baxan mehtərlərin əlinə keçmişdi. Min ildi... yəni bizim eradan əvvəl V əsrdən min il keçmişdi, amma istilalara, qarətlərə, dağıntılara, baxmayaraq Midiya dövləti tarixi fakt kimi hələ də aradaydı; yəni, özü çöksə də, yaradtdıqları qalıb yaşayırdı, – tərbiyələrə, müxtəlif xalqların milli əxlaqınacan təsir edib onu dəyişdirirdi; tikililəri, qalaları yaşayırdı, Qğuz-Quz-Kas-Qız adında əbədi, pozulmaz, əvəzedilməz varlığı-görkəmiylə anlayanlara hələ də ozünü olduğu kimi təqdim edirdi, indi də etməkdədir. Şumerdən üzü bu yana yuxarıda adını çəkdiyim dövlətləri-mizin mahiyyətini özündə saxlayan və ehtiva edən qüdrətli, möhtəşəm Midiya elə belə yox olub getməzdi; düşüncələrdə, yaddaşlarda özündən asılı olmadan mənimsədiyi, özününküləşdirdiyi başqa xalqların belə ya-şam tərzində hələ də vardı, dağların, daşların, yerlərin, yurdların adında yaşamaqdaydı. Midiya mağlarının-kahinlərinin yaratdıqları ayinlər əslin-də dəyişməmişdi, sazın ruhunda el-el, oba-oba dolaşırdı, şaman, qam, ozan, varsaq, yanşaq, aşıq adında ruhları dindirirdi. Muğamlarımız Ma-day kahinlərinin yaratdıqları Tanrı əsərləriydi, belə anlaşıqlı, bu cür içə-bağlılığı da, qaibanəliyi də ona görədi... İndi XXI yüzilliyin bu məssəb-sizliyində muğamlarımızın adına moltanıca, farsca nə gəldi dediyimizə baxmayaq, hamısı ruhumuzun minilliklərdən qalma səslənməsidir. Əlbət-tə, bu şəkildə, mənimdi, deməklə deyil. Amma faktdır ki, bu Tanrı əsərlə-rinin tamını-bütövünü biz bilirik, bizim onu yaratdığımızı, başqalarınınsa ancaq öyrənə bidiyini sübut etmək olar. Başqa xalqlarda bu dahiyanə əsərlər öz dəstgahı-tapşırmasıyla deyil, parçalar, fraqmentlər şəkilində yaşayır. Bizim üçünsə bütün dövrlərdə hər hansı bir muğam əsərinin elə belə, necə gəldi yox, sözün əsl mənasında sirri-sehriylə ifa olunması tə-biət hadisəsi kimi təsirli olub... Sadəcə, indi bizim özümüzün öz yaratdıq-larımızdan xəbərimiz yoxdur... olanlarımızın da əsl mənasnı itirmişik... Biz indi bilmirik ki, ayrı-ayrı saz havalarımız, muğamlarımız da abidələ-rimizdir; Kas-Quz-Qız, Koroğlu qalaları kimi, suyu, torpağı, işığı, havası kimi, yüz illiklərdir başqalarının ola bilməyən yurdlarımız kimidirlər... Neçə yüz illərdir Sibir rusun ola bilmir, daha doğrusu, rus siyasəti Sibiri özünə oxşada bilmir, ayıq, sağlam heç nə qalmasa belə, Sibir elə Sibirdir... Yaxın tariximizə baxın, yüz illərdir Rusiya dövlətinin müstəmləkəçilik siyasəti cənublu şimallı Qafqazın başına nə oyunlar

açdı, yenə heç nə edə bilmədi. Bəlkə də yaxşısı budur, çünki Yaradan nə yaratdığının fərqindədir. Təbiətin də üzü yaratdıqlarına görə gülür...

Amma biz minilliklər boyu yaratdıqlarımızın çox vaxt mənasını anlamadığımızdan onu qorumaq haqda düşünməmişik. Çünki su kimi yatağından çıxıb gerçəkləri ifadə etməkdən uzaqlaşan *TARİX* artıq siyasiləşib siyasətə qulluq etməyə başlamışdı... Bir şeyi dəqiq anladıq, gec də olsa əmin olduq ki, siyasətsiz heç nə yoxmuş*, anladıq ki, hər şeyin, ən kiçik hadisənin belə siyasi məntiqi, düşüncəsi var. Nəinki hər hansı bir xalqın, adicə bir ailənin, bir evin də* öz siyasəti mövcudmuş.

Səhv etmirəmsə, siyasət sözü ərəb sözü olub quruluş mənasına yaxındır. Siyasət – siyasi düşüncə həm qura bilər, həm yıxa bilər. Uğurlar da, uğursuzluqlar da, savaş da, barışıq da siyasi bacarıqdan, siyasi anlamdan asılıdır. Baxmayaraq, bir çox yazıçılarımızdan soruşsan, deyər, – yox, mən siyasi əsər yazmıram və yazmamışam. Amma mən düşünürəm ki, siyasətdən uzaq heç nə yoxdur, bir cümlənin belə əsaslandığı siyasət var. Dediyimiz *sözün canı* elə onun siyasətidir.

Fikrimi davam etdirib onu da deyə bilərəm ki, zəif əsərlər də ona görə zəifdir ki, siyasi məntiqi səviyyəsizdir. Obyektiv deyil, haqqı arada görmür, gerçəkdən uzaqdır...

Kirpiylə Dovşanın yarışması..

Günlərin birində kirpi dovşana deyir, gəl ötüşək, kim mənzil başına tez çatsa, uduzan gündə iki kərə yeməyini ona versin. Dovşan sevindiyindən əlini-əlinə sürtüb razılaşır, ötüşürlər. Dovşan bir deyəndə mənzil başına çatır, görür ki, kirpi ordadı. Məətəl qalır, çığır-bağır salıb bir də ötüşək deyir. Ötüşürlər, dovşan bu dəfə daha bərk qaçır, gedir görür ki, kirpi yenə mənzil başındadı, onu gözləyir. Bu minvalla dovşan nə qədər qaçdısa, kirpini mənzil başında gördü. Belə də olacaqdı; çünki kirpi *oynaşını* mənzil başına qoymuşdu, hərəsi mənzilin bir başındaydı.

Bu məsəldən sonra *erməni hərəkatına diqqət edək...*

Fikir verin, tarixdə "erməni məsələsi" kimlərə lazım olub. Bu məsələ zaman-zaman niyə ortalıqdadır və niyə aradan çıxmır? Daha doğrusu, ermənilər hansı siyasi meydanlarda oynadıblar və oynadırlar. Rus imperiyası öz işğalçı məqsədləri üçün ermənilərdən niyə istifadə edib, niyə indi də öz oyunlarından əl çəkmir. Artıq bu suallar gizlində deyil, cavabı da bütün aydınlığıyla üzdədir. Məsələ burasındadır ki, kim onu necə anlayır... Təxminən iki yüz il öncə rus dövləti ermənilər niyə Qarabağa yerləşdirdi, bu bicliyi, bu siyasi uzaqgörənliyi anlaya bildikmi. Anlaya bilsəydik, altını, ağrısını çəkməzdik.

Düşünək... Niyə biz? Niyə İrandan, Turandan ermənləri bizim torpaqlara, yurdlara köçürdülər? Niyə ancaq bizim torpaqların hesabına Ermənistan dövləti quruldu. "Zəncir zəif halqasndan qırılar", biz bu oyunları zamanında anlaya bilmədik, milli təəsübkeşliyimizin zəifliyindən üstümüzə atılan addımların heç birinə ağılla cavab verə bilmədik. Xalqın öz diliylə deyək: *"Ac başım, salamat başım", "azacıq aşım, ağrımaz başım", ona görə də "mənnən ötdü, qardaşıma dəydi"... Osmanlı dövləti səviyyəsində də bu məsələyə düzgün yanaşılmadı. İranda Qacarlar sülaləsi hakimiyyətdəydi, Çar Rusiyasının atdığı siyasi addımların güddüyü məqsədi düzgün qiymətləndirmədilər...*

Qafqazı Türkiyənin təsirindən qurtarmaq, onsuz da xanlıqlara bölünmüş Azərbaycanı parçalamaq, özünün nəhəng ayaqlarını qoymaq üçün yer açmaq lazım idi Rusiyaya ki, ermənlərin vasitəçiliyiylə bu işi gördü... Ermənilərin bu yerlərə köçürülməsi Rusiya üçün hər cəhətdən əlverişli idi. Ermənilərin yeri-yurdu yox idi ki, sınırını-sərhəddini qorumaqla məşğul olaydı, torpağı yox idi ki, əkib becərəydi, şəhəri yox idi ki, başı bir yerə bağlanaydı. Ona görə də gözü orda-burdaydı, bununla bağlı çox iri dövlətlərə əl açmışdı; kilsə kitablarındakı *yalançı tarixin Dənizdən Dənizə* dediyi yeri-yurdu hələ də arayıb axtarırdı. Kilsə onu o qədər inandırmışdı ki, dənizdən dənizə böyük Ermənistanın yoxluğuna inanmaq istəmirdi. Bilmirdi ki, *yalanın heç vaxt ayağı yerdə olmur,* ona görə də *yalanı* tapmaq mümkün deyil.

Onu deyək ki, yurd yarananda onun qalası, şəhəri, kəndi yaranır, sözü-sovu yaranır; nağılları, dastanları yaranır, içlərə – xalqın daxili aləminə yazılmış yalanlardan uzaq etnoqrafik duyğuları, baxışları doğulub formalaşır. Ona görə də su oxşarlığı, torpaq oxşarlığı anlayışı var, yurd başqasının ola bilmir, onu zəbt eləsə, işğal eləsə də, özünə oxşada bilmir. Bəs, boş yerə deyilmir ki, ermənilərdə Qafqaz xarakteri yoxdur. Onunçün də Rusiya kimi dövlətlər asan ələ gəldikləri üçün ermənilərdən öz siyasi maraqları üçün istifadə etməkdədirlər. Yəni, dovşan hələ çox qaçacaq; həmişə də *kirpi oynaşıyla mənzil başında olacaq...*

Balığın susuz yaşaması...

(El arasında deyilənlərə görə)

Balıqçı gəmilərində o zamanlar ki, soyuducular yox idi, ovlanan balıqlar xarab olmasın, diri qalsın deyə, gəmidə ac pişiklər saxlayırdılar. Tutulan balıqları diri-diri göyərtənin əl çatmayan yerindən asardılar, ac pişikləri buraxardılar üstünə. Amma pişiklərin əli balıqlara çatmazdı. Pişiklər yemək gördükləri üçün sağ qalardılar, balıqlar qorxusundan...

***

Bu gün şadlıq saraylarında keçirtdiyimiz **toylar** görün nə kökdədir! Elə bil dünyaya yenicə gəlmişik; yenicə gəlmiş kimi kasıbıq, nə musiqimiz var, nə sazımız, nə sözümüz... Görün, ağabəyimizi, xatun gəlinimizi indiki toylarımızla nə günlərə qoymuşuq... heç biri özünə yer tapa bilmir, çünki o quruluşda bəylə gəlinə yer düşünülməyib, ayrıca masa ayrılsa da, heç özümüzə də yer yoxdur, özümüzə oxşamamağımız da ona görədir. Toy evində başımıza yağan səs-küyü, oxunan mahnıları, çalınan musiqiləri, hətta alxış-xeyir-dua adına deyilən sözləri belə yaşadığımız minilliklərin heç birində eşitməmişik... Mən bu halımıza çox yer ayırmaq istəmirəm, çünki bu hala düşməyimizin səbəbləri o qədər üzdədir ki, yanımızda, özümüzdə, aramızdadır, deyə bilərik. Yəni, biz yox, VAXT-ZAMAN bizə toy tutur, toy çaldırır. Biz özümüzü atdıq bir qırağa, özümüzdə olanları bəyənmədik, kimlərəsə bənzəməyə çalışdıq və çalışmaqdayıq, yuxarıda dediyim kimi, bu, bizim soyunmağımız idi. Bu ifadəylə sözün hərfi mənasında fiziki soyunmağı nəzərdə tutmuram, iç çılpaqlığı, mənəvi kasadlıq olduğunu anlamağımızı istəyirəm. *Düşünək...*

Son onilliklərəcən toylarımızın quruluşu bu millətin dərk etdiyi öz fəlsəfi görüşlərinə, milli anlayışına əsaslanan mərhələlərdən ibarət idi; yəni, qız bəyənmək, oğlan seçmək, elçilik, yeni qohumluqda bir-birini anlamaq, evlilik, yeni ailənin qurulması, ailə anlayışı da yuxarıda dediyim kimi, təbiət hadisələrinə bağlıydı, hər şey bir-birini təbiətdə – Yaranışda olduğu kimi tamamlayırdı; yəni, bu xalq döyüş, savaş havalarını, nəğmələrini unutmamışdı, döyüşməsə də, oxuyurdu, bu nəğmələr, çalğılar onu kökdən düşməyə qoymurdu, ona görə də həmişə döyüşə hazır idi... Yaylağın yaylaq, Aranın aran havaları olduğu kimi, At-Cıdır havaları da var idi ki, kənddə bu havaya kəhərlər qanadlanardı. Güləşəngi adlanan ayrıca güləşmək havası vardı, doğrudan doğruya, xüsusən də yeniyetmələri havalandırırdı, suya, işığa böyüyəntək böyüdürdü. Əkin-səpin nəğmələri, çalğısı olduğu kimi, toy nəğmələri, çalğısı da vardı ki, bu haqda danışmağımız bu günlər üçün çox vacibdir...

Sevib-sevilməkdə bütün minilliklərboyu sərbəstlik, genişlik, səmimilik hökm sürüb. Bu gün xalqın yaratdıqlarında bunu aydın şəkildə görüb anlamaq mümkündür...

Minilliklərdən misal...
Tapmacalar-bağlamalar...
(elçilik)

Maday şahı qızını ərə vermək istəyirdi. Gözünün ağı-qarası bir dənə qızı vardı. Qızın adı da elə Birdənəydi. Şah qızına elə belə də dedi:

– Birdənəm, Vaxtdı, ərə getmək haqda nə düşünürsən?

Qız dedi:

– Sevəcəyim oğlanı özüm bəyənib seçməliyəm...

Maday şahının qızı ağıllı, bilikli, tədbirliydi; şah onsuz bir iş görməzdi... Ona görə də qızın sorağı ətraf ölkələrə də yayılmışdı. Adı dillərdə əzbər idi...

Günlərin birində belə bir əmr oxundu:

– Maday şahının qızı Birdənəylə kim evlənmək istəyirsə şah meydanına gəlsin... Birdənə meydanda sevgilisini özü seçəcək...

Beləliklə, nəinki Maday elindən, dünyanın bütün ölkələrindən igid oğlanlar Şah meydanına at sürdülər, yarışdılar, döyüşdülər, amma Birdənənin tapmacalarından heç kəs sağ çıxa bilmədi...

Aradan illər keçmişdi, amma atlılar yenə gəlməkdəydi...

At yarışı təyin edilmişdi. Bu at yarışının qaydasını Birdənə özü bildirdi; kimin atı birinci yox, sonuncu gəlsə, o, mənim ərim olacaq... birinci yox, sonuncu.

Birinci yox, sonuncu... necə ola bilər?!

Ağ, qara, kəhər atlardı... Çaparlar eyni cür geyiniblər, bir birindən seçilmirlər, ancaq atlara görə seçilirlər; ağatlı, qaraatlı, kəhər atlı...

Dəmir dəbilqələr, polad üzlüklər geyib, qılınc-qalxan taxmış üç igid bir yedə ilişib qalmışdılar, irəli çıxan atının başını çəkirdi ki, sona qalsın. Çünki, ancaq sona qalan Birdənənin sevgilisi olacaqdı...

Atlılar çaş-baş halda bilmirdilər neyləsinlər... Şah vəzir-vəkilləriylə, Birdənə qırx incəbel qızla meydanın yuxarı başında, el-elat aşağı ayaqda tamaşaya durmuşdular. Meydanda atlılar gedə bilmədikləri üçün atlarından enib çarə fikirləşirdilər...

Bu vaxt dəvənin belində bir ağsaqqal cıdır yoluna çıxdı, atlıları bu halda görüb məsələdən agah oldu, elə ordaca atlılara nə dedisə, atlılar tələsik atlara minib çapdılar... Ag at sonuncu yeri tutdu, ag atın yiyəsi Birdənənin sevgilisi oldu...

Tapın görək, ağsaqqal atlılara nə deyə bilərdi?

Döl məktəbi...

Döl ayı qoyun-quzunun doğum ayına deyilir... Döl məktəbi də döl ayında açılır. Döl ayında, deyərlər, kənddən-kəsəkdən **süd qoxusu** gələr. Döl ayı əsasən boz aya düşür, yəni yanvarın yarısından martın yarısınacan uzanır. El arasında deyərlər, döl ayında analar balalarını çox istəyər. Uşaq mehirli, yəni uşağını çox istəyən gəlinlər uşagının ardınca dolananda deyərlər, *döl ayınamı düşmüsən, uşağı ərkəsöyün böyüdəcəksən*... Ona görə də məsəl var, " ağacı kökündən qoru, uşağı ərköyünlükdən...

Döl ayı tərəkəmə məktəbinin sınaq, təcrübə ayıdır, əgər bir tərəkəmə döl ayının nə demək olduğunu bilmirsə, tərəkəmə deyil. Tərəkəmə suyu, torpağı, otu-çiçəyi necə anlayırsa, dölü də elə anlayır; həmişə ona hazırdı, səhv etsə dölü baş tutmaz, o, bu dərsi keçməlidir...

Bu, həm də qoyunların *yelin çağıdır*, yelin çağında qoyunları soyuqdan qoruyurlar. Deyərlər, döl çağı qoyunun yelini soyuğa açıqdır, soyuqdan gözlə. Quzulayandan sonra həlim içirdərlər, *südü durulanacan.* Çünki doğuşdan sonra qoyunun südü qatı olur, buna *ağız bulaması* deyirlər, arpa həlimi qoyunun südünü duruldur...

Quzu doğulan kimi gərək anası yalayıb quruda, anası yalamasa, quzunun dərisi açılmaz. Elə qoyunlar olur, quzusunu yalamır, onda deyərlər, *quzu quru qaldı*, yəni yalanmadı. O zaman qoyunu duzla aldadırlar; quzunun üstünə azacıq duz səpirlər, ana balasının üstündən duz yaladıqca öz iyini, içinin qoxusunu tanıyır, quzunu qurudur…

Döl ayında ölüm-itim çox olur. Bu da hər hansı bir **tərəkəmə** üçün, tərəkəmə dolanışığı üçün itgidir, çox ağır, çox ağrılı bir işdir həm də… Bir qoyunun balası ölür, bir quzunun anası. Onları ana-bala etməkçün **teləkçi** çağırılır. Tərəkəmələr arasında teləkçilər vardı, daha doğrusu, teləkçi mütləq olmalıydı. Əgər bir qoyun balasız, bir quzu anasız qalırdısa, bu, artımın dayanmasıydı. Anasız quzunun sağ qalma etmalı az idi. Balasız qoyunsa, azından süd vermirdi, süddən kəsilirdi. Ona görə də onları, yad ana-balanı bir-birinə bağlamaq üçün **teləkçi** çağırılardı…

Teləkçi gələn kimi birinci göstərişi bu olardı:

– Bunları qarıblığa aparın, (qəribçiliyə) təkliyin, tək qalsınlar, darıxmalıdılar.

Mən yazının bu yerində çox sevdiyim bir xalq mahnısını xatırladım...

Aman kəklik əlindən,
Zülüm kəklik əlindən.

Baş götürüb gedəydım,
Mən bu təklik əlindən..

Deməli düzgün anlaşılsa, yalqız, tənha, tək qalmaq da bu xalqın düşüncəsində mənalar, anlayışlar daşıyır... Amma çox təəssüf ki, indi bu mahnının sözlərini düzgün oxumurlar; təklik əvəzinə kəklik deyirlər:

Baş götürüb gedəydim,
Mən bu kəklik əlindən,-bu cür oxuyurlar. Əgər müğənni bu iki beytin fərqini anlamırsa, oxuduğu nə olmalıdır?

***

Sözümüzü unutmayaq, yeri gəlmişkən bu fikri aydınlaşdırmaq üçün qardaşımla bağlı bir görüşü də danışım...

Azərbaycan Dövlət Universitetində oxuyurdum, 1960-cı illərin ortalarıydı, yay tətilində kəndə getdim, ordan da qardaşımın yanına, – yaylağa qalxdım... Bir neçə gün keçəndən sonra şəhər üçün darıxmağa başladım, dözülməz bir darıxmaq tutdu məni, kənd üçün də yox, şəhər üçün. Bunu qardaşıma da dedim:

– Yaman darıxmaq tutub məni. Bəlkə qayıdam mən.

Qardaşım yan-yörəni göstərib:

– Başını qaldır, yan-yörənə bax, – dedi, – gör nələr var, əgər sən başımızın üstündə oynayan bu qara buludları, sağına gələn sağmalları, ayaq döyən ilxıları, bu gülü-çiçəyi qoyub darıxırsansa, doğrudan da sənə nəsə olub, şəhər nəsə eləyb sənə.

O vaxt qardaşımın sözü mənə təsir etdi, inandım, indi də inanıram ki, darxmaq dah çox boşluqdan, özünə yer tapmamaqdan yaranır...

Nə isə... sözümüzü unutmayaq, balası ölmüş qoyunu sürüdən ayırıb bir səmtə, anası ölmüş quzunu başqa səmtə aparırlar. Elə yerə ki, bir-birini eşitməsinlər. Teləkçinin işarəsiylə ayağı yer tutan teləkçün ayrılmış meydana axışır. Atı olan atını minir, biri qazan gətirir ki, səs eləsin, qazan dibi döysün, biri tonqal çatır ki, lazım olanda havaya od səpələsin, tüfəngi olan tüfəng atmalıdır. İtlər gətirirlər ki, bu hay-küyə hürüb aranı daha da qatsınlar.

Çox hörmət etdiyim tarixçi alim Zaur Həsənov "Çar skiflər" əsərində yazır: "Qədim türklərdə ovsunlama mərasimi göyə od atmaqla keçirilirdi. Menandr 568-ci ildə türklərin qonağını xanın yanına buraxmazdan əvvəl onu odla necə bəd ruhlardan təmizlədiklərini təsvir edir. Hətta bu ölkələrə gəlib çıxmış ilk avropalıları da iki yanan tonqal arasından keçirməklə odla təmizləyirdilər."

Telək mərasiminin keçirildyi meydanda da tonqallar qalanır, qoyuna da, quzuya da ovsunlamaq, – təlqin, təsir etmək üçün havaya od – qığılcım səpələyirdilər...

Hamısı ona görədir ki, qoyun da quzu da harda olduğunu unutsunlar; sürünü unutsunlar, yiyəsini, çobanını, yeri-yurdu unutsunlar... Belə də olur, öncə meydana qoyunu gətirirlər. Biri qoyunu başı hərlənənəcən fırlayır, biri qoyunun təninə – uşaqlığına duzdu su vurur, qoyunun uşaqlığı doğanda olduğu kimi acışmağa, yanmağa başlayır, biri nar qırıb qoyunun gözlərinə yaxır. Bunların hamısı ona görədir ki, qoyun təzədən doğmağına inansın, elə bilsin doğur. Həə, qoyun axşam ölmüş quzunu doğanda da buna oxşar ağrılar keçirmişdi, indiki kimi, hər yanı qan rəngində görürdü. Elə bu zaman Teləkçi quzu da qucağında görünür, quzu bağrı yarıla-yarıla mələməkdədi. Qoyun yaşadığı, keçirtdiyi bu ağrıların, bu hay-küyün içində özünü eşitdiyi bu doğma səsin üstünə salır. Amma gözləri doğanda olduğu kimi qıpqırmızı qan içindədi, Teləkçini də, quzunu da yaxşı seçmir. Kimsə gözlərinə yenə nar suyu çiləyir. Teləkçi artıq qoyunu yenidən doğmağına inandırdığını hiss eləyir, quzunu qoyunun duzlu sudan alışıb yanan təninə – uşaqlığına sürtüb qarşısına qoyur. Bu hay-küydən dəliyə dönmüş qoyun öz içinin qoxusunu tanıyıb quzunu yalamağa başlayır... Quzudan başqa nə istəyirsən olsun, qoyun elə biləcək öz içindən çıxıb. Qoyun bu minvalla papağa da telənir... " Köç" romanında belə bir mənzərə var; Bəkil oğlunu gözləyir, əhd edir, "...oğlum gəlsin, papağımı qoyuna teləyəcəm, qoy papağım quzu olsun." Elə də eləyir, oğlu Alay gəlib çıxanda papağını qoyuna teləyir...

Səhərdən bağrı yarıla-yarıla mələyən quzu da anasını tapır... Yanyörə sakitdi, səs-küy çəkilib. Teləkçi qoyunun başını sığallayır, onun da üzü-gözü işıq içindədir, gülümsəyir. Qoyun öz səmtini yaxınlaşdırır, başıyla quzunu yelininə sarı itələyir, – həə, yelininə süd gəldi təzədən, indi əmizdirəcək, – bunu Teləkçi deyir.

Qumral qoyun təzəcə doğduğuna inanıb ləzzət içində balasını yedirdir, hamı *telək mərasiminin baş tutduğunu* görüb gülümsəyir...

***

Xalq yaşam tərzinə çevrilmiş bu adət-ənənələrə görə də *YARANIŞI-TƏBİƏTİ* özünün yaratdığı kimi qavrayır. Bizim xalqın Təbiətə ərki də ona görə böyükdür. Belə ifadələr var, bir-birini çox istyənlərə deyərlər: "elə bil teləkdən çıxıblar", "elə bil teləkçi teləyib, gör bir-birindən ayrılırmı..." "Telək quzusudu elə bil, dalımcan düşüb".

Quzu doğulandan iki-üç gün sonra, çobanın özünün dediyi kimi, ayaqlanıb, dırnaqlanandan sonra anasından ayırırlar. Çox qalsa deyərlər, *"südə düşə bilər; yəni süd artıqlıq edər. Bir də qış vaxtıdır, quzu çənəsinə qoyun dayanmaz. Həm də deyərlər, quzu yun götürər. Yəni yun udar...* Sərkər çobanlar deyərlər ki, quzunun yatdığı yeri qaranlıq eləmə, ciyəri xallı böyüyər...

Yaz açılanda sərkər çobanlar bir-birinin quzularına baş çəkməyə gedərlər ki, görək kim necə quzu çıxardıb yaza. Yeri qaranlıq olan, qaranlıqda böyüyən quzuları görən kimi tutqun yunlarından tanıyarlar. Quzuları çox yatmağa qoymazlar, çox yatan quzu *öhvə* (övkə) *olar*, deyərlər, tez-tez quyruqla hürküdürlər ki, qırışığını açsın.

Quyruq da nədir? Quzuları ağacla, ya da qamçıyla vurmazlar, deyərlər, bərk şeylə vurarsan ətinə dəyər, qarası qalar, sümüyünə dəyər göyü qalar. Ona görə dana dərisi tapan kimi, quyruğunu kəsib quzu qamçısı düzəldirlər. Quzuları elə bu qamçıyla gündə azı üç kərə səksəndirərlər ki, övkə xəstəliyinə tutulmasınlar.

Adətə görə, nənələr döl üstündə corab toxumazdılar, babalar çarıq tikməzdilər, dəri aşıyıb köşə çəkilməzdi. Bir də deyərlər, döl düşdümü, yatağa ayağı yalın getmə. Qaydadır, quzuları birdən-birə qara çıxartmazlar. Küləkli-yelli havalarda çıxartsan yelqursaq olar. Hərdən quzular çox atdanmaqdan bağırsağı dolaşır, bu xəstəliyə də elə öz adyla deyərlər: "quzu bağırsaq oldu". Onda bilici çoban quzunun dal ayaqlarının arasından *əlini salıb qabaq ayaqlarını tutut, dartıb quzunun qatını açır, bununla da bağırsaqlarının dolaşığı açılır. El arasında ifadə var, "quzu bəndi", bu, döl çağı quzulara düşən xəstəliyin adıdı. Deyərlər, bu xəstəliyin dərmanı canavar sümüyüdü. Canavarı öldürüb dizindən aşıq sümüyünü çıxardırlar, asırlar quzunun boynundan, ya da yatağın, küzün qapısından. Deyərlər, qoyunlar canavarı yalnız qırxılanda, qırxılıq altında olarkən unudurlar...*

Su...

Xalq suyu oğlu, qızı kimi tanıyır, suyu canlı bildiyi də ona görədir. Yaratdıqlarında, deyimlərində də su canlıdır, loğman və bilicidir, ona görə də deyir, "...dəlini suyla döy...", "su suya qarışmaz..." deyir. Suyu canlı, atası-anası kimi sayqılı, doğma bildiyinə görə "...suya tüpürməzlər", – deyir. Su onun həm də inanc yeridir, islamı qəbul edəndən sonra Qurana and içdiyi tək, suya da and içir; "...bu su haqqı", Suyla dost kimidir, kirli suya baxıb ərklə deyər: "Su murdar götürməz, canı sağdı, axıb özünü duruldacaq", "Su özünü durultmaqçün axır...",

“Su özünə axar”, “Su kimi getdiyin yolu bil”, “Su axar, çuxurun tapar”, “Su suya qarışmaz”, “Dərdini suya söylə...” Ata sözü adlandırılan bu deyimlər Ötükən yaylalarında yaşayan *uyğurçün* də aydındır, Qafqazda yaşayan *azərbaycan türkü* üçün də... Bütün bunlara əsaslanıb deyə bilərəm ki, türklər eyni yerdən, eyni fövqəlbəşər mərkəzdən təbiətin qanunlarıyla idarə olunurlar... Çox təəssüf ki, bunu – bu idarə olunmanı, onun əlindən müəyyən mənada ala bildilər. Bəlkə də təbiətin özü kimi asanlıqla hamının ola bilmələri də ona görədir. Onun özünü yox, yönünü-səmtini dəyişmək asandır... Doğrudur, səmtini dəyişir, ona görə su kimi altını – getdiyi yeri hiss edəndir, hara yumşaqdır, hara ilıq və gülümsər-dir, məmuniyyətlə ora hopar, yox olduğundan xəbər tutmaz... Dediyim kimi, yalnız dəyişilməyi mümkün olmayan xarakteri – qanındakı qorxmazlığı, igidliyi, ayıqlığı və təbəti anlamağıyla əhatəsində olan xalqlardan seçilə-seçilə minilliklər boyu azala-azala da olsa, yaşayar, mənşəyini, kökünü adicə bir dəstə yemşan bitgisiylə, kək otu – kəklik otuyla da tanıyıb özünə gələ bilər, ya da bir saz havasının, bir muğam tapşırmasının ardına düşüb dünyanın axırına gedib çıxar... Sovetlər Birliyi dövründə də belə oldu... Savad, bilik aldıqca niyəsə tələsə-tələsə başqalarına bənzəməyə başladı... Bir neçə ilin içində rus dilini rusdan yaxşı mənimsədi. Amma özü bilirdi; özü daha dəqiq deyib: “...hər şeyə bənzəyən heç nəyə oxşamaz...”. Özü yaranışı boyu hamı üçün xırdalıqlarınacan aydın olub, “su yerin yumşağına hopar, su açıqdan qayıtmaz...” Bu cür deyimləri ona görə yarada bilib ki, özü də elə su kimi mövsümlərə – fəsillərə qarışıb yaşayıb, “su kimi üzüyola ol”, doğrudan da su kimi üzüyola olub, dövləti kağız üstündə qurulan bolşeviklərin yalanına uyub hara çəkirdilərsə, ora getmirdimi? O boyda imperator-luqlar yiyəsi Türkiyə türkləri Avropanın bir barmağının işarəsiylə özündən, keçmişindən yəni, necə məmuniyyətlə uzaqlaşdı, hələ də uzaqlaşmaqda davam etmirmi? Nə qədər uzaqlaşdığından xəbəri yoxdu, qayıtmaq istəsə belə nəinki özünü, heç geyimini tapa bilməz ki, kəndisinə bənzəsin, üstünü örtə biilsin ki, ayıb yerləri görünməsin... Günlərin birində s*orsalar: – Kimsin sen? Maləsəf: -Müslümanım,- söyləməkdən ayrı söz bulamaz.*

İki min il bundan qabaq da elə beləydi, üzüyola, hardan işıq gəlirdi ora, yerin harası yumşaqdı ora, tabqaç-çin xanımlarının ipək dilinə aldana-aldana, bütün yaratdıqlarını da özgəninmiş kimi, unudulmaqçün gözdən-könüldən uzaqlarda qoyub məhv etdi. ...Güntəkin, Tanyukuk, Bilgə xaqanın daş abidləri də iki min ildi ona görə bağırır: “Ey Türk xalqı, çox sayda öldün, Çin xalqının (Tabqaç bəylərinin) yağlı dilinə, ipək qumaşına aldandın, ey Türk xalqı, öləcəksən! Çüneydə Çuğay

dağlarına, Tögültün obasına qonum deyirsən, ey Türk xalqı, öləcəksən!... Aclığı toxluğu düşünməzsən, (tox olanda aclığı, ac olanda toxluğu) bir doyarsan, aclığı heç düşünməzsən...!" (Tələt Təkinin, "Orxon Yazıtları" kitabından, Gül Təkin yazısı, güney üzü.)

Minilliklər boyu türklərə qarşı yaşanan acıq-qisas izi var... Düşünək, görək nə acıqdır bu? Nə vaxtın qisasıdır ki, minilliklərə qalıb?! Ozü demiş, "qisası qiyamətə qaldı". Nə qisasıdır bu? Yuxarıda qeyd etdim ki, türklər, azərbaycan türkləri də içində üstün və çatışmayan cəhətləriylə yanaşı, daha çox tabiət hadisəsidir. Yəni, qazanmış olduğu uğurlarla da, uğursuzluğuyla da ancaq təbətlə müqayisə oluna bilər... Doğrudur, irili-xırdalı bütün dünya xalqları da təbiət hadisəsindən başqa bir şey deyillər, amma yaşayış tərzindən – dünyaya baxışlarından, düşüncəsindən, görünənlərlə yanaşı, görünməyənlərə də bəslədiyi münasibətindən asılı olaraq bir-birindən əsaslı fərqlənirlər... Daha doğrusu, təbiətdə, təbiətə qarışmış halda – payızında payızı, qışında qışı, yazında yazı, yayında yayı yaşayanlar, (mən türkləri bura aid edirəm) təbiətə qarışmayıb ayrıca – təbiətlə üzə duraraq yaşayanlar, misal üçün, Avropalılar kimi təbiəti öz hökmü altında saxlamaq istəyənlər... Bütün bunlar, bu, fərqli yaşam tərzi insanın nəinki sözünə-söhbətinə, hətta onun görkəminə-görünüşünə də təsir edib, dəyişdirə bilir. Ona görə də *aran adamıyla dağ adamı, şəhərliylə kəndçi mövcuddur*. Burdan çıxış etsək, deyə bilərik ki, həyatda görünən və görünməyən yönlər və yöndəmlər var, bu yöndəmlərin-tərəflərin izahı *xalqları* bir-birindən kəskin surətdə fərqli göstərir...

Qoç...

Tərəkəmə, *döltutma* vaxtı olsa da, olmasa da, qoçu həmişə sürüdən ayrı saxlayar. Çoban sözüdür, ayrı saxlanılmasa, qoç həmişə qoyunun yadında olar, çünki yanındadı. Tərəkəmənin düşündüyünə görə, əslində qoç qoyunun yadından çıxsa yaxşıdı; həm südün yaxşı verər, həm də iştahla otlayar. Belə deyərlər ki, tərəkəmənin yaşayışı **davar eşiylə,** yəni saxladığı-becərdiyi, yoldaşlıq etdiyi sürüylə, mal-davarla dəyərləndirilər.

İçində vaxtlı-vaxtsız qoçu olan sürü gendən tanınar. Ona görə, biri o birinin sürüsünə baxıb deyər: – Sürü sınıq görükür, içində qoç var, deyəsən. Bunu ona görə deyirlər ki, qoç qoyuna dinclik verməz; həm özü, həm qoyun ətini tökər. Bir də, döl ayı olmasa da, qoç yalan yerdən qoyunun belinə qalxır, ona görə də qoyunların sağrı yunu (ətəyinə yaxın yerlər) həmişə çirkli olar.

Deyirlər, iki çoban varmış, bir-birinə qonşu yaylaqlarda sürü saxlayırmışlar. Çobanın biri bilənmiş, o biri el diliylə desək, quruca ağac tutan, yapıncı geyinənmiş. Usta çoban qışın ağır gələcəyini hiss edir, qoçu ayırır sürüdən, o birinə də deyir sən də ayır. – Nə danışırsan, – deyir, o biri, – qoçsuz qoyun olarmı?

Yaylaqdan enirlər. O il doğrudan da ağır qış gəlir, evdən eşiyə çıxmaq olmur. Usta çobanın sürüsündə quzu yox idi, çünki vaxtında qoçu ayırmışdı. Sürüsünü birtəhərliklə yaza çıxardır. O biri çobanın qoyunları quzuluydu. Quzulu qoyun da deyərlər, xanım qulluğu istəyər. Ona görə də hamısı tələf olur. İşi belə görənlər axışıb ağıllı çobanın yanına gəlrlər: – Hardan bildin, qış ağır gələcək, qoçu qoyunnan ayırdın?! Ağıllı çoban deyir: – Bulud yumurlandı dedi, su damarlandı dedi, sürü xumarlandı dedi, dilbilməz anlamadı, dedi, dilbilən anladı, dedi...

***

80-ci illərin sonlarında C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında çalışırdım. Dağlıq Qarabağda doğulub böyümüş erməni mənşəli qadın Qreta Qəhrəmanova da mənimlə işləyirdi... O da Azərbaycan Yazıçılar İttifaqının üzvü idi. Son vaxtlar, yəni "Yer üzünə məktubu" yazdığım ərəfələrdə onu bir neçə kərə xatırlamalı olmuşam. Hər şeydən əvvəl ona görə ki, bu maraqlı qadın mənim indi ifadə etmək, açmaq istədiyim bəzi milli mətləbləri öz xarakterində daşıyırdı; azərbaycan dilini bilirdi, amma bildiyini çox böyük ustalıqla gizlədirdi ki, biz ondan soruşaq: – Azərbaycan dilini niyə bilmirsən, burda doğulub böyümüsən, burda da işləyirsən. Ancaq soruşan olmurdu. Onu əhatə edən xanımlarımızın heç ağllarına gəlməzdi, soruşsunlar.

Mən Qretanı Aşıq Ələskər haqqında yazdığı, səhv etmirəmsə, "Durna çırağı" adında bir məqaləsiylə tanımışdım, Anarın redaktorluq etdiyi "Qobustan" jurnalında nəşr olunmuşdu, gözəl bir yazıydı... Mənim indi təqdim etdiyim folklor nümunələrinə – *xalq düşüncəsinə, xalqın yaratdıqlarına yaxın olmayan, onu dərindən hiss etməyən, sevməyən Aşıq Ələskəri duyub, belə yazı yaza bilməzdi.* Mən o vaxt da indi də bu fikirdəyəm. Amma Qreta bunu, bizə olan bu sevgini heç vaxt bildirmədi, bildirməzdi də. Onun hərəkətlərində, davranışlarında – bütün bunlar niyə mənim deyil, ifadəsi oxunurdu. Aramızda belə bir mübahisə oldu...

– Biz bu gün tarixlərə qayıtsaq, mən gedib filosoflara çıxacam, erməni filosoflarına, sən çobana çıxacaqsan, bunu yəqin ki, bilirsən, elə deyimi?

Doğrusu,mən bir az duruxdum, gözləmədiyim sual idi:

– Hə, – dedim, – elədi. Sən gedib yalançı tarixçilərə, hay adlanan bir məzlum xalqı aldadıb avara-qaraçı eləyən yalançı filosoflara, saxtakar din adamlarına çıxacaqsan, mən çobana çıxacam, bütün Qafqazın hər qarışına öz adını verən, Sibirdən Balkanacan, Uzaq Şərqdən Xəzər qıyılarınacan qalalar yapan, şəhərlər, kəndlər tikən, dünyanın o başından bu başına "İpək yolu"çəkən, öz dastanlarını yazıb, musiqisini yaradan, ***izi itirmək üçün rus tədqiqatçılarının işquz-quz-oğuz adını qəsdlə Skif kimi şifrələyən, yazan sak-oğuz çobanlarına*** *çıxacam, doğrudur. Bilməmiş deyilsən ki, çobanlıq da minilliklər sivilizasiyasının əsas mərhələlərindən-dönəmlərindən biridir. Həyat məktəblərindən də demək olar. Yurdsuzdan çoban olmaz. Çoban yeri-yatağı, Aranı-dağı olanlara lazımdır; çobanlıq ev, el-oba, kənd, şəhər, Vətən bağlarından biridir ki, bununla yaşadığın ömrə-günə bağlana bilirsən, həyatını, gedişatını, inkişafını qurursan, Təbiətə qarışıb öz düşüncəndə yaranan düzənlə, qayda-qanunlarla aradakı boşluqları doldurub yurd salırsan, quş yuvasını dimdiyində daşıdığı kimi, özünə Vətən tikib böyüdürsən, oğul-uşaq böyütdüyün kimi. İndi əlimdəki "...məktub" boyu təqdim etdiyim nümunələr də onun yaratdıqlarıdır ki, tarixim, tarixi faktlarım kimi fəxarətlə başımın üstə qaldırıb qürur duyuram...*

Bu gün siz nəyə görə özünüzə yer tapa bilmirsiz, qapı-qapı düşüb çörək axtarırsız?! Ona görə ki, o mərhələni yaşamamısız... Elədi, elə deyil?!

Yaylaq dərslikləri...

Belə deyimlər var: "Çobanın bildiyini bilici bilməz. Çünki o, dilbilməzi danışdırandı". "Çoban dilbilməzlə dil tapandı". Məsəl var: Oğlunu çoban qoy adam olsun, çox qoyma ki, cüdam olar. Addı-sanlı usta çobanlara sərkər deyərlər, sürünün sərkəri.

Sərkər çoban dan sökülər-sökülməz: – havada süd sazağı var, yaxşı ot günüdü, – dedi. Sürünün yönünü çəkdi, tərpənişindən bildi ki, axşamnan acdı. Çünki ayağa duran kimi yanını, arxacı otlamağa başlamışdı. Usta çoban ona görə də sürüyə acıqlandı: – Arxac ətəyi, arxalıq ətəyidi, arxac otuyla qarın doymaz, – dedi. – Yürü, yamaca.

Sürünü dağın qılıcına (zirvəyə qalxan dik) sarı apardı. Səhərin sazaqlı çağında sürününki dağ qılıcıdı.

Aradan dağ çayı keçirdi; belə tezdən sürünü çaydan keçirməzlər; qoyun tufana dözər, səhərin dağ çayına dözməz, deyərlər: "sürünü **üşü** vurar"...

Dağın qılıcına çatıb *çöksüyüb, yəni, sancılıb* otlayar.

Gün qalxdı, sürünün, belə deyərlər, "dırnağı isindi, ağzı durdu", yəni doydurdu özünü. Sürünü "xam vurdu" ifadəsi də var. Sərkər çobanlar həmişə sürüyə "xam saxlayarlar". Bəlli bir yeri qoruyub qoruq edərlər, mal-heyvan buraxmazlar, xam saxlayarlar ki, arada bir sürünü orda otarsınlar. Xam saxlanan yerdə yonca, yoncaya bənzər kimi ağır yem otları olur ki, sürü çox yesə həzm edə bilməz, ona görə də sürünü xamnan tez keçirdirlər ki, dayanıb özünü doydurmasın, doydursa, sürü vaxtsız gövşəməyə başlayır, onda deyərlər, sürünü "xam vurdu". Sürünün gövşək vaxtı günortadı. Tezdən heç bir heyvan gövşəməz. Belə olanda, yəni qoyunu "xam vuranda" qara çıxardarlar. Dağların qüzeyində illərdən qalma qar qalaqları olur, sürü qara yığılır. Bu, həm gənəsini tökmək üçündü, qarın soyuğundan gənələr tökülür, sürü çəkiləndə qarın üstü gənəylə örtülmüş olur... həm də qoyun qar yeyir, xamda otlayandan sonra xarlanmış qar yoncanın, xam otunun həzmini yüngülləşdirir.

Sağından qabaq qoyunu sulamazlar, deyərlər ki, südünə su yığar. Səhər otunun şehiylə, günortaüstü qara çıxmağı sürüyə bəs edir. Bütün bunlardan sonra sürü sağına gəlir, sağmalı subayı ayrılır. Sağmal sağın bərəsinə keçir, sağıncı çobanlar bərənin ağzında yerlərini tutub sağına başlayırlar. Bütün bunları *bərəçi tənzim edir... Bu*dur, minilliklərin dəyişməz yaylaq qaydaları...

Sağın növlərindən ən əsası *oyşar* sağınıdı, buna *sıxma* sağın da deyilir. *Çirtma sağın* da var, *tək məmə* də adlanır.

Sağın qurtarandan sonra *quzuçunu səsləyirlər*. Niyəsə quzuçunu adıyla çağırmazlar. Mən o vaxtlar çox soruşdum çobanlardan, aydınlaşdıra bilmədilər. Mənə elə gəlir ki, quzuçunun tanınmaması üçün adsız çağırırlar. Qardaşım da elə dedi: quzuçunun adını bilməsələr yaxşıdı.

Mindən çox sağmalı, yəni ana qoyunu olan sürünü becərmək, bəsləmək çətin – ağır sayılır, ən yaxşısı beş yüz sağmalı olan sürüdü. Bu sayı döndərmək, qatdamaq, becərmək asandı.

Sağın qurtaranda Quzuçunu səsləyirlər. Quzuçu quzunu səsə gətirir; beş yüz ananın beş yüzdən çox balası bir-birinin səsinə qaçırlar. Gözləri ayaqlarının altını seçmədiyi üçün nə qoyun, nə quzu bir-birini görmür, ancaq səsi tanıyırlar; hərə öz doğma səsinə doğru qaçır... Beləcə, yaylaq diliylə desək, *böyük tapışma (Türkiyə türkcəsində buluşma) anları yaşanır. Ana balanın, bala ananın səsini aramağa başlayır.* Bu yaşıma qədər dünyanın heç bir yanında buna bənzər mənzərə görmədim. Bir daha görməyəcəyim duyğusu daha kədərlidir. Sürü – qoyun hər yerdə var, amma o yaylaqlar, o adətlər, o düzənlər ki, indi mən təsvirini verməyə çalışıram, işğal altındadır. Ermənilər Rus-Sovet hərbi qüvvələrinin köməyiylə ələ keçirdi, indi Türkiyə sərhəddi boyu o yaylaqlarda rus hərbi

düşərgəsi yerləşdirilib. Qrda heç kəs yaşamır; yaylaqlar da yaşamır, dağlar da yaşamır. Orda indi dağları dağ kimi görən yoxdur, daş-torpaq yığını kimi görən var. Dağlar ordakılara ona görə lazımdır ki, arxasında gizlənsinlər, ya da ayaqlarının altına qoyub üstünə çıxsınlar ki, görsünlər, **türklər hardadır...** Beləcə, orda hər şey səssizlik içində qaldı, lal-kar. Yaylaqlar həyatını itirdi, bulaqlar adını... Türklərin düşüncəsində, anlayışında gözdən axan yaş su olmadığı kimi, *bulaqlardan axan da su deyil... Təbiətlə üzə duranlar, təbiətlə istədiyi təki rəftar edənlər bu hissləri yaşamazlar.*

***

Yaylaq həyatı haqqındakı söhbətimə qayıdıram. 1950-ci illərə qədər yaylaqda heç nə dəyişməmişdi, üç min il bundan qabaq necəydisə, eləydi. Minilliklər boyu quzular *əmiş zamanı* anasına tərəf necə qaçırdısa, indi də elə qaçırdı... Xalq arasında buna "*sərdən sürmək*" də deyilir. Sərdən sürmək beş yüz quzunun hamısının öz anasını tapmağıdı. Bu boyda səsin içində anasını tapmayanlar çox olur, Sərdənçi ananı balaya qovuşdurana deyirlər. Quzular da qoyunlar da Sərdənçiyə öyrəşdiyindən, bir-birini bulmayanda onun yanından ayrılmırlar; Sərdənçi onların hamısını bir-birinə qovuşdurur, bununla da ətrafa səssizlik çökür, yaylağa çökən bu səssizlik də *böyük qovuşmanın, tapışmanın* yaratdığı mərhəmət, dinclik duyğusundan, yağışın yağıb kəsdiyi kimi, təbiət hadisəsindən başqa bir şey deyil.

Ustadlar deyər: *Qoyunu necə sağırsan sağ, balasına süd saxlayacaq.* Çobanlar bir-birinə bunu da deyərlər: Səhərdən deyirdin başım ağrıyır, *sərdənə* çıx, ağrın kəssin...

Sərdəndən sonra *dələmə tutmaq* vaxtı gəlib çatır. Qoyun sağıldıqca südü süzüb palıd çəlləklərə doldururlar. Bu işi də ən çox Sərdənçi görür. Çobanların özünün hazırladığı dələmə mayası olur: dəqiq yadımda qalmayıb, qoyunun öz qursağıyla hansı turşunusa qatıb düzəldirdilər, bununla da çəlləkdəki südü mayalayıb uyuyşmağa (məktubda "üyüşməyə" yazılmışdı) qoyurlar...

Min-min illər qabaq bərə, bərəçi nə demək idisə, indi də o demək idi. Sağın növləri; oyşar, çırtma sağın, təkməmə sağım indi də vardı. Dələməni indi də, yəni üç min ildən sonra da palıd çəlləkdə ağ yapıncıya büküb "qımqını"yla yatırdırdılır ki, uyuşsun:

Qum kimi quyrul, yat,
Saman kimi soyrul, yat.
Al, südüm sənin olsun,

Yat yuxun dərin olsun.
Sayaçı gəlib saya gəlib,
Yel babası paya gəlib,
Sən də gəl... Sən də gəl!

Sayaçı da elə bu vaxt gəlib çıxır, elə gendən-genə öz oyununu oynamağa, zarafata başlayır.

– Gəl, dələmə ye, – deyirlər.

Sayaçı:

– Yemirəm, – deyir, – sizin bərəkətin üstünnən ac gedəcəm.

– Niyə ac gedəcəksən? – deyir, çobanlar. Bilirlər ki, Sayaçı zarafat eləyir.

– Heç nə bişirməmisiz, – deyir Sayaçı.

– Gəl bəri, tərslik eləmə. Gəl dələmə ye.

Sayaçı deyir:

– Dələməniz yatıb axı!

– Yatıb, səksəndir oyansın.

Sayaçı dələmənin başına dolana-dolana oxuyur:

– Kim yatmış, kim oyaq? – Sonra dönüb Sərdənçiyə baxır: – Yox, kim yatırdıb o da oyatsın, – deyir.

Sərdənçi dələməni kəsib bir qab da Sayaçıya verir... *Sayaçı da dələməni yeyib sayaçı gözəlləməsi deyir:*

Nənəm, a səkil qoyun,
Belində kəkil qoyun.
Ayağımı daş apardı,
Arxaca çəkil, qoyun.

Nənəm, qoyunun qarası,
Polad qırxılıq parası...
Qış öyü bulaması,
Yaz öyü dələməsi...

***

Deyərlər: Dölün bir başı, bir ayağı, ortada sərkər qoyunun özüdü.

Deyərlər: Canavarlar çobanını tanıyar. Usta çobanlara yaxın düşməzlər..

Deyərlər: Bütün qorxuları qoyunlar qabaqcadan xəbər verir.Usta çoban lazımdı bunu bilsin.

Belə deyirlər ki, sürüyə oğru gələn kimi qoyunlar öksürürlər: Buna görə də çobanlar arasında "oğru öskürəyi" deyilən ifadə var. Bunu bilən çoban gecənin qaranlığında səs eləyir ki, Oğru qardaş, gəldiyini kəlin qoyun bildirdi, "get, ay batannan sonra gəl"

Sürünün içindən su dolu qab keçirməzlər.

Deyirlər, bilicilər həmişə sərkər çobanlardan çəkinərmiş.

Bir biliciyə deyirlər, loğman qardaş. Deyir, loğman mən deyiləm, çoban yastığı yeyəndi...

Belə bir ifadə var: bərəkət üstündən ac addamazlar. Ona görə də çobanlar arxacın yanından keçəni saxlayır. – Bərəkət üstündən ac addama, – deyir.

İti alaçığın ağzında yemləməzlər.

Bu dediklərimi bilməyən çobanlara əl çobanı deyərlər.

Kök qoyunlar həmişə sürüdən aralı yatar. Ona görə də canavar gələndə qıraqdan yapışar. Oğrular da canavardan öyrənib.

***

Bu hissləri-duyğuları "Erməni adındakı hərflər" romanında geniş, təfərrüatıyla işləmişəm. İndi daha uyğun, daha yaxın söz tapa bimədiyim üçün o zamanlar yazdığım "Yarpaqsızlıq" poemasından bir parçanı diqqətinizə çatdırmaq istəyirəm.

Kimə axır çayımız, görəsən?
Görəsən, körpüsündən keçilirmi?
Səhəng salınırmı,
Arat alınırmı görəsən...?
Görəsən, suyu içilirmi?

Əslində atıb getdiyimiz
Ellərin səsini axır, çayımız...
Başından ayağınacan ayrılığımızdı,
Ardımızca balıq kimi baxır, çayımız.

Axır, ağzıayrıq dərələrdə
Başını daşlara döyə-döyə...
Axır, yadları-yağıları yuya-yuya.

Biz də axdıq, xəcalət təri kimi,
İndi ruhumuz ulaşır orda...
Yuxularımız daşlara dolaşır orda...

Göy üzündə gözlərini döyür quşlar,
mat- məətəl...
Daha dağları aşmır yoxuşlar,
qanrılıb geri baxır:
– Gəəəl...!

Özünü qayadan atdı,
yurdda qalan at da...

Qızlarıyla özünə qəsd etmiş
Gültəkin ana kimi...
İtimiz anlamadığı ayrılığı yaşadı,
boynunda zəncir,
sümük olana kimi...

Daşlara qamçı kimi dəyir, bizsiz,
Günəşin istisi.
Hələ yurdun üstündədi,
getmir heç yana,
soyumuş ocaqların tüstüsü...

İndi küləklərin ağzıyla
yiyəsizlik, yalqızlıq ulayır, orda.
Gicitikanları bizi boyda olub,
öz-özünü dalayır, orda...

Qayıtmağımız yaşayır içimizdə,
qaranlıqlar boyu
Ay süzən kimi...
Üzüm aşkara gülür,
fikrim oralarda gəzən kimi...

Öləziyir ocaq yerləri,
qaralır, sönür ovcumda.
Yanıgı ürəyimdədi,
iyi burnumun ucunda...

Bütün günahları yer örtər,
yurdu itirməyi yox...
Ayıbımızı yer gizləməz,
yurd bizsizdi,
yerdən götürəni yox...
Kimə axır görəsən çayımız...?
Gecələri qara paltardı, bilirəm,
içi boşluqlarla dolu...
Eləcə uzana qalıb
körpülərin qolu...
Getməz üstündəki yük,
gözləri yurd yerlərindən böyük...

Bir kərə qardaşımla vurdular məni,
bir kərə dayımla öldüm,
bir kəz əmimlə...
Yedim qələmimi, uddum...
Doğrayıram içimi indi, qıyma-qıyma, qələmimlə.
Yedim qələmimi çeynədim, uddum...
Özümü kafir bazarında adımı satarkən tutdum...
Elə bil əllərə geyiblər məni,
əlcək kimiyəm...
elə dinc, elə rahat, elə yurdsuz,
böcək kimiyəm...

***

Amma neynirsən elə, nə şəkildə deiyrsən de, bütün hallarda söz adamın içindəki tikanı çıxartmır; söz İnsan üçün özünü ovutmaq, oyalamaqdan başqa bir şey deyilmiş. Xalq özü yaxşı deyir: “hey, eləməklə donuz darıdan çıxmaz”. Gərək ağac götürəsən. Minilliklər boyu belə olub, belə də olacaq, dözüm, səbr tələb olunur. Atalar deyib: “Düşmənimnən yüz il sonra hayıf aldım, elə bildim dünəndi”. Belə də deyir, “döyə bilmirsənsə, düşmənini söymə, hayıf ala bilməzsən”. Bir də deyir: “Düşmənli evin uşağı tez böyüyər...” Bunlar xalqın yaratdığı dərsliklərdi; unutmayaq, bilək, fikir verək, düşünək, tez böyüyək...

Nə isə, bu qeydləri işləyəndə onu da düşündüm ki, bu günümüzdə, indi, “çoban” sözü öz mənasıyla bir yerdə qəzaya uğramış halındadı. Yəni müasir həyatla uyğunlaşmayan, bu günün dərsliklərindən xəbərsiz,

səliqə-sahmansız, çəngəl-bıçaqdan avropalı kimi istifadə etməyi bacarmayan... Hardasa bir az da təhqir mənasında işlədilir. Nə səbəbə? Səbəb nədir? Mənim qənaətimə görə, əsas səbəb bizim özümüzün dəyişməyimizdir. Doğrudur, mühit daha başlıca rol oynayır, amma bilməliyik ki, mühit dəyişəndi, nəfəs dərdiyimiz hava tez-tez dəyişən olduğu kimi, cəmiyyətimiz də dəyişməlidir. Bu, vaxtla ayaqlaşmaq deməkdir; yəni gələcəyə addımlamaq. Gələcəyə özünə oxşayaraq, kəndinə bənzəyərək getməsən, *gələcək* dediyimiz bu *təntənəli məkan* heç cür sənin ola bilməz. Düzdür, gedəcəksən, amma sən olaraq addımını qoymağa yer tapa bilməzsən, ancaq ayaqlar altında qərar tuta bilərsən. Başımıza gəlib hər halda, dünyanın özündən gizli deyil ki, baxın, *fars kimi yaşamaqdayıq, rus kimi müəyyən zaman-məqamlar yaşamışıq, avropalı kimi də yşaya bilərik, yaşayarıq, dünya dağılmayacaq. Amma avropalı kimi yaşamaq başqa şey deyil, elə avropalı kimi yaşmaqdır.* Tarix göstərdi ki, başqasına bənzəmək, başqasının yerişini yerimək yox olmaq deməkdir. Yaradıcı, istedadlı, güclü xalq *assimilyasiyanı sevməz.* Bu prosesi alıb-aldatmaqla dövlət qurmuş, gücsüz, gerçək tarixdən yalanlarıyla keçən qısır xalqlar istəyər, bu yolda varından-yoxundan belə keçməyə hazır olar.

Bu gün bizə özünə qayıtmaq, öz kökü üsündə bitmək, boy atmaq hava, su kimi lazımdır. Bizim bu günki nöqsanlarımız bir az da özümüzdən, öz yaratdıqlarımızdan uzaq düşdüyümüzə görədir. Yazdığım bu əsər boyu, həyəcan içində, emosiyalarımı belə gizlətmədən kövrələ-kövrələ təqdim etdiyim etnoqrafiya, folklor, tarixi numunələrdən uzaq düşməyimizdəndir. Ona görə də milli kinomuzu yarada bilmirik. Ələ baxdığımızdan, ondan bir şey, bundan iki şey götürdüyümüzdən, yaratdıqlarımız da hamıya – ona buna oxşayır, "hər şeyə, hamıya oxşayan da heç nəyə bənzəməz". Bunu xalqın özü deyib. *Yuxarıda qeyd etdiyim kimi, xalqın da obrazı – özünə oxşamağı var, başqasına oxşayandan, daha doğrusu, oxşamaq istəyəndən Millət olarmı?! Dünya dahilərinin əsərlərini bir də xatırlayaq, bəşəri olmağı milliliyinə görə, özünə oxşamağına görə deyilmi? Elə bilirəm ki, bu da ekoloji fəlakət kimi bir şeydir. Son yüzilliklərin içində belə ifadələr yarandı: "çobannama...", "çoban kimi" bu cür ifadələr hardasa geridəqalmışlığı, səviyyəsizliyi göstərməyə başladı... Hər halda niyə belə olub deyə, günah-günahkar axtarmaq düzgün olmazdı. Amma səbəb vardı. Böyük səbəb! O da özümüzdən uzaqlaşıb kiməsə oxşamaq istəyimizdən əmələ gəlib.*

Dərindən yanaşsaq görərik ki, bu hal yalnız çoban məsələsində deyil, bir çox səmtlərdə-istiqamətlərdə də belədir. Son yüzilliklərdə **aşığa da münasibət belə oldu, bəlli qüvvələr sazı gözdən salmağa çalışdı**. *Hardasa bunu bacardılar da... Sazı üzə çıxartmağa çəkindik. Görün nə*

günlərə qaldıq ki, daha dəqiq desək, bizi nə günlərə saldılar ki, bunun nə demək olduğunu anlamadan ruslara, ermənilərə qarışıb aşığın geyiminə, papağına sataşmağa başladıq. Zaman da o zaman idi ki, erməni əsilli Paracanov sahibsiz, yiyəsiz mövzü kimi "Aşıq Qərib" dastanından film çəkirdi...

Azərbaycan Dövlət Tele-Radio Verilişlərində işlədiyim vaxt sədrlərdən biri müavinlərin, baş redaktorların yanında belə bir olmuş hadisəni danışdı: – Günlərin birində Ulu öndərimiz Heydər Əliyevə verilişlərlə bağlı məruzə edirdim. Proqramımızda çıxış edən bir siyasət adamıyla əlaqədar belə bir ifadə işlətdim: Aşıq papağını da qoyub başına, – dedim. Sözümü kəsdi, – Sən də sataşırsan, aşıq papağına, – dedi. – Bil və yadında saxla, aşıqlar minilliklər boyu bizim mədəniyyətimizi, mədəni sərvətlərimizi yaşadanlardır, bir də belə səhv etmə...

Nə demək istədiyim yaxşı anlaşılsın deyə, daha bir misal göstərim; "müsəlmançılığına salma", "müsəlmanın sonrakı ağılı", tamam başqa mənada işlənən "ay müsəlman" ifadələri də sonrakı yüzilliklərin bəhrəsidir. Savadsız, kortəbii dindarların, mollaların səviyyəsizliyindən törəmiş olan ifadələrdir. Müsəlman olmaq ərəb olmaq demək deyil ki? Bu, dünyanın hər yerində olan müsəlmana aiddir. Təəssüf ki, çox zaman belə olmur...

Yanılmıramsa, 1990-cı ildə Türkiyənin Kayseri şəhəri Ərciyəz Univrsitesində Böyük Azərbaycan Konqresi oldu. Konqreyə mən də, o sıradan əllidən çox Azərbaycan ziyalısı dəvət olunmuşdu. Biz tələbələrlə görüşə paylaşdırılmışdıq. Şəxsən mənə bir tələbə belə bir sual vedi:

– Mövlud Süleymanlı söyləsin, İslam dinimi öndə gəliyor, türkçülükmü? Hankisi birinci?!

Osmanlılar demiş; soru beni şaşırtdı:

– Sen ne söylüorsun, yavrum, kendin bilmiyormu? Türkçülük sonra gəlirsə, İslam bir din kibi nasıl koruna bilir. Onda biz, – seninle ben – nasıl türk oluyoruz? Böylə soru sorulurmu, ya?! İslamdan bin-bin yıllar öncə sen vardın, senin yapdığın imperatorluqlar vardı. Sen her şeyə yalnız Türk olaraq, başqa kimseyə bənzəmədən, ancaq Türk olaraq hazırdın, hazır olduğun üçün İslam dəyərlərini koruya bildin. Eyi düşün, yenə sen koruyursun; əgər türkçülüyünü öndə tutmazsın, heç kəndini də koruyamazsın. Yan-yörənə bak hələ, İslam dini pərdələrinə bükülüb kendi yalanlarını qaynadanları, dini şüarlar deyə-deyə özünü-kəndisini birinci yerə qoymaq üçün İslama quyu qazanları görəcəksin...

O zaman heç bilmədim tələbələrdən məni anlayan oldumu, amma sualı verən etiraz etdi... Arada lətifəyə bənzər belə bir söz-sual da dolaşırdı: Əgər bir quyuya bir ərəb, bir rus, bir türk düşübsə, sən özün

türk olaraq hansını çıxardardın? "Müsəlmançılıqda" gərək sən: ərəbi çıxardardım deyəsən... Bax, Allah bunnan saxlasın. Bu, riyakarlıqdır, müsəlman riyakarlığı... Bütün bunları mən gələcəkdə baş verəcək fəlakətlərin səbəbi və işarəsi kimi anlayıram.

Bənövşə...

(1970-ci ildə Qarabağın Cəbrayıl bölgəsinin Sarıcallı kəndindən Həsən Yunusov göndərib. O vaxtlar "Bulaq" radio verlişində səsləndirmişəm. Aradan qırx ildən çox keçib, heç bilmirən Həsən Yunusov yaşayırmı? Amma Cəbrayıl rayonu yaşamır, bizim gəlməyimizi gözləyir. O zaman da efir vasitəsiylə təşəkkür etmişdim, indi də dərin təşəkkürümü bildrirəm.)

Deyirlər, Qargülü dünyaya ona görə tez gəlir ki, gəlib bənövşəni görsün. Qarın altından çıxan kimi boylanır, amma Bənövşəni görmür, ah çəkir. Onunçün də, deyirlər, yer-yurd talalanır, yəni Qargülü ah çəkdikcə qar köynək-köynək əriyir... Belə bir deyim var: Qargülü gəldi, tala vaxtıdı. Qargülü çox gözləyir, Bənövşə gəlmir ki, gəlmir. Axırda dözmür, sellərə-sulara qarışıb gedir. Bənövşə gəlir, görür ki, Qargülü yoxdu, ora baxır, bura baxır, Quzuotundan soruşur. Quzuotu deyir: Gəlmişdi, səni çox gözlədi, ah çəkdi, ahınnan qarlar əridi, bir də baxdıq ki, yoxdu, qarlara qarışıb gedib...

Bənövşə ağlayır, bir kimsəsizliyə çəkilir, başını salır aşağı, heç kəsə baxmır... Amma ona oxunan mahnılar bitib tükənmir:

Bənövşə bitər allanır,
Başınnan teli sallanır,
Səni görcək xəyallanır,
Gəl-gəl, bənövşəli yarım,
Əcəb tamaşalı yarım.

Bənövşəsi tutam-tutam,
Gülü bənövşəyə qatam.
Axtardığım haçan tapam,
Gəl-gəl, bənövşəli yarım,
Boyu tamaşalı yarım.

Bənövşəsi üç yarpaqdan,
Getməz xınası barmaqdan.
Öldüm səni aramaqdan,

Gəl-gəl, bənövşəli yarım,
Boyu tamaşalı yarım...

***

Əslində, axtarıb, işləyib bərpa etdiyim bu "Yaylaq dərslikləri" çoxlarına cavab kimi yazılmışdı. Amma indi bütün dünyaya aid hesab edirəm. Minilliklər boyu *türk çobanlarının* dahiyanə kəşflərindəndir.

...Bunu da bildirim ki, bir neçə il sonra təxminən 1989-cu il hadisələrində Qreta Qəhrəmanova çox qorxmuş halda özünü redaksiymıza saldı, ardınca da bir dəstə adam. O vaxt mən "Azərbaycan" jurnalında işlıyirdim. Bakı Soveti – İçərişəhər metrosuyla üz-üzə olan binada yerləşirdik. Redaksiya əməkdaşlarıyla bir yerdə onu qoruduq. O vaxt mən onun yazdığı məqaləni misal çəkdim: – Bu, Aşıq Ələsgərdən məqalə yazan qadındı...

Həmin gün Yazıçılar İttifaqının köməyiylə onu hava alanından yola saldıq...

1988-1989-cu illər hərəkatını, daha doğrusu, Xalqın ayağa qalxmağını, Qırmızı İmperiya ilə üz-üzə durduğunu görüb qorxmuşdu, sarsıntılar içindəydi: – Biz, – dedi, – sizin xalqı tanımaqda səhv etmişik, elə bilirdik, azərbaycan xalqı heç vaxt ayağa durmaz...

Bu, Qreta Qəhrəmanovanın dilindən çıxan sözlərdi.

Qarabağın da ermənilərin olacağına inanmırdı, bununla belə, dediyini də deyirdi: – Heç nə eləyə bilməsək də, sarsıda biləcəyik, əlinizi işdən soyudacagıq, yazanınız yazmayacaq, oxuyanınız oxumayacaq... – bu da onun sözləridir.

Bunlar Qretanın zaman-zaman öz içində gəzdirdiyi bizimlə bağlı mətləblər idi. Doğrudan da, sarsıntıları yaşadıq, toparlananacan itgilər, qurbanlar verdik. Bütün ermənilərin, onların içində də Qretanın qorxduğu dahi Xalq zamanında öz dahiyanə fəhmiylə çıxış yolunu tapdı.

(davamı növbəti sayımızda)

MÜNDƏRİCAT

Bakıda "Kitabi-Dədə Qorqud" abidəsinin və Dədə Qorqud parkının açılışı olmuşdur 3
Z.Yaqub. Məmməd Araz dünyasına səyahət 7
M.Kazımoğlu.Ustad aşıq və tarixi ənənə 16
T.Vahid. "Gözüm açdım, qərinələr dolandım" 26
A.İmranqızı. Aşıq Cəlal Qəhrəmanovun bədii irsi 29
Q.Sayılov. Unudulan unudulmazlar. 33
Ə.Qədirli. Şeirlər 34
Ş.Tahir. şeirlər. 38
İbrahimxəlil. Amanat saxlasın 41
K.Hacı. Hitlerin əsgəri, Stalinin məhbusu olan Azərbaycan aşığı 45
M.Nəbioğlu. El yadda saxlamaz evdən gedəni 48
Sücaət. Şeirlər. 50
Q.Tofiqoğlu. ömür vəfa etsəydi. 55
Ə.Rza. Şeirlər 56
V.Təranə. Hüseyn əminin arzuları 59
E.Çobanlı. Ozan dünyasından soraqlar 61
E.Məmmədli. Aşıq Bəhram Həsənov 69
Yetim Hüseyn dastanı 71
Ş.Gədəbəyli. Şeirlər *92*
M.Süleymanlı. Yer üzünə məktub 93

Yığılmağa verilmiş 04.12.2013
apa imzalanmış 24.12.2013
Şərti çap vərəqi 7,5. Sifariş № 382.
*Kağız formatı **70x100** 1/16. Tiraj 1000*

*Jurnal **«Nurlan»** nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*